# 525-ci qəzet

11 iyul 2012-ci il, çərşənbə №121 (3677). Qiymәti 20 qәpik

www.525.az


## "Azərbaycan və Ermənistan prezidentlərinin görüşü nəzərdə tutulmur"

***ATƏT-İN MİNSK QRUPUNUN HƏMSƏDRİ ROBERT BRADTKE:***
"TƏMAS XƏTTİNİ KEÇMƏK PRAKTİKASINI DAVAM ETDİRMƏK ÇOX VACİBDİR"



Azərbaycan Prezidenti İlham Əliyev iyulun 10-da ATƏT-in Minsk qrupunun həmsədrləri Robert Bradtkeni (ABŞ), İqor Popovu (Rusiya), Jak Foru (Fransa) və ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anji Kaspşiki qəbul edib. APA-nın məlumatına görə, görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı danışıqların hazırkı vəziyyəti və perspektivləri ilə əlaqədar məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Həmsədrlər jurnalistlərə açıqlamasında bildiriblər ki, Azərbaycan və Ermənistan prezidentlərinin Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə bağlı görüşü hələlik nəzərdə tutulmur. Rusiyalı həmsədri İqor Popovun sözlərinə görə, həmsədrlər regiona səfəri başa vurduqdan sonra hər iki ölkənin xarici işlər nazirləri ilə yenidən görüşməyi planlaşdırırlar. İqor Popov həmsədrlərin regiona səfərin gedişində gələcəklə bağlı planları müzakirə edəcəklərini deyib: "Yaxın perspektivdə, çox güman ki, yay tətili başa çatdıqdan sonra biz Azərbaycan və Ermənistanın xarici işlər nazirləri ilə əvvəlcə ayrı-ayrılıqda, sonra isə bir yerdə görüş keçirməyi planlaşdırırıq. Buna görə də hələlik prezidentlərin görüşündən söhbət getmir". XİN başçıları ilə görüşün vaxtı ilə bağlı sualı cavablandıran İqor Popov bildirib ki, hər şey nazirlərin iş qrafikindən asılıdır və bu görüş çox güman ki, yay başa çatdıqdan sonra baş tutacaq. Rusiyalı həmsədr Bakıda Azərbaycan prezidenti və xarici işlər naziri ilə görüşlərdə son zamanlar qoşunların təmas xəttində baş verən insidentlərin müzakirə olunduğunu deyib. O bildirib ki, Dağlıq Qarabağ və İrəvanda da eyni məsələnin müzakirəsi nəzərdə tutulub.

ATƏT-in Minsk Qrupunun amerikalı həmsədri Robert Bradtke jurnalistlərə açıqlamasında Azərbaycan prezidenti ilə görüşün çox konstruktiv keçdiyini deyib. O qeyd edib ki, həmsədrlər bu gün qoşunların təmas xəttinin Azərbaycan tərəfdən keçərək Qarabağa gedəcəklər: "Təmas xəttini keçmək praktikasını davam etdirmək çox vacibdir. Bu, atəşkəs rejiminin qorunub saxlanmasının vacibliyini ortaya qoyur. Təmas xətti bu regionun insanlarını daim ayıran xətt olmamalıdır".

## Prezident məhbusların hüquq və azadlıqlarıyla bağlı sərəncam imzaladı

Azərbaycan Prezidenti İlham Əliyev "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" qanunun tətbiqi barədə fərman imzalayıb.

APA-nın məlumatına görə, Nazirlər Kabinetinə tapşırılıb ki, Azərbaycan qanunlarının və Prezidentin aktlarının "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" qanuna uyğunlaşdırılması barədə təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan prezidentinə təqdim etsin, həmin qanunun pozulmasına görə məsuliyyət növlərinin müəyyən edilməsi ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan prezidentinə təqdim etsin, qanunda nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini həyata keçirəcək orqan barədə təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan prezidentinə təqdim etsin. Üç ay müddətində Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan prezidentinə məlumat versin, mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan prezidentinə məlumat versin, qanuna uyğun olaraq, həbs yerlərinin daxili intizam qaydalarını üç ay müddətində Azərbaycan prezidenti ilə razılaşdırmaqla təsdiq etsin, tutulmuş və ya həbs edilmiş şəxslərin yemək və maddi-məişət normalarını üç ay müddətində müəyyən etsin və bu barədə Azərbaycan prezidentinə məlumat versin, tutulmuş və ya həbs edilmiş şəxslərə tibbi və psixoloji yardım göstərilməsi, habelə onların tibb müəssisələrində saxlanılması qaydalarını üç ay müddətində müəyyən etsin və bu barədə Azərbaycan prezidentinə məlumat versin.

Ədliyyə Nazirliyinə mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" qanuna uyğunlaşdırılmasını təmin etmək və bu barədə Nazirlər Kabinetinə məlumat vermək tapşırılıb.

Qanunda nəzərdə tutulmuş məsələlərin tənzimlənməsi məqsədi ilə bu Fərmana əsasən, müəyyən ediləcək normalarda hamilə qadınlar, yanında 3 yaşınadək uşağı olan qadınlar və yetkinlik yaşına çatmayanlar üçün yaxşılaşdırılmış maddi-məişət şəraiti və xüsusi yemək normaları da əks olunmalıdır.

## *Lamberto Zannier:* "Qərarı sonda yalnız münaqişə tərəfləri verir"

"BİZİM EDƏ BİLƏCƏYİMİZ İSƏ DİALOQ ÜÇÜN MƏKAN TƏYİN EDİB, DANIŞIQLAR YOLU İLƏ MƏSƏLƏNİN HƏLLİNİ TAPMAĞA KÖMƏK GÖSTƏRMƏKDİR"

**Azərbaycanda səfərdə olan ATƏT-in baş katibi Lamberto Zannier bir neçə mətbuat orqanına müsahibəsində ATƏT-Azərbaycan əməkdaşlığı, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı fikirlərini bölüşüb.**

***— Cənab baş katib, bu il Azərbaycanın ATƏT-ə üzv olmasının 20 illiyi tamam oldu. Siz ötən müddət ərzində qurulmuş əməkdaşlığı necə dəyərləndirirsiniz?***

— Bu illər ərzində biz Azərbaycanla təhlükəsizliyin üç sahəsində — siyasi-hərbi, iqtisadi və ətraf mühit, həmçinin insan haqları sahəsində əməkdaşlığı inkişaf etdirmişik. Azərbaycan ATƏT ilə siyasi dialoqda fəal iştirakçıdır. Mənim ATƏT-in baş katibi olaraq ölkəyə ilk səfərim qurumun bu ölkənin rəsmiləri, parlamentariləri, vətəndaş cəmiyyəti və mediası ilə sıx əməkdaşlığının göstəricisidir. Biz üzləşdiyimiz ölkədaxili və transmilli təhlükələr kimi qlobal problemlərin həllini tapmaq üçün konsensusla idarə olunan təşkilatımızla birgə əməkdaşlıq etməyə davam edəcəyik. Biz həmçinin siyasi forumlar çərçivəsində və bizim Bakıdakı ofisimiz vasitəsilə təhlükəsizliyin siyasi-hərbi, iqtisadi və ətraf mühit, həmçinin insan sahəsində Azərbaycanla səmərəli əməkdaşlığı davam etdirmək niyyətindəyik.

***— Bu gün ATƏT-lə Azərbaycan bir çox sahələrdə — insan haqları, demokratiya, qanunvericilik və digər istiqamətlərdə əməkdaşlıq edir və qurum qarşısında bir sıra öhdəlikləri var. Azərbaycanın öhdəliklərini yerinə yetirməsini necə qiymətləndirirsiniz?***

— ATƏT öhdəliklərinin yerinə yetirilməsi bir prosesdir. Biz iştirakçı ölkələrimizi dəyərləndirmirik və ya onların reytinqini müəyyən etmirik, sadəcə olaraq onlarla birgə işləyir və bu öhdəlikərin yerinə yetirilməsində yardım edirik. Bizim Azərbaycanla olan işimizin yaxşı nümunəsi kimi Bakıdakı ofisimiz tərəfindən məhkəmə işlərinin monitorinqini misal gətirmək olar. Ofis həmçinin bu prosesi necə təkmilləşdirmək barədə tövsiyələr verir. Təcrübə və



qanunvericiliyi təkmilləşdirmək üçün bu tövsiyələr Ədliyyə Nazirliyinin, məhkəmə sisteminin, prokurorluğun və digər orqanların nümayəndələrindən ibarət olan işçi qrupu çərçivəsində müzakirə olunur. Siyasi-hərbi sahədə bizim Bakıdakı ofisimiz transmilli təhlükələrin qarşısını almaqla bağlı fəaliyyət göstərir. Məsələn, biz insan alverinin qarşını almaqla məşğul olmaq üçün polis əməkdaşlarına təlimlər keçirik. İqtisadi və ətraf mühit sahələrində biz xırda və orda sahibkarlara pulsuz hüquqi məsləhətlər verir, korrupsiya əleyhinə fəaliyyət planının və həmçinin ətraf mühit layihələrinə cəlb olunan vətəndaş cəmiyyəti təşkilatları tərəfindən Təhlükəsizlik və Ətraf Mühit üçün Mülki Fəaliyyət qrant proqramının icrasına dəstək veririk. Bakıdakı ofis, həmçinin Azərbaycanda baş verən hadisələrin obyektiv şəkildə ATƏT ictimaiyyətinə çatdırılması kimi faydalı və dəyərli funksiyaya malikdir. Bu təşkilat və Azərbaycan üçün müsbət keyfiyyətdir, çünki Azərbaycan da daxil olmaqla 56 ölkənin heç birində belə bir vəzifəni yerinə yetirən ikinci bir orqan yoxdur.

***— Bu gün Cənubi Qafqaz bölgəsində mövcud münaqişələr, o cümlədən uzun illərdir davam edən Dağlıq Qarabağ problemi regionda təhlükəsizlik və stabilliyə böyük təhlükə yaradır. Təəssüf ki, ATƏT-in Minsk qrupunun vasitəçilik missiyası hələ ki, hər hansı nəticəyə gətirməyib. Siz problemin nizamlanmasına nail olmaq üçün nə təklif edirsiniz? ATƏT çərçivəsində hansı modeli münaqişənin həllində uğurlu hesab edirsiniz?***

*Ardı 5-ci səh.*

## Azərbaycanda yeni sement zavodunun açılışı oldu

PREZİDENT İLHAM ƏLİYEV MƏRASİMDƏ İŞTİRAK ETDİ



Azərbaycan Prezidenti İlham Əliyev iyulun 10-da Bakının Qaradağ rayonunda "Holcim-Azərbaycan" ASC-nin yeni sement zavodunun açılışında iştirak edib. "APA-Economics"in məlumatına görə, dövlət başçısına məlumat verilib ki, quru üsulla məhsul istehsal edən bu zavod Cənubi Qafqaz regionun sement sənayesində yeni dövrün başlanğıc nöqtəsi olacaq.

Quru üsulla sement istehsalı yanacaq sərfiyyatı və ətraf mühitə təsir baxımından daha səmərəli olduğu üçün Avropada geniş yayılmış texnologiyadır. Üç yüz milyon avro dəyərində olan bu layihə yerli məhsulların istehsalını dəstəkləməklə ölkənin inşaat sektorunun daha da inkişafına töhfə verəcək.

## Türkmənistan XİN Elmar Məmmədyarovun fikirlərinə münasibət bildirdi

Türkmənistan Xarici İşlər Nazirliyi Azərbaycan xarici siyasət idarəsinin rəhbəri Elmar Məmmədyarovun Türkmənistanın "Kəpəz" ("Sərdar") yatağı ilə bağlı mübahisənin beynəlxalq arbitraj instansiyalarında baxılması üçün rəsmi olaraq Azərbaycan tərəfinə müraciət etməməsi bəyanatı ilə əlaqədar məlumat yayıb.

APA-nın Türkmənistan dövlət agentliyinə istinadən yaydığı xəbərə görə, bu ölkənin Xarici İşlər Nazirliyinin yaydığı məlumatda bildirilir ki, Azərbaycanın Xəzər dənizində qanunsuz birtərəfli fəaliyyəti ilə bağlı bu ölkəyə dəfələrlə rəsmi diplomatik notalar göndərilib (Söhbət "Ömər" və "Osman" yataqlarında gerçəkləşdirilən qanunsuz hasilat və "Sərdar" yatağına qarşı hüquqi əsası olmayan tələblərdən gedir).

"Türkmənistan tərəfi rəsmi xəbərdarlıq məktublarında yuxarıda qeyd olunan məsələ ilə bağlı danışıqlar prosesini davam etdirməyə hazır olduğunu bəyan edib və qeyd edib ki, ikitərəfli razılaşmaların əldə olunduğu mümkün olmayacağı təqdirdə Türkmənistan beynəlxalq məhkəmələrə və arbitraj instansiyalarına müraciət etmək hüququnu özündə saxlayır. Bundan başqa, 2009-cu il avqustun 4-də Türkmənistan Xarici İşlər Nazirliyi Xəzərin səthinin və dibinin delimitasiyası məsələlərinə dair ölkəsinin rəsmi mövqeyini dərc edib və orada beynəlxalq məhkəməyə müraciət etməyin məqsədəuyğunluğu qeyd olunub. Bunları qeyd edərək Türkmənistan tərəfi Azərbaycan xarici işlər nazirinin fikirlərindən təəccübləndiyini bildirir", — deyə məlumatda vurğulanır.

Xatırladaq ki, Elmar Məmmədyarov srağagün keçirilən mətbuat konfransında jurnalistlərin sualına cavab olaraq bildirib ki, Türkmənistan tərəfi "Kəpəz" yatağı ilə bağlı beynəlxalq məhkəməyə müraciət edəcəyi barədə Azərbaycan Xarici İşlər Nazirliyinə müraciət etməyib. XİN başçısı Xəzərin hüquqi statusu ilə bağlı danışıqların davam etdiyini qeyd edib: "Danışıqlar gedir, bütün məsələlər üç tərəflə razılaşdırılıb, düşünürəm ki, eyni mexanizmlərdən istifadə etməklə biz bu məsələləri Türkmənistan və İranla da razılaşdıra biləcəyik".

## Azərbaycan Rusiyaya növbəti humanitar yardım göndərdi

Azərbaycan Fövqəladə Hallar Nazirliyi (FHN) Rusiyanın Krasnodar diyarında sel fəlakəti ilə əlaqədar növbəti yardım karvanını yola salıb.

APA-nın məlumatına görə, dünən yola salınan karvanı da 22 maşından ibarət olub. Maşınlardan 20-nə içməli su, bir avtomobilə uşaqlar üçün gigiyenik paketlər, bir avtomobilə isə qadın və uşaqlar üçün geyimlər yüklənib.

FHN Mülki Müdafiə Qoşunlarının komandanı, general-mayor İlham Abdullayev jurnalistlərə açıqlamasında bildirib ki, bu, dövlət başçısı İlham Əliyevin tapşırığı ilə Krasnodar diyarında təbii fəlakətdən zərər çəkmiş insanlar üçün yola salınan ikinci yardım karvanıdır.

"Yardım karvanı sabah (bu gün — red.) fəlakət zonasına çatacaq", — deyə İ. Abdullayev vurğulayıb.

Generalın sözlərinə görə, avtomobil karvanı ilə daşqın zonasına FHN-in 51 nəfərlik şəxsi heyəti də yola düşüb. Hazırda Krasnodarda birinci karvanla getmiş FHN-in 38 əməkdaşı var.

Qeyd edək ki, iyulun 8-də yola salınmış birinci humanitar yardım karvanı da 22 avtomobildən ibarət olub. İlk karvanla fəlakət zonasına ərzaq məhsulları göndərilib.

Xatırladaq ki, Krasnodar diyarına baş verən daşqınlardan 24 min nəfər ziyan çəkib, 172 nəfər ölüb.

## Bu gün cəbhədə ATƏT-in monitorinqi olacaq

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq iyulun 11-də Azərbaycan Respublikasının Ağdam-Bərdə yolundakı təmas xəttində monitorinq keçirilməsi planlaşdırılır.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən APA-ya verilən məlumata görə, monitorinqi Azərbaycan tərəfdə ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Uilyam Prayor və Xristo Xristov keçirəcəklər. Təmas xəttinin qarşı tərəfində isə monitorinqi ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Antal Herdiç və Jiri Aberle izləyəcək.

Monitorinq zamanı həmsədrlərin təmas xəttinin qarşı tərəfinə keçəcəyi gözlənilir.

## Rusiya Suriyaya silah ixracını dayandırdı

***HƏRBİ-TEXNİKİ ƏMƏKDAŞLIQ ÜZRƏ FEDERAL XİDMƏTİN RƏİS MÜAVİNİ:*** "SABİTLİK BƏRQƏRAR OLUNMAYANA QƏDƏR SURİYAYA SİLAH-SURSAT SATMAYACAĞIQ"

Rusiya Suriyaya silah-sursat ixracını dayandırıb. APA-nın Moskva müxbirinin verdiyi məlumata görə, bu barədə Hərbi-Texniki Əməkdaşlıq üzrə Federal Xidmətin rəis müavini Vyaçeslav Dzerkaln jurnalistlərə açıqlamasında bildirib. Onun sözlərinə görə, Rusiya sabitlik bərqərar olmayana kimi Suriyaya silah satmayacaq və bu ölkə ilə yeni hərbi müqavilələr imzalamayacaq. Vəziyyət normallaşmayana kimi Suriyaya "Yak-130" tipli hərbi təyyarələrinin də satılmayacağını söyləyən V. Dzerkaln bildirib ki, 3 ədəd "Mİ-25" hərbi helikopteri təmir olunduqdan sonra Suriyaya göndərilib: "İndiyə qədər iki ölkə arasında bağlanmış hərbi müqavilələri yerinə yetirirdik. Bu müqavilələrə indiyə qədər Suriyaya satdığımız hərbi təyyarələrin və helikopterlərin təmiri də daxil idi. Sabitlik bərqərar olunmayana qədər Suriyaya silah-sursat satışı gerçəkləşdirilməyəcək".

Qeyd edək ki, Rusya bir müddət əvvəl Suriya ilə 550 milyon ABŞ dolları dəyərində 36 ədəd "Yak-130" hərbi təyyarəsinin satışı haqqında müqavilə imzalayıb.

# Təhsil Nazirliyinin Akkreditasiya Şurasının növbəti iclası olub

Dünən Təhsil Nazirliyində Akkreditasiya Şurasının növbəti iclası keçirilib.

İclasda Quba Dövlət Sosial-İqtisadi Kolleci, Bakı Qida Sənayesi Kolleci, Bakı Neft-Energetika Kolleci və Bakı Sənaye-Pedaqoji Kollecinin akkreditasiyasının nəticələri müzakirə olunub.

Təhsil naziri Misir Mərdanov iclası giriş sözü ilə açaraq ali və orta ixtisas təhsili müəssisələrinin akkreditasiyası istiqamətində aparılmış işlərin önəminə diqqət çəkib.



Sonra nazir Quba Dövlət Sosial-İqtisad Kollecində aparılmış akkreditasiyanın nəticələri barədə məlumat vermək üçün sözü həmin müəssisə üzrə Akkreditasiya Komissiyasının sədri, Azərbaycan Dövlət Pedaqoji Universitetinin Hesablama riyaziyyatı və informatika kafedrasının dosenti Əbülfət Pələngova verib. Ə.Pələngov Quba Dövlət Sosial-İqtisad Kollecinın maddi-texniki bazası, təhsilin məzmunu, bu təhsil müəssəsinin fəaliyyətinin statusuna uyğunluğundan söz açaraq son beş ildə məzunların ümumi göstəriciləri, müvafiq test sorğusunun nəticələri barədə danışıb. Ə.Pələngov kollecin fəaliyyətinin daha səmərəli təşkili üçün Akkreditasiya Komissiyasının tövsiyələrini diqqətə çatdırıb.

Bakı Qida Sənayesi Kolleci üzrə Akkreditasiya Komissyasının sədri, Azərbaycan Dövlət İqtisad Universitetinin Dizayn kafedrasının müdiri Oqtay Şamxalov qeyd olunan təhsil müəssisəsində aparılmış araşdırmalardan, bir sıra göstəricilərdən söz açıb. O.Şamxalov kollecin fəaliyyətinin statusuna uyğunluğu, burada mütəxəssis hazırlığının keyfiyyəti və digər bu kimi məsələlər üzrə komissiyanın gəldiyi qənaətlə şura üzvlərini tanış edib.

Sonra çıxış edən Bakı Neft-Energetika Kolleci üzrə Akkreditasiya Komissiyasının sədri, Bakı Texniki Kollecinin tədris işləri üzrə direktor müavini Fərrux Məmmədov kollecin akkreditasiyaya təqdim olunmuş ixtisaslar üzrə təhsil proqramının məzmunundan, müəssisədə tədrisin təşkili vəziyyətindən söhbət açıb. F.Məmmədov təqdimat-məruzəsində kollecin akkreditasiyaya təqdim olunmuş ixtisaslar üzrə fəaliyyət imkanlarından bəhs edib.

Bakı Sənaye-Pedaqoji Kolleci üzrə Akkreditasiya Komissiyasının sədri, Azərbaycan Dövlət Pedaqoji Kollecinin tədris hissə müdiri Gültəkin Əliyeva bu təhsil müəssisəsinin fəaliyyət istiqamətləri, son beş ildə müəllim heyətinin hər 10 nəfərinə düşən qriflə nəşr olunmuş dərs vəsaitlərinin sayı, kollecin tədris şəraiti, eyni zamanda pedaqoji heyətin fəaliyyəti barədə məlumat verib.

Sonra qeyd olunan kolleclərdə akkreditasiyanın nəticələrinə dair şura üzvlərini maraqlandıran suallar cavablandırılıb, rəy və təkliflər səsləndirilib.

Təhsil naziri müvafiq təhsil müəssisələrində aparılmış araşdırmalarla bağlı fikirlərini bildirib, tövsiyə və tapşırıqlarını verib.

Akkreditasiya Surasının iclasında müəyyənləşdirilmiş meyarlar üzrə tələblərə uyğunluğu nəzərə alınaraq, qeyd olunan kolleclərin fəaliyyətinin "kafi" qiymətləndirilməsi və bu təhsil ocaqlarının müvafiq ixtisaslarının akkreditə olunması barədə qərar qəbul edilib.

**S.QARAYEVA**

# Ötən ay Təhsil Nazirliyinin "Qaynar xətt"inə 1073 dəfə müraciət edilib

İyun ayında Təhsil Nazirliyinin "Qaynar xətt" xidmətinə (telefon: 146; faks: 496-37-61; elektron poçt ünvanı: qaynar-xett@edu.gov.az) 1073 müraciət daxil olub. Müraciətlərin 985-i telefonla, 88-i elektron poçt vasitəsilə qəbul edilib.

Nazirlikdən verilən məlumata görə, müraciətlərin böyük əksəriyyəti sorğu xarakterli olub. Sorğuların çoxu təhsil haqqında sənədlərin verilməsi, ümumi təhsil məktəblərinə və peşə liseylərinə müəllimlərin müsabiqə yolu ilə işə qə-bulu, növbəti dərs ilindən müəllimlərin dərs yükü normaları, müəllimlərin yaş senzi, istedadlı şagirdlər arasında keçirilmiş olimpiadanın nəticələri və beynəlxalq olimpiada qaliblərinə verilən güzəştlərlə bağlı olub. Xaricdə təhsil, xarici ölkələrin təhsil müəssisələri tərəfindən verilmiş təhsil sənədlərinin tanınması, ümumi təhsil məktəbləri müəllimlərinin əmək haqqının hesablanması, təhsil sənədlərinin alınması, ümumi təhsil məktəbi məzunlarının təhsildə qazandıqları uğurlara görə medallarla təltifi qaydaları da müraciətlərdə əksini tapan məsələlərdir. Bütün sorğular "Qaynar xətt" xidməti tərəfindən qeydə alınaraq cavablandırılıb. Bir sıra müraciətlərdə ümumi təhsil, internat, orta-ixtisas və ali təhsil müəssisələrindəki bəzi problemlərdən bəhs olunur. Bu qəbildən olan 29 müraciət əsasında araşdırmalar aparılıb, mövcud problemlərin aradan qaldırılması istiqamətində müvafiq tədbirlər həyata keçirilib.

Ötən ay "Qaynar xətt" xidmətinə daxil olan şikayət məzmunlu müraciətlərin 4-ü Bakı şəhərindən, 7-si Abşeron, 1-i isə Saatlı rayon ümumi təhsil məktəbləri ilə əlaqədar olub. Müraciətlərdə şagirdlərin illik qiymətlərinin çıxarılması, təhsil sənədlərinin doldurulması və məzunlara verilməsi sahəsində çatışmazlıqlar, məktəb rəhbərlərinin yol verdikləri nöqsanlar, habelə digər məsələlər öz əksini tapıb. İyunuda "Qaynar xətt" xidmətinə xüsusi internat məktəbi və uşaq yaradıcılıq mərkəzinin hər birindən 1 şikayət məzmunlu olmaqla 2 müraciət daxil olub.

Təhsil Nazirliyinin ali və orta ixtisas təhsili müəssisələrində 2011-2012-ci tədris ilində "İmtahan sessiyasının təşkili və keçirilməsi barədə" 25 may 2012-ci il tarixli, 988 saylı əmrinin icrası ilə bağlı "Qaynar xətt" xidmətinə qeyd olunan təhsil müəssisələrindən daxil olan müraciətlərin operativ şəkildə araşdırılması təmin edilib. Bu da ali və orta ixtisas təhsili müəssisələrində yay imtahan sessiyasında tələbələrin biliyinin qiymətləndirilməsində şəffaflığı və obyektivliyi təmin etməyə, yarana biləcək neqativ halları aradan qaldırmağa və digər müvafiq tədbirlərin həyata keçirilməsinə kömək edib.

2011-2012-ci tədris ilinin yay imtahan sessiyasında Təhsil Nazirliyinin "Qaynar xətt" xidməti tərəfindən ali və orta ixtisas təhsili müəssisələrindən 15 müraciət qəbul edilib. Onlardan 10-u dövlət, 4-ü özəl ali təhsil, 1-i orta ixtisas təhsili müəssisələri ilə əlaqədardır. Həmin müraciətlər ali təhsil, magistratura təhsili, tələbələrin semestr və dövlət imtahanlarına buraxılması, təhsil haqqının ödənilməsi qaydaları, təqaüdlərin gecikdirilməsi və digər məsələlərlə bağlı olub. İmtahan sessiyasının gedişi ilə əlaqədar Azərbaycan Müəllimlər İnstitutunun Mingəçevir filialı, Azərbaycan Dövlət İqtisad Universiteti, Sumqayıt Dövlət Universiteti, Bakı Dövlət Universiteti, Azərbaycan Dövlət Pedaqoji Universiteti və digər ali təhsil müəssisələrindən daxil olan müraciətlərdə tələbələr daha çox aldıqları qiymətlərdən narazılıqlarını bildirib, apelyasiya qaydasında qiymətlərinin yüksəldilməsinə köməklik göstərilməsini xahiş ediblər. Bununla əlaqədar Təhsil Nazirliyinin müvafiq qurumlarının əməkdaşları müraciət daxil olmuş ali təhsil müəssisələrinin və QHT-lərin nümayəndələri ilə birgə araşdırmalar aparıb və tələbələrin biliyinin obyektiv qiymətləndirilməsi təmin edilib. Özəl ali təhsil müəssisələrindən daxil olan 4 müraciətdə tələbələrin imtahanlara buraxılmaması, təkrar imtahanlara rüsum tələb olunması, imtahanın keçirilməsi qaydalarının pozulması və məzunlara diplomların verilməməsi ilə bağlı yaranmış çətinliklər öz əksini tapıb. Qeyd olunmuş müraciətlər üzrə aparılmış araşdırmalarla bağlı tədbirlərin həyata keçirilməsi üçün müvafiq struktur bölmələrə məlumatlar verilib, gələcək fəaliyyət istiqamətlərində belə nöqsanların qarşısının alınması tövsiyə olunub.

**S.QARAYEVA**

# Növbəti tədris ilində akkreditasiya olunacaq təhsil müəssisələrinin siyahısı hazırlanıb

Azərbaycanda 2012-2013-cü tədris ilində akkreditasiya olunacaq təhsil müəssisələrinin siyahısı tərtib edilib. Təhsil Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, növbəti tədris ilində Azərbaycanda 5 ali təhsil, 13 orta ixtisas təhsili, 12 peşə təhsili və 11 ümumtəhsil müəssisəsinin akkreditasiyası həyata keçiriləcək. Təhsil müəssisələrinin akkreditasiyasına oktyabr ayının sonlarında start veriləcək.

Qeyd edək ki, hazırda Azərbaycanda fəaliyyət göstərən ali, orta ixtisas və peşə təhsili müəssisələrinin akkreditasiyası keçirilir. Bu tədris ocaqlarının akkreditasiyası hər 5 ildə (əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər, xarici hüquqi şəxslər tərəfindən təsis edilmiş təhsil müəssisələrinin akkreditasiyası 3 ildə) bir dəfə həyata keçirilir.

Nazirliyin məlumatında bildirilib ki, "Azərbaycanda doktorantura təhsilinin dövlət standartı və proqramı"nın yekun variantını Nazirlər Kabinetinə təqdim edilib. 10 səhifəlik sənəd Azərbaycanda doktorantura təhsilini tənzimləyən əsas sənəd olacaq: "Sənəddə həm fəlsəfə doktoru, həm də elmlər doktoru proqramları üzrə kredit sisteminin tətbiqi nəzərdə tutulur. Sənədin son variantı Azərbaycan Milli Elmlər Akademiyası ilə də razılaşdırılıb. İstəyirik ki, 2012-2013-cü tədris ili üçün doktoranturaya sənəd qəbulu başlayana qədər bu sənəd təsdiq edilsin, doktoranturaya qəbul yeni standartlar əsasında keçirilsin". Məlumatda qeyd olunub ki, doktoranturada kredit sisteminin tətbiqi ilə bağlı ayrıca Əsasnamə hazırlanacaq. Hazırda nazirliyin işçi qrupu bu sənəd üzərində işə başlayıb.

**S.QARAYEVA**

# Moskva Dövlət Universitetinin nümayəndələri Abel Məhərrəmovla görüşüblər

Dünən Bakı Dövlət Universitetinin (BDU) rektoru, akademik Abel Məhərrəmov M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin rektoru, universitetin fəxri doktoru, akademik Viktor Antonoviç Sadovniçinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

Görüşdə universitetlərarası elm, təhsil və innovasiyalar sahəsində ikitərəfli əməkdaşlıq məsələləri müzakirə edilib, tərəflər arasında əməkdaşlıq haqqında artıq vaxtı başa çatmaq üzrə olan müqavilə yeniləşdirilərək yenidən imzalanıb.

Nümayəndə heyəti BDU-nun elmi laboratoriyaları, Elektron Tədris Mərkəzi, Heydər Əliyev Muzeyinə baş çəkib, Konfutsiy İnstitutunun fəaliyyəti, elm və təhsil sahəsində həyata keçirilən innovasiya layihələri ilə tanış olublar. Akademik Sadovniçi "BDU-nun fəxri qonağı" adına layiq görülüb və o BDU-ya xeyli sayda kitab hədiyyə edilib. Görüşdə rektor köməkçisi Vyaçeslav Vyaçeslavoviç Qoryaçko, beynəlxalq əməkdaşlıq idarəsinin rəhbəri prorektor Nikolay Vladimiroviç Semin də iştirak edib.

**S.QARAYEVA**

# Azərbaycan nümayəndə heyəti MONEYVAL-ın iclasında iştirak edib

Fransanın Strasburq şəhərində Avropa Şurasının Pulların yuyulmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə (PY/TMM) tədbirlərin qiymətləndirilməsi üzrə Ekspertlər Komitəsinin (MONEYVAL) 39-cu plenar iclası keçirilib. İclasda Azərbaycanı Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin sədri Rüfət Aslanlının rəhbərlik etdiyi nümayəndə heyəti təmsil edib. Komitədən verilən məlumata görə, plenar iclasın gündəliyinə Komitə tərəfindən 2010-cu ildə MONEYVAL-a üzv ölkələrin 3-cü mərhələ qiymətləndirməsinin nəticələri əsasında hazırlanmış "horizontal icmal"a əsasən Azərbaycana təqdim olunmuş tövsiyələrin icra vəziyyətinə dair müzakirələr daxil edilib.

Plenar iclasın gedişində Azərbaycan nümayəndə heyəti müvafiq istiqamətdə ölkədə həyata keçirilmiş işlərin statusuna dair hesabat təqdim olunub. Müzakirələrin yekunu olaraq Komitə hökumət tərəfindən tövsiyələrin icrası istiqamətində əldə edilmiş tərəqqini nəzərə alaraq ölkəmizə qarşı tətbiq edilən formal hesabatlıq rejiminin aradan qaldırılmasına dair qərar qəbul edib.

Plenar iclasın gedişində Komitə tərəfindən Latviya Respublikasında aparılmış 4-cü mərhələ qiymətləndirmənin yekunları müzakirə edilib, bu əsnada Azərbaycan nümayəndə heyətinin üzvü Anar Salmanovun Komitənin Latviya üzrə hüquqi məsələlərə dair qiymətləndiricisi qismində hazırladığı hesabat da müzakirə edilərək qəbul olunub.

Gündəliyə müvafiq olaraq növbəti 40-cı iclasda tərəqqi hesabatları dinləniləcək ölkələrin siyahısı da təsdiq olunub, Azərbaycan Moldovanın 2-ci tərəqqi hesabatı üzrə hüquq məsələlərinə dair məruzəçi ölkə təyin edilib.

Bundan başqa, plenar iclasın gündəliyinə uyğun olaraq MONEYVAL-a üzv olan bir sıra dövlətlərin birgə qiymətləndirmə hesabatları, tərəqqi hesabatları, habelə "xüsusi monitorinq rejimi" və "horizontal icmal" çərçivəsində İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının Maliyyə Tədbirləri üzrə İşçi Qrupunun (FATF) tövsiyələri üzrə çatışmazlıqları mövcud olan ölkələrin hesabatları da müzakirə olunub.

**BƏXTİYAR**

# İlin sonuna kimi FAO-nun Bakıda Əlaqələndirmə Ofisi açılacaq

Dünən kənd təsərrüfatı naziri İsmət Abasov BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) baş direktorunun xüsusi müşaviri Məhəmməd Ruiqinin rəhbərliyi ilə ölkəmizdə səfərdə olan nümayəndə heyəti ilə görüşüb. Kənd Təsərrüfatı Nazirliyindən verilən məlumata görə, missiyanın əsas məqsədi FAO-nun Bakıda Əlaqələndirmə Ofisinin açılması ilə bağlı Azərbaycanın aidiyyəti dövlət qurumları ilə müzakirələr aparmaq və tərəflərin öhdəliklərini təfsilatlı şəkildə müzakirə etməkdən ibarətdir.



FAO nümayəndə heyəti ilə görüş zamanı nazir İ. Abasov Azərbaycanda iqtisadiyyatın diversifikasiyası, kənd təsərrüfatı və kənd yerlərinin inkişafı, ərzaq təhlükəsizliyinin gücləndirilməsi istiqamətində hökumət səylərinin dəstəklənməsində FAO tərəfindən ölkəmizdə həyata keçirilən layihələrin və bu təşkilatın mütərəqqi təcrübəsinin rolunun təqdirəlayiq olduğunu vurğulayıb. Nazir bu ilin aprel ayında Bakıda keçirilmiş FAO-nun Avropa üzrə 28-ci Regional Konfransı ərəfəsində Azərbaycan Prezidenti İlham Əliyev və FAO-nun baş direktoru cənab Jose Qratsiano da Silva arasında keçirilmiş görüşü və görüş zamanı FAO ilə Azərbaycan arasında əməkdaşlığın yeni müstəviyə qədəm qoyması üzrə tərəflərin razılığını xatırladaraq, FAO-nun Bakıda Əlaqələndirmə Ofisinin açılması ilə bağlı ən yüksək səviyyədə siyasi iradə və dəstəyin olduğunu diqqətə çatdırıb. İ. Abasov, həmçinin FAO-nun Bakıda Əlaqələndirmə Ofisinin açılmasının Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən şəxsən dəstəklənməsinin ölkəmizin aqrar sahədə beynəlxalq əməkdaşlığa və ələlxüsus bu sahədə ən mötəbər qurumlardan biri olan FAO ilə əməkdaşlığa verdiyi önəmin göstəricisi kimi qiymətləndirib.

FAO baş direktorunun xüsusi müşaviri Məhəmməd Ruiqi isə öz növbəsində təşkilatın baş direktorunun salamlarını nazir İ. Abasova çatdıraraq səmimi qəbula görə təşəkkürünü bildirib. M. Ruiqi FAO-nun Bakıda Əlaqələndirmə Ofisinin açılması təşəbbüsünün Azərbaycan Prezidenti tərəfindən dəstəklənməsinin ölkəmizin qısamüddətli dönəmdə milli, regional və uzunmüddətli dönəmdə qlobal ərzaq təhlükəsizliyi üzrə səylərə verəcəyi töhfə kimi qiymətləndirib. O, həmçinin əlaqələndirmə ofisinin açılması ilə bağlı ilkin müsbət qərar olacağı təqdirdə Azərbaycanın aidiyyəti dövlət qurumlarının nümayəndələrindən ibarət heyətin digər ölkələrdə əlaqələndirmə ofislərinin fəaliyyəti və iş prinsipi ilə tanış olmaq məqsədilə bu ofislərin yerləşdiyi ölkələrə səfərinin təşkil edilməsinin mümkünlüyünü qeyd edib.

M. Ruiqi tərəf təmsil etdiyi qurumun Bakıda Əlaqələndirmə Ofisinin açılması ilə bağlı işlərin cari ilin sonunadək yekunlaşdırılması niyyətində olduğunu bildirib.

Görüşün sonunda nazir İ.Abasov FAO tərəfindən aclığa və yoxsulluğa qarşı qlobal səylərin səmərəliliyinin artırılması məqsədilə təşkilat tərəfindən üzv ölkələrin siyasi liderləri ilə dialoqun genişləndirilməsi, kənd təsərrüfatı nazirləri ilə birbaşa təmasların sayının artırılması və onların FAO tədbirlərində bilavasitə iştirakı üzrə öz tövsiyələrini verib. O, həmçinin FAO-nun yeni rəhbərliyinin səyləri nəticəsində təşkilatın işində artıq baş verməkdə olan müsbət meylləri alqışlayaraq aclığa və yoxsulluğa qarşı effektiv mübarizənin yeganə yolunun yalnız dünya ictimaiyyətinin bütün üzvlərinin yaxından iştirakı ilə mümkün olduğunu bildirib.

**BƏXTİYAR**

# İspaniya nümayəndə heyəti ARDNŞ-də olub



Dünən ARDNŞ-nin Baş ofisində şirkətin prezidenti Rövnəq Abdullayevlə İspaniyanın xarici işlər üzrə dövlət katibi Gonzalo de Benito Secadesin başçılıq etdiyi nümayəndə heyəti arasında görüş keçirilib. ARDNŞ-dən verilən məlumata görə, R.Abdullayev bütün dünyada qədim neft diyarı kimi tanınan Azərbaycanın enerji sektorunda son dövrdə qazanılmış nailiyyətlər haqda qonaqlara ətraflı məlumat verib, yüz faiz dövlət şirkəti olaraq ARDNŞ-nin ölkə daxilində və xaricdə həyata keçiridiyi irihəcmli mühüm layihələrdən söz açıb.

İspaniyanın xarici işlər üzrə dövlət katibi Gonzalo de Benito Secades Azərbaycana səfərinin ARDNŞ-dən başlanmasından məmnunluğunu ifadə edib. O qeyd edib ki, İspaniyada ARDNŞ-nin həyata keçirdiyi neft-qaz əməliyyatlarını yaxından müşahidə edir və yüksək dəyərləndirir.

Nümayəndə heyətini ARDNŞ rəhbərliyinə təqdim edən qonaq Azərbaycanda xarici şirkətlərlə əməkdaşlıq üçün əlverişli şərait yarandığını söyləyib və ölkəmizdə iqtisadiyyatın müxtəlif sahələrində fəaliyyət göstərən ispan şirkətləri haqqında məlumat verib. O bildirib ki, İspaniya hökuməti bu ölkəni təmsil edən təcrübəli şirkətlərin ARDNŞ-nin ölkə daxilində və xaricdə həyata keçirməyə başladığı layihələrdə iştirak etmələrində maraqlıdır.

Azərbaycanda xarici investisiyaların təşviqi və qorunması sahəsində möhkəm hüquqi baza və zəngin təcrübə yarandığını qeyd edən R.Abdullayev ölkəmizin milli maraqlar və iqtisadi səmərəlilik prinsipi əsasında bütün ciddi şirkətlərlə əməkdaşlıq etməyə hazır olduğunu vurğulayıb. O, bildirib ki, İspaniya şirkətləri tərəfindən təqdim olunan təkliflər də diqqətlə nəzərdə keçiriləcək.

Görüşdə tərəfləri maraqlandıran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

**BƏXTİYAR**

# 44 sahibkarlıq subyektində dövlət əyar nəzarəti keçirilib

Maliyyə Nazirliyinin Qiymətli Metallara və Qiymətli Daşlara Nəzarət Dövlət Xidməti tərəfindən "Qiymətli metallar və Qiymətli daşlar haqqında" Qanununun tələblərinə əməl edilməsi ilə bağlı respublika ərazisində sahibkarlıq subyektində dövlət əyar nəzarəti tədbirləri davam etdirilir. Nazirlikdən verilən məlumata görə, 2012-ci ilin ötən dövrü ərzində 44 sahibkarlıq subyektində dövlət əyar nəzarəti həyata keçirilib. Həyata keçirilmiş əyar nəzarəti tədbirləri zamanı qiymətli metallardan və qiymətli daşlardan hazırlanmış və qanunvericiliyə zidd olaraq dövlət əyar damğası ilə damğalanmayan 31426 ədəd zərgərlik məmulatları aşkar edilib. Bir çox hallarda həmin məmulatların üzərində mənşəyi məlum olmayan ad və əyar damğalarının izləri müəyyən olunub. Qiymətli Metallara və Qiymətli Daşlara Nəzarət Dövlət Xidməti tərəfindən həkk olunmuş mənşəyi məlum olmayan ad və əyar damğalarının izləri məmulatlar üzərindən təmizlənib, məmulatlar əyarlarına uyğun dövlət əyar damğası ilə damğalanıb.



Aparılmış əyar nəzarəti tədbirləri zamanı Gəncə şəhəri, Nizami küçəsi, 50 ünvanında yerləşən Mərkəzi Univermaqda fəaliyyət göstərən səkkiz sahibkara və Gəncə şəhəri, Nizami küçəsində fəaliyyət göstərən iki sahibkara məxsus obyektlərdə aparılan yoxlamalar zamanı dövlət əyar damğası ilə damğalanmayan, standartlara cavab verməyən, üzərində göstərilmiş əyarlara uyğun gəlməyən məmulatların istehlakçılara təklif edilməsi faktlarına daha çox rast gəlinib. Belə ki, qeyd edilən obyektlərdə aparılan yoxlamalar zamanı satışda olan bütün məmulatların, yəni 6847 ədəd zərgərlik məmulatlarının dövlət əyar damğası ilə damğalanmadığı müəyyən olunub. Alıcılara təklif edilən həmin zərgərlik məmulatlarının 46 faizinin əyarlarının, məmulatın üzərində qeyd edilən əyardan aşağı olması faktları aşkar edilib.

2012-ci ilin 6 ayı ərzində keçirilmiş yoxlamalar nəticəsində dövlət büdcəsinə, müvafiq olaraq 299 944,0 manat məbləğində dövlət rüsumunun ödənilməsi təmin edilib və İnzibati Xətalar Məcəlləsinə əsasən 41 800 manat məbləğində inzibati cərimə tətbiq edilib.

Ümumilikdə, 2012-ci ilin 6 ayı ərzində Xidmətə ekspertiza, analiz, əyarlanmaq və damğalanmaq üçün daxil olmuş qiymətli metallardan hazırlanmış zərgərlik məmulatlarına görə 1010121,4 manat dövlət rüsumunun büdcəyə ödənilməsi təmin edilib.

Maliyyə Nazirliyinin Qiymətli Metallara və Qiymətli Daşlara Nəzarət Dövlət Xidməti bir daha vətəndaşlara tövsiyə edir: Keyfiyyətsiz zərgərlik məmulatlarını əldə etməklə maliyyə itkilərinə məruz qalmaq təhlükəsi ilə üzləşməmək üçün dövlət əyar damğası ilə damğalanmamış zərgərlik məmulatlarını almayın!

**BƏXTİYAR**

# İctimai Palata siyasi məhbus mövzusunda dəyirmi masa keçirdi

İctimai Palata siyasi məhbus problemi və Avropa Şurası Parlament Assambleyasının Hüquq komitəsində Azərbaycanda siyasi məhbus probleminə dair qəbul olunan qətnamə ilə əlaqədar dəyirmi masa keçirilib. APA-nın məlumatına görə, politoloqların, vəkillərin, hüquq müdafiəçilərinin iştirak etdiyi tədbiri İctimai Palatanın Koordinasiya Şurasının üzvü Vidadi Mirkamal aparıb. Müsavat Partiyasının başqanı İsa Qəmbər çıxışında siyasi məhbus probleminin həll olunmadığını deyib və hüquq-müdafiə təşkilatlarını beynəlxalq həmkarları ilə əməkdaşlığı artırmağa çağırıb.

Sülh və Demokratiya İnstitutunun direktoru Leyla Yunus siyasi məhbusların vahid siyahısının müəyyənləşdirilməsinin vacibliyini vurğulayıb. O təklif edib ki, tədbirdə AŞPA-nin siyasi məhbuslar üzrə məruzəçisi Kristof Ştrasserin tərtib etdiyi siyahının dəstəklənməsinə dair sənəd qəbul olunsun və ona təşəkkür bildirilsin.

İnsan Haqları Uğrunda İctimai Birliyin sədri Eynulla Fətullayev isə qeyd edib ki, siyasi məhbuslarla bağlı vahid siyahı mövcuddur və K. Ştrasserin tərtib etdiyi siyahı Azərbaycandakı hüquq müdafiəçilərinin həmin quruma göndərdiyi siyahıya uyğun hazırlanıb. O, beynəlxalq təşkilatların yaxın vaxtlarda Azərbaycanda siyasi məhbuslarla bağlı vahid siyahını müəyyənləşdirəcəyini söyləyib: "Vətəndaş cəmiyyəti bu məsələdə mübahisələrə getməməli və birlik nümayiş etdirməlidir".

Professor Cəmil Həsənli "Tolişi sədo" qəzetinin baş redaktoru Hilal Məmmədovun həbsinə toxunub, onun müdafiəsinin təşkilinin vacibliyini diqqətə çatdırıb.

Müsavat Partiyası Mərkəzi İcra Aparatının rəhbəri Arif Hacılı bəyan edib ki, həbsdə olan insanların müdafiəsi kampaniya xarakteri daşımamalıdır: "Avropa Şurası haqqında müsbət sözlər demək olmaz. Azadlığa çıxsaq da, Avropa Şurası bu məsələni hələ müzakirəyə çıxarmayıb. Hətta bu qurumun nümayəndələri tərəfindən məsələyə mübahisəli cavablar verilir. Belə olan təqdirdə ədalət prinsipi pozulur. Avropa Şurasının bu sahədə işi ləngdir və yarıtmazdır".

AXCP sədrinin müavini Sahib Kərimov deyib ki, həbsdən azad olunmaları vəziyyətin dəyişməsi ilə nəticələnməyib. O, ədalətsiz qərarlarla həbsdə olan şəxslərin hüquqlarının müdafiəsinin təmin olunmasında təşkilatlanmanın vacibliyini qeyd edib. Azərbaycan Hüquqçular Assosiasiyasının prezidenti Ənnağı Hacıbəyli hüquq müdafiəçiləri arasında olan qarşıdurmanın vicdan məhbuslarının hüquqlarının qorunması prosesinə mənfi təsir göstərdiyini açıqlayıb.

İctimai Palatanın Koordinasiya Şurasının üzvü Pənah Hüseyn hökuməti demokratik islahatlara çağırıb.

İctimai Palatanın Koordinasiya Şurasının üzvü, AXCP sədri Əli Kərimli bildirib ki, siyasi məhbus problemi İP üçün əsas məsələ olaraq qalır. Onun sözlərinə görə, 2011-ci ilin aprelində keçirilən aksiyalarda tutulan məhbuslarının bir qismi hələ də həbsdədir: "Həbsdə olan dostlarımıza da diqqət olmalıdır".

Sonda dəyirmi masa iştirakçıları adından bəyanat qəbul olunub.

# Vergilər Nazirliyi Telefon Məlumat Xidməti və İnternet saytının fəaliyyəti ilə bağlı açıqlama yaydı



Vergilər Nazirliyi qurumun 195 Telefon Məlumat Xidməti və İnternet saytının fəaliyyəti ilə bağlı açıqlama yayıb. Nazirliyin analitik-informasiya şöbəsindən "525"ə bildirilib ki, 2012-ci ilin I yarımilliyində Vergilər Nazirliyinin Telefon Məlumat Xidmətinə daxil olmuş 142.573 müraciət, o cümlədən müfəttiş operatorlar tərəfindən canlı rejimdə 73.571, avtomatik rejimdə elektron operator tərəfindən 69.002 müraciət cavablandırılmış, mesaj xidməti vasitəsilə 240.346 halda vergi ödəyiciləri məlumatlandırılıb. 2011-ci ilin müvafiq dövrü ilə müqayisədə canlı əlaqə zamanı müfəttiş-operatorlar tərəfindən cavablandırılan müraciətlərin sayı 26,2 faiz, mesaj xidməti vasitəsilə məlumatlandırılan vergi ödəyicilərinin sayı isə 3,2 dəfə artıb.

Hesabat dövründə vergi ödəyiciləri daha çox elektron xidmətlər (27,9 faiz), hesabatlar və onların doldurulma qaydaları (16,5 faiz), vergi növləri (14,3 faiz), qeydiyyat (14,6 faiz), büdcə, vergi ödəyiciləri və vergi orqanının rekvizitləri (8,4 faiz), vergi ödəyicilərinə göndərilmiş mesajlar (3,6 faiz) barədə məlumat əldə etmək istəyiblər.

Vergi ödəyicilərindən daxil olan sualların 98,8 faizinə müfəttiş-operatorlar dərhal, 1,2 faizinə isə sual vərəqəsi tərtib edilərək araşdırıldıqdan sonra cavab veriblər. Daxil olmuş müraciətlərin 86,9 faizi 30 saniyə ərzində cavablandırılmaya qəbul edilmiş və orta hesabla birbaşa cavablandırılan 1 müraciət 3 dəqiqə 44 saniyə ərzində cavablandırılıb.

Müfəttiş operatorlarla ilk telefon əlaqəsindən sualların tam cavablandırılması səviyyəsi 90,3 faiz, müraciət edənlərin razı qalma səviyyəsi isə 98,6 faiz təşkil edib. Sualların 84,7 faizi Bakı şəhərindən, 11,1 faizi mobil operatorlardan, qalanları isə ölkənin müxtəlif bölgələrindən daxil olub.

Hesabat dövründə əhalidən şikayət (ərizə) və məlumat xarakterli 281 müraciət qəbul edilərək baxılması üçün aidiyyəti üzrə göndərilib.

Vergilər Nazirliyinin rəsmi internet səhifəsi haqqında məlumatda isə deyilir ki, rəsmi internet səhifəsinə 200.471, il ərzində artan yekunla 1.387.531 istifadəçi daxil olub. Vergilər Nazirliyinin rəsmi internet səhifəsinin "Sual-cavab" bölməsinə cari ilin iyun ayında 112 müraciət üzrə 136 sual daxil olmuş və ay ərzində 143 müraciət üzrə 175 sual, cari il ərzində artan yekunla isə 889 müraciət üzrə 1.171 sual cavablandırılıb. 2012-ci ilin iyun ayında cavablandırılmış sualların əksəriyyəti vergi növləri (37,8 faiz), o cümlədən ƏDV (14.9 faiz) və mənfəət vergisi (10,3 faiz) ilə, cari il ərzində artan yekunla vergi növləri (39,3 faiz), o cümlədən ƏDV (9,7 faiz) və gəlir vergisi (9,1 faiz) ilə və qeydiyyatla (11,2 faiz) bağlı olub. Cari ilin iyun ayında cavablandırılmış sualların 107-si və ya 61,1 faizi 5 gün, 68-i və ya 38.9 faizi 6-10 gün ərzində, il ərzində artan yekunla cavablandırılmış sualların isə 385-i və ya 32,9 faizi 5 gün, 783-ü və ya 66,9 faizi 6-10 gün ərzində cavablandırılıb. Vergilər Nazirliyinin rəsmi internet səhifəsinin "Vergilər Nazirliyi ilə əlaqə" bölməsinə 2012-ci ilin iyun ayında 45, cari il ərzində artan yekunla isə 202 müraciət qəbul edilərək baxılmaq üçün aidiyyəti üzrə göndərilib.

## Daha bir tikinti şirkətinin vəzifəli şəxsləri barəsində cinayət işi açıldı

Azərbaycanda tikinti şirkətinin vəzifəli şəxsləri barəsində cinayət işi başlanıb. APA-nın Baş Prokurorluğun saytına istinadən verdiyi məlumata görə, "Şərq-M" Mənzil-tikinti kooperativinin vəzifəli şəxsləri tərəfindən vəzifə səlahiyyətlərindən sui-istifadə etmə yolu ilə vətəndaşların aldadılması barədə Bakı Apellyasiya Məhkəməsinin qərarı əsasında Baş prokuror yanında Korrupsiyaya qarşı mübarizə idarəsində araşdırma aparılıb.

Müəyyən edilib ki, Bakı şəhər sakini Fuad Əzizov 2007-ci ildə alğı-satqı müqaviləsi əsasında "Şərq-M" Mənzil-tikinti kooperativinin Bakı şəhəri, M.Ə.Rəsulzadə qəsəbəsi, Azadlıq prospekti, 204 saylı ünvanda inşa edilmiş 12 mərtəbəli yaşayış binasında üç mənzil alaraq kooperativə ümumilikdə 111 min 900 manat məbləğində vəsait ödəyib. MTK-nın sədri Fərhad Quliyev və kooperativin digər vəzifəli şəxsləri qulluq mövqelərindən sui-istifadə edərək həmin mənzilləri müxtəlif tarixlərdə bağlanmış alğı-satqı müqavilələri əsasında ayrı-ayrı şəxslərə sataraq külli miqdarda özgə əmlakını ələ keçiriblər.

Fakta görə Cinayət Məcəlləsinin 178.3.2-ci (dələduzluq), 308.1-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) və 313-cü (vəzifə saxtakarlığı) maddələri ilə cinayət işi başlanıb.

Hazırda Baş prokuror yanında Korrupsiyaya qarşı mübarizə idarəsində iş üzrə istintaq davam etdirilməklə "Şərq-M" MTK-nın vəzifəli şəxsləri tərəfindən yol verilmiş qanun pozuntularının aradan qaldırılması və vətəndaşlara dəymiş ziyanın ödətdirilməsi istiqamətində zəruri tədbirlər həyata keçirilir.

## Elçin Behbudov şimal bölgəsində polis şöbələrində monitorinq aparıb

İşgəncələrə Qarşı Azərbaycan Komitəsinin sədri Elçin Behbudov respublikanın şimal bölgəsində polis şöbələrində monitorinq aparıb. Bu barədə APA-ya məlumat verən hüquq-müdafiəçisi bildirib ki, Xaçmaz və Qusar rayon Polis İdarələrinin müvəqqəti saxlanma təcridxanalarında monitorinq keçirib. Monitorinq zamanı hər hansı qeyri-insani rəftarla bağlı fakt aşkar edilməyib.

# Mahmud Əhmədinejad İlham Əliyevi İrana dəvət edib

DƏVƏT MƏKTUBUNU GƏTİRƏCƏK İRANIN TƏHSİL NAZİRİ BAKIYA GƏLİR

İran İslam Respublikasının təhsil naziri Həmidrza Babayi iyulun 11-də Azərbaycana səfər edəcək. Bu barədə APA-ya İranın Azərbaycandakı səfirliyinin mətbuat xidmətindən məlumat verilib. Məlumatda bildirilir ki, Qoşulmayanlar Hərəkatına üzv ölkələrin dövlət başçılarının zirvə toplantısında iştirakla əlaqədar İran prezidenti Mahmud Əhmədinejad tərəfindən Azərbaycan prezidenti İlham Əliyevə ünvanlanmış dəvət məktubunu təqdim etmək üçün iyulun 11-də Bakıya səfər edəcək H. Babayi səfər çərçivəsində Azərbaycan prezidenti ilə görüşəcək.

Nazirin Azərbaycan digər dövlət rəsmiləri ilə də görüşləri nəzərdə tutulur.

# Nazirliyin komissiya sədri həbs edildi

Azərbaycanda daha bir vəzifəli şəxs rüşvət alarkən həbs edilib. APA-nın Baş Prokurorluğun saytına istinadən verdiyi məlumata görə, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin 13 saylı Tibbi Sosial Ekspert Komissiyasının sədrinin qanunsuz hərəkətləri barədə Abşeron rayonu sakininin "161-Qaynar xətt" əlaqə mərkəzinə daxil olmuş müraciəti Baş prokuror yanında Korrupsiyaya qarşı mübarizə idarəsində araşdırılıb.Müəyyən edilib ki, komissiyanın sədri Eldəniz Cahangirov rayon sakininə 2-ci qrup müddətsiz əlillik dərəcəsinin təyin edilməsi üçün ondan 500 manat məbləğində rüşvət tələb edib.

Həyata keçirilmiş təxirəsalınmaz əməliyyat-istintaq tədbirləri nəticəsində iyulun 9-da E. Cahangirov komissiyanın inzibati binasında vətəndaşdan 500 manat məbləğində pulu rüşvət kimi alarkən cinayət başında yaxalanıb.

Fakta görə E. Cahangirov barəsində Cinayət Məcəlləsinin 311.1-ci (rüşvət alma) maddəsi ilə cinayət işi başlanmışdır. E.Cahangirov təqsirləndirilən şəxs qismində cəlb edilərək ona həmin maddə ilə ittiham elan olunmaqla barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

Hazırda iş üzrə istintaq davam etdirilir.

# Bakının ən böyük prospektlərindən biri təmirə bağlanır

Bakının ən böyük prospektlərindən biri təmirə bağlanır. Bu barədə APA-ya Bakı şəhər Baş Polis İdarəsinin Dövlət Yol Polisi İdarəsinin bölmə rəisi Vaqif Əsədov məlumat verib. Onun sözlərinə görə, "Dalğa Plaza"nın qarşısından Azneft dairəsi ilə Azadlıq meydanınadək dənizkənarı bulvar boyu təmir-tikinti işlərinə və yeni asfalt örtüyünün çəkilməsinə start verilib. Bununla əlaqədar iyulun 14-dən qeyri-müəyyən vaxtadək Neftçilər prospektində nəqliyyatın hərəkətinə məhdudiyyət qoyularaq istiqamət dəyişdiriləcək.

Sürücülərdən alternativ yollardan — Bayıl qəsəbəsindən Qurban Abbasov küçəsi ilə Dağüstü park, Parlament prospekti, Mikayıl Müşfiq küçəsi; Üzeyir Hacıbəyov küçəsindən keçməklə Azadlıq prospekti və Zərifə Əliyeva küçəsindən Rəşid Behbudov küçəsi ilə Bakıxanov küçəsi; Rəsul Rza küçəsindən keçməklə Xaqani küçəsinə; Bülbül prospekti ilə Üzeyir Hacıbəyov küçəsinin kəsişməsindən Səməd Vurğun küçələrindən istifadə etmələri xahiş olunur.

# Müəllif Hüquqları Agentliyi "pirat" məhsullara görə cərimələrin artırılmasını təklif edib

Yeni qəbul olunan "Əqli mülkiyyət hüquqlarının müdafiəsi və piratçılıqla mübarizə haqqında" qanun Azərbaycandakı müəllif hüquq obyektlərinin dəqiq sayını aşkar etməyə və reyestrini aparmağa imkan verəvcək. Bunu APA-ya açıqlamasında Müəllif Hüquqları Agentliyinin (MHA) hüquq şöbəsinin müdiri Xudayat Həsənli deyib. O bildirib ki, qanun 3 ay sonra qüvvəyə minəcək: "Qanunda "piratçılığın" qarşısının alınması üçün bir sıra müddəalar nəzərdə tutulur. Bu müddəaların icrasını təmin eləmək üçün normativ hüquqi aktların üzərində iş aparılır. Müəllif hüququ və əlaqəli hüquq obyektlərinin maddi daşıyıcılarda olan nüsxələrinin üzərinə nəzarət markaları yapışdırılacaq. Beləliklə də, "pirat" nüsxələrin qarşısı alınacaq və müəllif hüquqları təmin olunacaq. O vaxta qədər bir sıra prosedurlar həyata keçirilməlidir. Bütün istehsalçılar, naşirlər, fonoqram istehsalçıları qanunla bağlı məlumatlandırılacaq. Eyni zamanda nəzarət markalarının hazırlanması, istehsalı, yapışdırılması üçün kadrların məlumatlandırılmasından ötrü normativ hüquqi aktlar hazırlanmalıdır. Ümumiyyətlə, müəlliflik hüququ və əlaqəli hüquq obyektlərinin bütün istehsalçıları ilə iş aparılmalıdır".

X. Həsənli deyib ki, MHA "pirat" məhsullara görə İnzibati Xətalar və Cinayət məcəllələrində nəzərdə tutulan cərimə sanksiyalarının sərtləşdirllməsi ilə bağlı da təkliflər verib. Hazırda bu təkliflərə baxılır.

# "Azərbaycan Diasporu – ensiklopedik məlumatlar toplusu" işıq üzü görüb

Diasporla İş üzrə Dövlət Komitəsinin təşkilati dəstəyi ilə "Azərbaycan Diasporu — ensiklopedik məlumatlar toplusu" çap olunub. Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) mətbuat xidmətindən APA-ya verilən xəbərə görə, kitabın redaktoru Prezident Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevdir.

Diasporla İş üzrə Dövlət Komitəsinin yaradılmasının 10-cu ildönümü münasibətilə nəşr olunmuş topluda ölkə prezidentinin diasporun inkişafına xidmət edən fərman və sərəncamları, müxtəlif vaxtlarda diaspor nümayəndələri ilə keçirdiyi görüşlər, Azərbaycan diasporunun tarixi, məskunlaşma coğrafiyası, görkəmli nümayəndələri və dövlət təltiflərinə layiq görülmüş xaricdə yaşayan azərbaycanlılar, diaspor təşkilatlarının nəzdində fəaliyyət göstərən kütləvi informasiya vasitələri haqqında məlumatlar toplanıb.

Bununla yanaşı, topluda dünya azərbaycanlılarının I, II və III qurultayları, eləcə də diaspor təşkilatlarının iştirakı ilə keçirilmiş yüksək səviyyəli digər tədbirlər, habelə diaspor mövzusuna dair terminlər, anlayışlar, maraqlı məlumatlar da öz əksini tapıb. Kitab diaspor mövzusu ilə maraqlanan geniş oxucu kütləsi və tədqiqatçılar üçün nəzərdə tutulub.

# Toya hazırlaşan nişanlı gənclər qəzaya düşüb

NİŞANLI QIZ ÖLÜB, ÜÇ NƏFƏR AĞIR YARALANIB

İyulun 9-u axşam saatlarında Quba rayonu ərazisində bir nəfərin ölümü, 3 nəfərin yaralanması ilə nəticələnən yol nəqliyyat hadisəsi baş verib. APA-nın şimal bürosunun məlumatına görə, qəza Quba-Qonaqkənd yolunda qeydə alınıb. Quba rayonu, Utuq kənd sakini Adıgözəlov Qalib Firəng oğlunun idarə etdiyi "UAZ-469" markalı avtomaşının təkəri çıxıb və maşın dərəyə yuvarlanıb. Nəticədə Quba rayonu, Utuq kənd sakini, 23 yaşlı Adıgözəlova Rəmziyyə Firəng qızı dünyasını dəyişib. Onun nişanlısı, Quba rayonu, Utuq kənd sakini, 23 yaşlı Seyidəliyev Söhrab Seyidağa oğlu, Utuq kəndinin digər sakinləri, 1963-cü il təvəllüdlü Adıgözəlov Firəng Abasəlim oğlu və 1960-cı il təvəllüdlü Cəfərov Əmirqulu Əlimurad oğlu müxtəlif dərəcəli bədən xəsarətləri ilə Quba Mərkəzi Rayon Xəstəxanasına çatdırılıb. Onların vəziyyətinin ağır olduğu bildirilir.

Qeyd edək ki, qəza zamanı dünyası dəyişən 23 yaşlı Rəmziyyə Adıgözəlovanın iyulun 25-i toyu olacaqmış. Qəza onlar Quba rayonundan cehiz alaraq Utuq kəndinə qayıdarkən baş verib.

Faktla bağlı araşdırmalar davam etdirilir.

# Çaylarda daşqın və sel gözlənilir



Azərbaycan ərazisində yağan yağışlarla əlaqədar bəzi çaylardan qısamüddətli daşqınlar keçib. Bu barədə APA-ya Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentinin Hidrometeoroloji Proqnozlar Bürosunun baş hidroloqu Asif Verdiyev bildirib. Onun sözlərinə görə, leysan yağışlarla əlaqədar Şəki, Oğuz, Qəbələ bölgəsinin ərazisindən axan Əyriçay, Başdaşağılçay, Türyançay, Dəmiraparan çaylarından qısamüddətli daşqınlar keçib, Göyçayda sel müşahidə olunub.

A. Verdiyev bildirib ki, əksər çaylarda suyun səviyyəsi artıb: "Ən çox yağış Qəbələ, Naftalan, Göyçay, Oğuz, Bərdə rayonlarının ərazində qeydə alınıb. Bununla əlaqədar Kiçik Qafqazın ərazisindən axan Gəncəçayda, Böyük Qafqaz ərazisindən axan Qudyalçayda, Vəlvələçayda, Naxçıvan MR ərazisindən axan Naxçıvançayda, eləcə də Lənkəran-Astara bölgəsinin çaylarında artım qeydə alınıb. Ümumiyyətlə, əksər dağ çaylarında artım baş verib".

Baş hidroloq Kür çayının yuxarı hissəsində, Qıraqkəsəmən məntəqəsində də suyun səviyyəsinin 3 santimetr artdığını deyib. Qanıx çayında isə bu artım 13 santimetr olub.

A. Verdiyevin sözlərinə görə, ölkə ərazisində iyulun 11-də gecə və axşam saatlarında şimşək çaxacağı, dağlıq və dağətəyi rayonlarda leysan xarakterli yağışların yağacağı proqnozlaşdırılır. Bununla əlaqədar bəzi çaylardan qısamüddətli daşqın və sellərin keçəcəyi gözlənilir.

# 17-ci Qarabağ Forumu keçirildi

Demokratik Cəmiyyət Uğrunda Müqavimət Hərəkatının təşəbbüsü ilə (DCUMH) "Regiondakı mövcud hərbi-siyasi durum, Azərbaycanın ərazi bütövlüyünə təhdidlər" mövzusunda 17-ci Qarabağ Forumu keçirilib. APA-nın məlumatına görə, tədbiri Klassik Xalq Cəbhəsi Partiyasının (KXCP) sədri Mirmahmud Mirəlioğlu aparıb.

"Regiondakı mövcud hərbi-siyasi durum" mövzusunda Açıq Cəmiyyət Partiyasının sədri Sülhəddin Əkbər, "Azərbaycanın ərazi bütövlüyünə təhdidlər" mövzusunda isə Azadlıq Partiyasının sədri məruzə ilə çıxış ediblər. S.Əkbər bildirib ki, Gürcüstan-Rusiya hərbi qarşıdurmasından sonra regiondakı hərbi-siyasi durumda ciddi dəyişikliklər əmələ gəlib. Belə ki, Rusiyanın bölgədə hərbi imkanları genişlənib, Moskva Ermənistanın təhlükəsizlik təminatını tam olaraq öz üzərinə götürüb. S. Əkbər bölgədə İsrailin, İranın və ABŞ-ın imkanlarını da xarakterizə edib: "Regionda hərbi-siyasi duruma təsir göstərən amillərdən biri də ABŞ-ın Türkiyədə yerləşdirilən radar kompleksidir. İranın hərbi sahədə apardığı işlər regionda silahlanma prosesini gücləndirir. Eyni zamanda Rusiya və İran da Xəzərdə silahlanmanı genişləndirir. Bu da bölgədə hərbi-siyasi duruma mənfi təsir göstərir. Hərbi-siyasi durumun bu vəziyyətdə olması Azərbaycanın elitasını narahat etməli və onlar durumu adekvat qiymətləndirməlidirlər".

Ə.Oruc deyib ki, illər keçdikcə Qarabağ problemi dünyanın uzunmüddətli münaqişəsinə çevrilir: "Proses uzandıqca Azərbaycanın Qarabağı itirməsi, həmin bölgəyə statusun verilməsi məsələsi reallaşa bilər". Ə. Oruc ATƏT-in Minsk Qrupunun və BMT-nin sülhlə bağlı tələblərinin "status-kvo"nun qorunmasına xidmət etdiyini də söyləyib.

Azərbaycan Milli İstiqlal Partiyasının sədri Yusif Bağırzadə, Azərbaycan Liberal Partiyasının sədri Əvəz Temirxan, müttəfiq partiya və ictimai qurumların nümayəndələri mövzuya dair çıxışlar ediblər.

# Yapon dilində nəşr olunmuş "İRS" jurnalının təqdimatı keçirilib

Azərbaycanın Yaponiyadakı səfirliyinin təşkilatçılığı ilə yapon dilində ilk dəfə nəşr olunmuş "İRS" jurnalının təqdimat mərasimi keçirilib. XİN-in mətbuat xidmətindən APA-ya verilən məlumata görə, tədbirdə Yaponiya Parlamentinin, XİN və digər hökumət qurumlarının, eləcə də siyasi, ictimai dairələrin yüksək səviyyəli nümayəndələri, diplomatik korpusun üzvləri və bu ölkədə yaşayan həmvətənlərimiz iştirak edib. Azərbaycan-Yaponiya Parlamentlərarası Dostluq Qrupunun həmsədri Akira Amari və bu qrupa daxil olan bir neçə deputat, torpaq, infrastruktur, nəqliyyat və turizm nazirinin müavini Osamu Yoşida da iştirakçılar arasında olub.

Tədbiri giriş sözü ilə açan səfir Gürsel İsmayılzadə jurnal haqqında məlumat verərək yaponca nəşrin Azərbaycana dair məlumatların Yaponiyada yayılmasına xidmət edəcəyini bildirib. Yaponiyanın Azərbaycanda ilk səfiri olmuş Tetsuya Hirose iki ölkə arasındakı əlaqələrin tarixinə nəzər salaraq Yaponiyanın Azərbaycana həm marağının, həm də səmimi münasibətinin olduğunu diqqətə çatdırıb. UNESCO-nun sabiq baş direktoru Koiçiro Matsura ölkəsinin Azərbaycanı bölgədə vacib tərəfdaş hesab etdiyini, müxtəlif sahələrdə əməkdaşlığın və ənənəvi dostluq əlaqələrinin daha da möhkəmlənməsində maraqlı olduqlarını vurğulayaraq yapon dilində nəşrə başlamış "İRS" jurnalının bu işə töhfə verəcəyinə əminliyini söyləyib.

Tədbirdə jurnalın redaktoru Musa Mərcanlı və XİN-nin İnformasiya İdarəsinin rəisi Cavanşir Məmmədov da çıxış ediblər.

# Təbii qazla təmin olunan abonentlərin sayı 1420527-ə çatıb

ARDNŞ-nin ''Azəriqaz'' İstehsalat Birliyi tərəfindən istehlakçıların təbii qaza olan tələbatının ödənilməsi, abonentlərin qaz təchizatının yaxşılaşdırılması istiqamətində davamlı olaraq həyata keçirilən tədbirlər nəticəsində iyulun 1-nə ölkə üzrə təbii qazla təmin olunan abonentlərin sayı 1420527-ə (o cümlədən 1403049 əhali, 17478 qeyri-əhali abonenti) çatdırılıb. ARDNŞ-dan verilən məlumata görə, bu abonentlərin 641317-si Bakı şəhəri (632068 əhali, 9249 qeyri-əhali abonenti), 779210-u isə regionların payına düşür (770981 əhali, 8229 qeyri-əhali). Ümumilikdə 1418181 abonent üçün sayğac quraşdırılıb ki, bu rəqəmin də 1400703-ü əhali (99,8 faiz), 17478-i qeyri-əhali (100 faiz) istehlakçılarıdır. Sayğaclaşdırmanın nisbətinə gəlincə, bu sahədə vəziyyət aşağıdakı kimidir: Bakı şəhəri üzrə 630680 əhali abonenti (99,8 faiz), 9249 qeyri-əhali abonenti (100 faiz), regionlar üzrə isə 770023 əhali abonenti (99,9 faiz) və 8229 qeyri-əhali abonenti (100 faiz). Ümumilikdə Bakı şəhəri üzrə 639929 abonent (99,8 faiz), regionlar üzrə isə 778252 abonent (99,9 faiz) üçün sayğac quraşdırılıb. Ötən müddətdə əhali kateqoriyasından olan abonentlərin mənzillərində 390 minə yaxın "smart-kart" tipli (GULF və İTRON) qaz sayğacı quraşdırılıb.

BƏXTİYAR

# Leyla Əliyevanın rəsmi saytı fəaliyyətə başlayıb

Heydər Əliyev Fondunun vitse-prezidenti, "Baku" jurnalının baş redaktoru, Rusiya Azərbaycanlı Gənclər Təşkilatının sədri Leyla Əliyevanın rəsmi saytı açılıb. Fonddan qəzetimizə verilən məlumata görə, Azərbaycan, rus və ingilis dillərində təqdim olunan yeni saytda (www.leyla-aliyeva.az) Leyla Əliyevanın çoxşaxəli fəaliyyətinin bütün istiqamətləri ilə bağlı dolğun məlumatlar əldə etmək mümkündür.

Yüksək keyfiyyətlə, dizayn baxımından peşəkar səviyyədə hazırlanmış saytın "Fəaliyyət" bölməsində L. Əliyevanın Heydər Əliyev Fondunda, "Baku" jurnalında, İslam Konfransı Təşkilatı Gənclər Forumunda, Rusiya Azərbaycanlı Gənclər Təşkilatında və IDEA Beynəlxalq Ətraf Mühit Kampaniyasındakı (International Dialogue for Environmental Action) fəaliyyəti öz əksini tapıb. Bölmələrin hər birində müvafiq rəsmi saytlara keçid yerləşdirilib. Saytda L.Əliyeva tərəfindən təsis olunmuş, Azərbaycanın dünyada təbliğ edilməsində xüsusi rolu olan "Baku" jurnalının fəaliyyəti ilə ətraflı tanış olmaq olar. L.Əliyevanın Azərbaycan həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılması istiqamətindəki əvəzsiz və yorulmaz fəaliyyəti, "Xocalıya ədalət" kampaniyası çərçivəsində gördüyü işlərlə bağlı məlumatlar ayrıca bölmədə yer alıb.

Saytda L.Əliyevanın təşəbbüsü ilə fəaliyyətə başlayan, gəncləri bir araya gətirərək onları ətraf mühitlə harmoniyada yaşamaq üçün məlumatlandırmağa və həvəsləndirməyə xidmət edən IDEA Ətraf Mühit Kampaniyası ilə bağlı da geniş məlumatlar mövcuddur. Bundan başqa, sayta daxil olanlar Leyla xanım Əliyevanın səfərlərini interaktiv xəritə vasitəsilə izləyə, müxtəlif mətbuat orqanlarına verdiyi müsahibələrlə tanış ola biləcəklər.

Saytda L.Əliyevanın fotoları və videoları da yerləşdirilib. Bunun üçün ayrıca "Şəkillər" və "Video" bölməsi yaradılıb. Burada L. Əliyevanın iştirak etdiyi tədbirlər yüksək keyfiyyətlə və peşəkarlıqla əks olunub. "Bioqrafiya" bölməsində L.Əliyeva tərəfindən çəkilmiş şəkillər, "Yaradıcılıq" bölməsində şeirləri, rəsm əsərləri yer alıb.

**S.MÜRVƏTQIZI**

# *Rasim Musabəyov:* "Rusiya Azərbaycanın Avrasiya İqtisadi Birliyinə daxil olmasını istəyir"

Rusiya Azərbaycanın Avrasiya İqtisadi Birliyinə(AİB) daxil olmasını istəyir. Azərbaycanın isə öz növbəsində Qazaxıstan, Belarus, Rusiya ilə əla münasibətləri mövcuddur. Buna görə də hesab edirəm ki, Azərbaycan AİB-ə daxil olmadan da ayrı-ayrılıqda bu birliyə daxil olan üzv dövlətlərlə münasibətlərini inkişaf etdirəcək". Belə bir açıqlama ilə Milli Məclisin deputatı, politoloq Rasim Musabəyov çıxış edib. Onun fikrincə, əgər Azərbaycan AİB-ə qoşulmağa razılıq verərsə, onun arxasınca Ermənistan və Gürcüstan da bu birliyə daxil olmağa can atacaqlar:

" Lakin bu gün AİB qarşısında duran məsələ Ukraynanın bu birliyə cəlb olunmasıdır. Ukraynanın iştirakı bu birliyə əhəmiyyətlilik qatacaq. Belə ki, əgər Avrasiya İqtisadi Birliyi Ukraynasız qalarsa, bu birlik qeyri-müəyyən vəziyyətdə qalmaqda davam edəcək. Buna görə də, qeyd etmək istəyirəm ki, AİB üçün vacib olan Ukraynanın bu birliyə daxil olması məsələsidir". AİB-ə daxil olmaq Azərbaycana hansı iqtisadi dividendlər gətirə bilməsinə toxunan millət vəkili deyib ki, məsələ ondadır ki, Avrasiya İqtisadi Birliyində təmsil olunan Belarus Rusiya ilə sıx kooperasiya əlaqələrinə malikdir: "Daha doğrusu, Belarusun sənayesi Rusiya ilə sıx əlaqədardır, bu iki dövlət bir-birinə biri digərini tamamlayan məhsullar tədarük etməkdədirlər. Belarus Rusiyadan xam mal idxal edir, daha sonra isə onun əsas kütləsini hazır məhsul şəklində Rusiya tərəfinə ixrac edir".



Politoloq Rusiya ilə Qazaxıstan arasında da əməkdaşlığın demək olar ki, eyni yüksək səviyyədə olmasına diqqət çəkib: "Yeri gəlmişkən yüksək əməkdaşlıq səviyyəsi Rusiya və Ukrayna arasında da mövcuddur. Lakin Ukrayna hələ ki, bu ittifaqa qoşulmağı planlaşdırmır. Azərbaycana gəldikdə isə, o zaman 1996-cı ildə Boris Yeltsin Rusiya prezidenti olarkən Çeçenistanda müharibə bəhanəsi altında Azərbaycan tərəfinə nəqliyyat blokadası elan etdi, bu iki ölkə arasında bütün kooperasiya əlaqələri korlandı. Rusiya ilə əlaqəli olan Azərbaycan müəssisələri müflisləşdi və ləğv olundu. Ona görə, hazırda Azərbaycan və Rusiya arasında kooperasiya səviyyəsi 1%-dən də azdır. Bu baxımdan, Azərbaycanın AİB-də iştirakı üçün stimul yoxdur. Azərbaycanın Rusiya bazarında satdığı məhsul meyvə və tərəvəzdir ki, bunun da satışı üçün kooperativləşməyə ehtiyac yoxdur". R.Musabəyov deyib ki, əgər Qazaxıstanın kommunikasiyası Rusiya ərazisindən, Rusiyanın kommunikasiyası Belarus və Ukrayna ərazisindən keçirsə, Azərbaycanın kommunikasiyası, xüsusilə də onun enerji tərkibi, 1996-cı ildə B.Yeltsinin vaxtikən qəbul etdiyi qərarlar ucbatından Gürcüstan vasitəsilə Türkiyəyə çəkildi. Ona görə, Azərbaycanın onun ən əsas kommunikasiya tərəfdaşları olan Gürcüstan və Türkiyənin kənarda qalacağı ittifaqa daxil olacağını təsəvvür etmək absurddur. AİB-ə qoşulmanın Azərbaycana hansı siyasi qazanc gətirə bilməsinə də münasibət bildirən R.Musabəyov deyib ki, bu məsələ ilə bağlı heç bir ölkə başqa bir hansısa siyasi dividendlər təklif etməyəcək: "Çünki Azərbaycan ölkənin ittifaqa qəbul olunması üçün AİB-nin qapısını döyən kimi, Ermənistan da dərhal bu ittifaqa daxil olmaq imkanı əldə edəcək. Qarabağ münaqişəsi də daxil olmaqla Sovet İttifaqı dövründə həllini tapmayan, daha sonra MDB-də davam edən problemlər AİB-də də olacaq".

**PƏRVANƏ**

# Azərbaycanın diaspor təşkilatları prezidentin diasporun inkişafı ilə bağlı sərəncamını yüksək qiymətləndirir

Prezident İlham Əliyevin 6 iyul 2012-ci il tarixli sərəncamı ilə "Azərbaycanın diaspor təşkilatlarının fəaliyyətinin gücləndirilməsi üçün" ölkənin 2012-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinə 3,0 (üç) milyon manat vəsait ayrılıb. Bu barədə komitənin mətbuat xidmətindən qəzetimizə məlumat verilib.

Sərəncamda Azərbaycan Respublikasının öz dövlət müstəqilliyini bərpa etməsindən sonra xaricdəki soydaşlarımızın təşkilatlanması, Azərbaycan icmalarının fəaliyyətinin əlaqələndirilməsi və onların digər diaspor təşkilatları ilə əməkdaşlığının dərinləşdirilməsi sahəsində mühüm addımlar atıldığı qeyd olunub. Azərbaycan diaspor təşkilatlarından Diasporla İş üzrə Dövlət Komitəsinə daxil olmuş çoxsaylı məktub və müraciətlərində ölkə başçısının sözügedən sərəncamı diaspor quruculuğu işinə dövlətin verdiyi önəmin daha bir təzahürü kimi qiymətləndirilir. Azərbaycan diaspor təşkilatları Prezident İlham Əliyevin bu diqqət və qayğısını yüksək dəyərləndirir və xalqımızın tarixi, müasir həyatı, ölkəmizdə gedən inkişaf prosesləri ilə bağlı məlumatların yayılması, Azərbaycan həqiqətlərininin dünya ictimaiyyətinə çatdırılması istiqamətində fəaliyyətlərini daha da gücləndirəcəklərini bəyan edirlər.

Məktublarda həmçinin vurğulanır ki, prezidentin diaspor təşkilatlarına dərin etimadının ifadəsi olan bu sərəncam milli-mədəni irsimizin beynəlxalq miqyasda daha effektiv şəkildə təbliğ olunması, soydaşlarımızın hüquq və azadlıqlarının müdafiəsi işinin təkmilləşdirilməsi, ictimai-siyasi fəallıq səviyyəsinin yüksəldilməsi, xarici ölkələrdə yaşayan azərbaycanlı gənclərin və ziyalıların bu prosesə daha fəal şəkildə cəlb olunması və Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında müasir informasiya texnologiyalarının tətbiqi təcrübəsinin genişləndirilməsinə əlavə stimul yaradacaq.

Azərbaycan diaspor təşkilatları bəyan edir ki, müxtəlif konfrans, seminar və sərgilərinin keçirilməsi, eyni zamanda xarici ölkələrin parlament və hökumət nümayəndələri, ictimai xadimləri, jurnalistlərinin Azərbaycana səfərlərinin və Azərbaycan Respublikasından elm adamları, ictimai və mədəniyyət xadimləri, habelə jurnalistlərin xarici ölkələrdəki tədbirlərdə iştirakının təşkili istiqamətində fəaliyyətini daha da gücləndirəcək.

Müraciətlərdə həmçinin qeyd olunur ki, prezidentin məlum sərəncamı bu sahədə planlaşdırılan işlərin effektiv formada həyata keçirilməsinə şərait yaradacaq və Azərbaycan diasporu və lobbi quruculuğunun bundan sonrakı inkişaf perspektivini müəyyən edəcək.

**S.MÜRVƏTQIZI**

# Əməkdar jurnalist İradə Vəkilovanın 80 illik yubileyi keçirilib

Ötən gün Beynəlxalq Mətbuat Mərkəzində Azərbaycan Jurnalist Qadınlar Assosiasiyasının (AJQA) təşkilatçılığı ilə əməkdar jurnalist, publisist, ssenarist, müstəqil respublikamızın ilk müstəqil informasiya agentliyi- "Assa- İrada"nın ilk qadın qurucusu İradə Vəkilovanın anadan olmasının 80 illiyinə həsr olunan yubiley mərasimi keçirilib.

Tədbiri giriş sözü ilə açan AJQA-nın prezidenti Sevil Yusifova İradə Vəkilovanın Azərbaycan milli mətbuatının inkişafındakı xidmətlərindən danışıb. Tədbirin əhəmiyyətini vurğulayan qurum sədri deyib ki, İradə Vəkilova bütün mənalı ömrünü Azərbaycan mətbuatının inkişafına, cəmiyyətin obyektiv informasiya tələbatının ödənilməsinə, peşəkar jurnalist kadrlarının hazırlanmasına həsr edib: "Milli mətbuatımızın tarixində ilk informasiya agentliyinin qurucusu olub, bununla da mətbuat tarixində öz imzasını təsdiq edib. "Assa-İrada" informasiya agentliyinə rəhbərlik etdiyi dönəmdə peşəkar kollektiv formalaşdırıb, qurucusu olduğu agentliyi dövrünün, zamanının aynasına çevirə bilib, həmin dövrdə beynəlxalq aləmdə Azərbaycanın haqq səsini duyurmağı bacarıb. Qarabağ müharibəsinin ilk illərində Şərqdə və Qərbdə fəaliyyət göstərən mətbu orqanlar "Assa-İrada"ya istinad edirdilər. Çünki informasiya agentliyi artıq bu inamı qazanmışdı. Azərbaycanın milli mənafeyinə xidmət edən informasiyalar yayan agentliyə çevrilən "Assa-İrada"nin gücü bir də onda idi ki, İradə Vəkilova komanda ilə işləyirdi. Peşəkar və vətənpərvər insanlarla birlikdə ölkəsinə xidmət edirdi". S. Yusifova müasir Azərbaycan jurnalistikasının təşəkkülündə xüsusi yeri olan İradə Vəkilovanı jurnalist qadınlar üçün ən yaxşı örnək adlandırıb: "Ömür yolunun əsas hissəsini kütləvi informasiya quruculuğu işinə həsr edən İradə Vəkilovanın şərəfli həyat yolu çağdaş mətbuat tariximizin araşdırmaçıları üçün əsl mənbə, zəngin qaynaqdır". İ. Vəkilovanı işıqlı insan kimi səciyyələndirən qurumun prezidenti onun gördüyü işlərin unudulmayacağına əminliyini ifadə edib.

"Assa-İrada"nın baş direktoru Fazil Abbas həmkarının həyat və yaradıcılıq yolundan söz açıb. F. Abbas çətin tarixi-siyasi proseslərin cərəyan etdiyi bir vaxtda yaranan agentliyin tarixindən danışıb: "İradə xanımla 1988-ci ildə yaxından tanış olmuşuq. Onu yaxından tanıyanda peşəsinə bağlılığı məni heyran eləmişdi. Sonralar 1990-cı illərin əvvəllərində İradə xanımı işlədiyi "Vışka" qəzetindən təqaüdə göndərirdilər. İradə xanım onda çox sarsılmışdı. Deyirdi ki, ömrümü verdiyim bir qəzetdən məni necə çıxara bilərlər? Az sonra biz birlikdə agentlik yaratmağa qərar verdik. Bizi buna nə maliyyə, nə də maddi həvəs cəlb etmirdi. Biz sadəcə olaraq Azərbaycan həqiqətlərini dünyaya olduğu kimi çatdırmaq istəyirdik. Bu, sadəcə vətənpərvərlikdən doğan fədakarlıq idi. Həmin vaxt agentliyi yaratmaq üçün nə maddi bazamız, nə də adicə yerimiz var idi. Lakin bizə dəstək verən dostlarla birgə bütün çətinliklərin öhdəsindən gələrək "Assa-irada"nı yaratdıq". Agentliyin fəaliyyət göstərdiyi ilk illərdə maddi və mənəvi çətinliklərdən bəhs edən F. Abbas həmin vaxt İradə Vəkilovanın ağır xəstə olmasına baxmayaraq işinin öhdəsindən gəlməyə çalışdığını vurğulayıb. Qarabağ müharibəsinin ilk illərində dünyanın əksər informasiya agentliklərinin, qəzetlərinin, dövri nəşrlərinin "Assa-İrada"ya istinadən Azərbaycan həqiqətlərini yaydığını deyən F. Abbas İ. Vəkilovanın həm də həmin illər müasir dövrün tələblərinə cavab verən jurnalist kadrların hazırlanmasında xüsusi əməyi olduğunu qeyd edib. F. Abbas çıxışında İradə Vəkilovanın səmərəli və gərgin fəaliyyətinin mətbuat tariximizdə qalacağına və jurnalist həmkarlarının yubilyarını xatirəsini hər zaman əziz tutacaqlarına inandığını deyib.

Yazıçı-publisist Esmira Fuad çıxışında İ. Vəkilovanın həyat və yaradıcılıq yolundan ətraflı danışıb.

"İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə İ. Vəkilovanın mətbuat tariximizdə özünəməxsus rolundan, gördüyü əhəmiyyətli işlərdən söz açıb.

Tədbirdə yubilyarın həmkarları, qohumları çıxış edərək İ. Vəkilova ilə bağlı xatirələrini bölüşüblər.

**S.MÜRVƏTQIZI**

# ATƏT qarşıdan gələn prezident seçkiləri ilə bağlı Azərbaycandan dəvət gözləyir

"Azərbaycan ATƏT ailəsinin fəal üzvlərindən biridir". Bunu ATƏT-in baş katibi Lamberto Zannier bildirib. L.Zannier qeyd edib ki, bir üzv dövlət kimi Azərbaycanın ATƏT-in dəyərlərini üstün tutması müsbət qiymətləndirilir. Onun sözlərinə görə, Azərbaycan qurumun Bakı ofisi ilə çox müsbət əlaqələr qurub. "Azərbaycanın ATƏT-dəki nümayəndə heyəti də çox fəaldır və bütün məsələlərin həllində lazımi qaydada iştirak edir. Biz 2013-cü ildə Azərbaycanda keçiriləcək prezident seçkiləri ilə bağlı dəvətnamə gözləyirik. Güman edirik ki, biz də bu seçkilərdə iştirak edib öz tövsiyələrimizi verəcəyik"-deyə, ATƏT baş katibi sözlərinə əlavə edib.

**KAMİL**

# *Azay Quliyev:* "Münaqişələrin həllinə ATƏT öz töhfəsini verməlidir"

Bu gün ATƏT-in effektivliyinin artırılması qurumun hal-hazırki gündəliyində olan ən vacib prioritetlərdəndir. Bunu millət vəkili Azay Quliyev ATƏT Parlament Assambleyasının (PA) Monakoda keçirilən növbəti yay sessiyasında ATƏT regionunda təhlükəsizliyin gücləndirilməsinə dair qətnamənin müzakirəsində çıxışı zamanı deyib. A.Quliyev bildirib ki, ATƏT-in başlıca missiyası bu təşkilat ərazisində onun sahib olduğu norma və prinsiplərin riayət olunmasının məcburiliyini, ikili standart və coğrafi üstünlüklər olmadan, hərtərəfli təhlükəsizliyi qorumaqdır: "Bu bir həqiqətdir ki, ATƏT öz norma və prinsiplərinin həyata keçirilməsində heç də həmişə effektli fəaliyyət göstərə bilmir, xüsusilə onun ərazisində onilliklərlə sürən münaqişələrin həlli kimi məsələlərdə indiyə kimi ciddi uğur qazana bilməyib. Buna görə də biz parlament üzvləri olaraq, ATƏT-in sahib olduğu mexanizmlərə, xüsusilə onun qərarlarının və qətnamələrinin icra olunma vəziyyətinə nəzər salmalıyıq, həmçinin, baxmalıyıq ki, biz harada əlavə səy göstərə bilərik və əsl sülhə və təhlükəsizliyə necə



nail ola bilərik".

Millət vəkili sonra qeyd edib ki, təhlükəsizliyi artırmağın digər əhəmiyyətli cəhəti ATƏT-lə BMT arasında əməkdaşlıq əlaqələrinin yüksəldilməsidir, çünki hər iki təşkilat eyni dəyərləri və ümumi fəaliyyət sahələrini bölüşdürür: "Bu zərurəti nəzərə alaraq, mən cənab Bilorusla tam razıyam ki, ATƏT-in strateji əməkdaşlığı ilə digər beynəlxalq təhlükəsizlik təşkilatları gücləndirilməli və koordinasiya olunmalıdırlar. Mən inanıram ki, bu qətnamə bütün beynəlxalq maraqlı tərəflərin fəaliyyətini tamamlamaq və sinerjini daha da gücləndimək məqsədi güdəcək".

A.Quliyevin eyni zamanda bildirdiyinə görə, ATƏT-dən ən əsas gözləntilərdən biri odur ki, qurum Moldovada Transnistria, Gürcustanda Cənubi Osetiya və Abxaziya, Azərbaycanda Dağlıq Qarabağ kimi münaqişələrin ən tez bir zamanda həll olunması üçün aktiv rol oynasın: "ATƏT öz resurs və mexanizmlərini səfərbər etməklə bu münaqişələrin həllinə öz töhfəsini verməlidir. Mənim fikrimcə, bu, ATƏT üçün yaxşı bir vaxtdır ki, bütün potensialını digər beynəlxalq təşkilatlarla birləşdirməklə Moldova, Gürcüstan və Azərbaycanın konstitusiya ilə müəyyən olunan ərazilərinin işğaldan və parçalanmadan necə geri qaytarmaq barədə yol xəritəsi hazırlasın. Habelə, sülhə və təhlükəsizliyə mənfi təsir göstərən bütün xarici qoşunların bu üç suveren ölkələrdən çıxarılmasına əlverişli şərait yaradılsın" .

**KAMİL**

# *Aydın Mirzəzadə:* "Sabiqlər"in hansısa şəkildə təşkilatlanması heç bir uğur vəd edə bilməz"

"İş burasındadır ki, onlar hakimiyyətə, vəzifəyə gələnə qədər cəmiyyətdə nüfuz sahibi deyildi və onları nüfuzlu edən elə indiki iqtidar oldu". Bunu mətbuata açıqlamasında Yeni Azərbaycan Partiyasından (YAP) olan millət vəkili, politoloq Aydın Mirzəzadə qarşıdan gələn 2013-cü il prezident seçkiləri ilə bağlı vaxtilə bu hakimiyyətdə təmsil olunmuş, lakin sonradan bu iqtidardan qopmuş, uzaqlaşdırılmış, yaxud, hazırda həbs həyatı yaşayan bir qrup "sabiq"in — Əli İnsanov, Fərhad Əliyev, Hüseyn Abdullayev, Rza İbadov və digərlərinin özlərinin, eləcə də tərəfdarlarının eks-spiker Rəsul Quliyev ətrafında toparlanması və bunun seçkilərdə hakimiyyətə ciddi təhlükə yarada bilməsi barədə səslənən fikirlərə münasibətini bildirərkən dilə gətirib. Millət vəkilinin dediyinə görə, həmin şəxslərin və digər sabiqlərin bəziləri sonradan indiki iqtidarın etimadını doğrultmadıqları, öz fəaliyyətlərində ciddi qüsura yol verdikləri üçün hakimiyyətdən uzaqlaşdırıldılar, yaxud, bəziləri konkret cinayətlərinə görə məhkəmə qarşısında cavab verməli oldular. A.Mirzəzadə bu baxımdan belə hesab edir ki, indi həmin şəxslərin hər hansı bir nüfuzundan, siyasi dəstəyindən söhbət gedə bilməz. "Bu illər ərzində biz bunları gördük. Bu gün Azərbaycan cəmiyyəti üçün həmin şəxslərin adlarının səslənməsi heç nə demir. İndiki gənclik, indiki ziyalılar, indiki fəallar üçün həmin isimlər,həmin soyadlar heç nə demir və onların hansısa bir şəkildə təşkilatlanması hər hansı bir uğur yarada, uğur vəd edə, hər hansı bir nəticə verə bilməz. Bu gün Azərbaycan özünün gənc, enerjili, dövlətini sevən, öz fəaliyyəti ilə Azərbaycana şöhrət gətirən çox sayda fəalları ilə xarakterizə olunur və həmin fəallar ölməz Heydər Əliyev ideyaları , Prezident İlham Əliyevin siyasi fəaliyyətinə dəstək vermək hissi ilə yaşayırlar. Yəni, kimlərinsə "bəlkə də qaytardılar" psixologiyası ilə yaşaması sadəcə, nostalji hisslərdən başqa bir şey deyil"-deyə, millət vəkili daha sonra qeyd edib.

**KAMİL**

# Elmar Məmmədyarov italiyalı nümayəndə heyətini qəbul edib

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov İtaliyanın xarici işlər nazirinin müavini xanım Marta Dassun və iqtisadi inkişaf nazirinin müavini Klaudio De Vinsenti ilə görüşüb. XİN-nin mətbuat xidmətindən "525"ə verilən məlumata görə, görüşdə Azərbaycan ilə İtaliya arasında münasibətlərin müxtəlif istiqamətləri, Cənubi Qafqaz və Yaxın Şərq regionlarında cərəyan edən proseslər, eləcə də regional enerji layihələri müzakirə olunub.

E.Məmmədyarov Azərbaycan ilə Türkiyə arasında imzalanmış Trans-Anadolu Qaz Kəməri (TANAP) layihəsi üzrə sazişin Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində əhəmiyyətli addım olduğunu vurğulayıb.

Tərəflər, həmçinin ölkələrimiz arasında iqtisadi münasibətlərin inkişafı və əməkdaşlığın genişləndirilməsi məqsədilə biznes forumların və qarşılıqlı səfərlərin sayının artırılmasının vacibliyini qeyd ediblər.

**S.MÜRVƏTQIZI**

# *Ziyafət Əsgərov:* "Parlamentdə diffamasiya ilə bağlı qanunun tərəfdarları və əleyhdarları var"

"Diffamasiya haqqında" qanun Avropa Şurasına üzv olan dövlətlərin əksəriyyətində hələ qəbul olunmayıb". Bunu Milli Məclis (MM) sədrinin birinci müavini Ziyafət Əsgərov dilə gətirib. Birinci vitse-spiker bu baxımdan qeyd edib ki, sözügedən qanun layihəsinin hazırlanaraq Azərbaycan parlamentinin müzakirələrinə çıxarılması və qəbul olunması yönündə də birmənalı olmayan mövqelər mövcuddur. "Parlamentdə bu qanunun qəbulunun tərəfdarları və əleyhdarları var. Çünki Avropa Şurasına üzv olan dövlətlərin əksəriyyəti bu qanunu qəbul etməyib. Bir çox Avropa ölkəsi sənədi qəbul edərsə,o zaman Azərbaycan onların təcrübəsindən yararlana bilər"-deyə, Z.Əsgərov sonda sözlərinə əlavə edib.

**KAMİL**

# İsveç parlamenti Dostluq Qrupu rəhbərinin oktyabrda Azərbaycana səfəri gözlənilir

Milli Məclis sədrinin müavini, Azərbaycanın ATƏT Parlament Assambleyasında (ATƏT PA) nümayəndə heyətinin rəhbəri Bahar Muradova sözügedən qurumun Monakoda baş tutmuş "ATƏT — dəyişilən region" mövzusunda sessiyasında iştirakı çərçivəsində bir sıra görüşlər keçirib. B.Muradovanın İtaliya nümayəndə heyətinin rəhbəri, ATƏT-in PA-nın yeni seçilmiş prezidenti Rikardo Milyori ilə görüşündə İtaliya —Azərbaycan parlamentlərarası münasibətləri, bu qurumda birgə fəaliyyətin istiqamətləri, eləcə də Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı fikir mübadiləsi aparılıb. Milli Məclis sədrinin müavininin İsveçrə nümayəndə heyətinin rəhbəri, İsveçrə- Azərbaycan parlamentlərarası Dostluq Qrupunun rəhbəri Kristin Egerzeqi-Obristlə görüşündə isə iki ölkənin parlamentləri arasında getdikcə intensivləşən əlaqələr və dostluq qruplarının qarşılıqlı səfərləri ilə bağlı müzakirələr aparılıb. Eyni zamanda, xanım K.Egerzegi-Obristin özünün cari ilin oktyabrında Bakıya səfərinin təşkil olunması ilə bağlı fikir mübadiləsi aparılıb. B.Muradovanın Almaniya nümayəndə heyətinin üzvü xanım Viola von Kramon-Taubadel ilə görüşündə də Dağlıq Qarabağ münaqişəsi əsas müzakirə mövzusu olub. Görüşdə tərəflərin mövqeləri, onların beynəlxalq sənədlərdə əksini tapması, eləcə də ATƏT PA çərçivəsində keçirilən müzakirələr və ayrı-ayrı ölkələrin vasitəçilik prosesinə dəstəyinin vacibliyi vurğulanıb. Münaqişə tərəflərinin müxtəlif səviyyəli nümayəndələrinin iştirakı ilə keçirilə biləcək tədbirlərin əhəmiyyəti qeyd olunub. Belə təşəbbüslərin Almaniya hökuməti tərəfindən də irəli sürüldüyü və hər iki tərəfin iradəsi olduğu təqdirdə bundan sonra da təşkil edilə biləcəyi bildirilib. Kramon-Taubadel bu prosesdə şəxsən özünün fəal şəkildə iştirak etməyə hazır olduğunu da bildirib.

**KAMİL**

# Lamberto Zannier: "Qərarı sonda yalnız münaqişə tərəfləri verir"

"BİZİM EDƏ BİLƏCƏYİMİZ İSƏ DİALOQ ÜÇÜN MƏKAN TƏYİN EDİB, DANIŞIQLAR YOLU İLƏ MƏSƏLƏNİN HƏLLİNİ TAPMAĞA KÖMƏK GÖSTƏRMƏKDİR"

*(Əvvəli 1-ci səh.)*



— Hər münaqişə fərqlidir və özünəməxsus cavab tələb edir. Heç kəs münaqişələri həll etmək modelinə sahib deyil və heç kəs tərəflər üçün münaqişənin həll yolunu təyin edə bilməz. Bizim edə biləcəyimiz şey dialoq üçün məkan təyin etmək və danışıqlar yolu ilə məsələnin həllini tapmağa kömək etməkdir, lakin qərarı sonda yalnız tərəflər verir. ATƏT-in Minsk qrupunun həmsədrləri və ATƏT-in hazırkı sədrinin xüsusi nümayəndəsi, səfir Kaspşik məhz bunu təklif edib və mən regionun xalqlarını daimi sülh və stabilliyini təmin olunması istiqamətində onların edilən cəhdlərini tam dəstəkləyirəm. Lakin mən əminliklə deyə bilərəm ki, istənilən münaqişənin həllində əsas diqqət insanların həyatını yaxşılaşdıracaq və onların özlərinin və övladlarının həyatı üçün təhlükənin olmamasını təmin edəcək praktik həllərin tapılmasına yönəlməlidir. Bunun üçün atəşkəs rejimi gücləndirilməli, snayperlər təmas xəttindən kənarlaşdırılmalı və prezidentlər tərəfindən razılaşdırılmış hadisələri araşdırma mexanizmi icra edilməlidir. Bu tədbirlər status-kvonun möhkəmləndirilməsi üçün yox, regionda müəyyən dərəcədə stabilliyi təmin etmək və siyasi danışıqların baş tuta biləcəyi bir mühit yaratmaq üçün nəzərdə tutulub. Xalqlar arasında əlaqənin asanlaşdırılması həm də etimadın qurulmasına xidmət edə bilər. Bu mənim həm Bakıda, həm də İrəvanda yüksək dərəcəli rəsmilərə çatdıracağım mesajlardır.

***— Necə düşünürsünüz, ATƏT-in Minsk qrupunun formatının dəyişdirilməsi, yaxud münaqişənin nizamlanmasının başqa bir modelin seçilməsi irəliləyişə səbəb ola bilərmi?***

— Bu tərəflərin istədiyi formatdır və yanvar ayında baş tutmuş prezidentlərin görüşündə ifadə olunub. Əsas məsələ tərəflərin razılaşdığı prinsiplərin həllini tapmaqdır. Üçüncü tərəf hər hansı bir həll yolu müəyyən etməməlidir və edə də bilməz.

***— Ermənistan Azərbaycan qoşunlarının təmas xəttində demək olar ki, hər gün atəşkəs rejimi pozulur və insan itkisi olur. Amma ATƏT tərəfindən keçirilən monitorinqlərdə bu pozuntular qeydə alınmır. Bunu nə ilə izah edərdiniz? Ola bilərmi ki, monitorinqlər xəbərdarlıq edilmədən aparılsın?***

— Təmas xəttində və sərhəddə itkilərin olması mənim üçün narahatedici və acınacaqlı haldır. Bu fəlakətli itki vəziyyətin nə dərəcədə təhlükəli və sonunun necə olacağının naməlum olmasını göstərir. ATƏT-in hazırkı sədrinin xüsusi nümayəndəsi, səfir Kaspşik hər ay orta hesabla iki dəfə Ermənistan-Azərbaycan sərhədində və təmas xəttində monitorinq təlimləri keçirir. Bu təlimlər hər iki tərəfin dəstəyi ilə həyata keçirilir. Monitorinqin formatını və ya tezliyini dəyişmək üçün hər iki tərəf bununla bağlı razılığa gəlməlidir və hələlik belə bir razılıq yoxdur. Həmçinin, Minsk qrupu həmsədrləri tərəfindən prezidentlərin razılaşdığı kimi araşdırma mexanizminin modallığı ilə bağlı təklif var, lakin tərəflərin onun detalları ilə bağlı razılığa gəlmələri lazımdır.

***— ATƏT tərəflər arasında etimad tədbirlərinin qurulmasını vacib bilir. Bu etimad tədbirlərinin qurulması üçün ilk növbədə tərəflər nə etməlidirlər?***

— ATƏT-in üzərinə düşən vəzifə məhz dialoq üçün platforma təklif etmək, həmçinin dövlətlər, ictimaiyyət və xalqlar arasında körpü salmaqdan ibarətdir. Xalqlar arasında əlaqələrin qurulması Azərbaycan və Ermənistan prezidentləri tərəfindən yanvar ayında Soçidə baş tutmuş görüşdə götürülmüş öhdəliklərdən biridir və biz inanırıq ki, bu amil etimad mühitinin qurulmasına və münaqişənin həllinə dəyərli töhfə verə bilər. İki ölkənin ziyalıları, elmi və sosial icması arasında dialoqun qurulması etimadı təbliğ etməyin bir yoludur. Erməni və azərbaycanlı jurnalistlər arasında birgə seminarlar təşkil etməklə mediada olan mənfi ab-havanı aradan qaldırmaq məqsədi daşıyan, ATƏT-in hazırda hazırladığı pilot layihəsi tərəfləri yaxınlaşdırmaq yönündə atılan kiçik addımların bir nümunəsi kimi göstərilə bilər. Lakin yenə də tərəflərin razılığına və sadiqliyinə ehtiyac var.

**PƏRVANƏ**

## Hikmət Cavadov Ukrayna Azərbaycanlıları Konqresinin sədri seçilib

Kiyevdə Ukrayna Azərbaycanlıları Konqresinin (UAK) hesabat-seçki konfransı keçirilib. UAK-dan "525"ə verilən məlumata görə, tədbirə konqresin üzvləri ilə yanaşı, Ukraynada Azərbaycan diasporunun inkişafı ilə fəal məşğul olan 10-dan çox ictimai təşkilatın nümayəndələri qatılıblar. Konfransı giriş sözü ilə Azərbaycanın Ukraynadakı səfiri Eynulla Mədətli açaraq, Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin rəhbərliyini və əməkdaşlarını, həmçinin forum iştirakçılarını 10 illik yubiley münasibəti ilə təbrik edib.

Konfransın rəyasət heyəti, hesablama komissiyasının sədri və üzvləri seçildikdən sonra forum nümayəndələrinin çıxışları dinlənilib.

UAK-ın sədri vəzifəsinə irəli sürülən 4 namizəd arasında debatlar aparılıb.

Açıq səsvermə nəticəsində UAK-ın sədri "Demokratiyanın nəbzi" Beynəlxalq İctimai Təşkilatın prezidenti, hüquq elmləri namizədi Hikmət Cavadov seçilib. Mərasimdə çıxış edənlər Hikmət Cavadovun sədr seçilməsini məntiqi addım kimi dəyərləndiriblər: "Belə ki, onun rəhbərlik etdiyi beynəlxalq təşkilat Ukrayna və Azərbaycan ictimaiyyəti arasında açıq dialoqun aparılmasına kömək edir, Azərbaycan diasporunun işi ilə fəal məşğul olur".

Konqresin keçmiş sədri İlqar Abbasov Hikmət Cavadovu təbrik edərək ona yeni işində səmərəli fəaliyyət arzulayıb. Konfrans Azərbaycanın Dövlət himninin səslənməsi ilə yekunlaşıb.

**S.MÜRVƏTQIZI**

## *Sahibə Qafarova:* "Azərbaycanla Rusiya arasında münasibətlər strateji müttəfiqliyə və tərəfdaşlığa dayanır"

"Bu gün Azərbaycanla Rusiya arasında mövcud olan münasibətlər strateji müttəfiqlik münasibətlərinə söykənir. Bu münasibətlər, ikitərəfli əlaqələr özü də anbaan sürətlə irəliləyərək yüksələn xətt üzrə inkişaf edir və etməkdədir". Bunu mətbuata açıqlamasında hakim partiyadan olan millət vəkili, Milli Məclisin (MM) Azərbaycan-Rusiya parlamentlərarası əlaqələr üzrə İşçi Qrupunun üzvü, Bakı Slavyan Universitetinin prorektoru Sahibə Qafarova dilə gətirib. Millət vəkilinin deyinə, hər iki ölkə rəsmiləri və siyasilərinin özlərinin də dəfələrlə vurğuladıqları kimi, ötən əsrin 90-cı illərin əvvəllərində iki qonşu dövlət arasında bəlli səbəblərdən münasibətlərin bir xeyli gərgin olmasına baxmayaraq, sonradan bu münasibətlər yoluna qoyuldu və indiki inkişaf səviyyəsinə, mərhələsinə qaldırıldı : "Təbii ki, bunlar da səbəbsiz deyil. Məhz mərhum dövlət başçısı Heydər Əliyevin gərgin əməyi, titanik fəaliyyəti, balanslı xarici siyasət kursu nəticəsində böyük şimal qonşumuz Rusiyayla ötən əsrin 90-cı illərinin əvvəllərində yaranan gərgin münasibətlərə son qoyuldu və Prezident Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin də bu günlərdə çıxışı zamanı bəyan etdiyi kimi, ümummilli liderin Azərbaycan xalqının təkidli tələbi ilə ikinci dəfə hakimiyyətə gəlişindən sonra qısa zaman kəsiyində bu münasibətlərdə qarşılıqlı anlaşmaya və dostluğa əsaslanan bir



mərhələnin başlanğıcı qoyuldu. Çox sevindirici və əlamətdar haldır ki, Heydər Əliyev kursunun layiqli davamçısı indiki ölkə Prezidenti İlham Əliyevin və Rusiya Federasiyasının köhnə-təzə prezidenti Vladimir Putinin fəaliyyəti, qarşılıqlı səfərləri, görüşləri və müzakirələri sayəsində də hazırda, daha doğrusu, son 7-8 il ərzində iki qonşu dövlət arasında münasibətlər strateji əməkdaşlıq və tərəfdaşlıq səviyyəsinə yüksələ bildi. Hesab edirəm ki, iki qonşu dövlət və xalq arasında da münasibətlərin məhz bu səviyyədə olması yalnız və yalnız onların maraqlarına xidmət edən başlıca faktordur. Bu münasibətlər hər iki dövlətin və xalqın maraqlarına tam cavab verir ki, bundan da ancaq sevinmək olar". Millət vəkili həmçinin deyib ki, Azərbaycanla Rusiya arasında olan münasibətlərin bundan sonra da davam etdirilməsi və növbəti, yeni inkişaf mərhələsinə qaldırılması lazımdır: " Elə hesab edirəm ki, Rusiya Federasiyası Dövlət Dumasının sədri Sergey Narışkinin Azərbaycana məlum rəsmi səfəri, bu səfər çərçivəsində reallaşdırılan yüksək səviyyəli görüş və müzakirələr də iki qonşu və dost ölkə arasında münasibətlərin inkişafına öz müsbət töhfəsini vermiş olacaq. Bu yerdə həmçinin qeyd etmək yerinə düşər ki, bu gün Azərbaycan Milli Məclisi ilə Rusiya Dövlət Duması arasında da çox sıx və işgüzar münasibətlər mövcuddur. Bu baxımdan düşünürəm ki, bu səfər və onun sonucları hər iki ölkənin parlamentinin və parlamentarilərinin də qarşılıqlı, birgə fəaliyyətində müsbət çalarları ilə özünü büruzə verəcək. Yeri gəlmişkən, qeyd edim ki, cənab Narışkin Azərbaycana səfəri çərçivəsində bizim universitetdə- Bakı Slavyan Universitetində də olub. Özü də bu, onun bizim universitetə ikinci gəlişidir. Eyni zamanda bildirim ki, Narışkinə universitetimizin "fəxri doktoru" adı verilib. Hesab edirəm ki, bunun özü də önəmli bir məqamdır".

**KAMİL**

# Bakıətrafı qəsəbələrdə sosial proqramların icrasının monitorinqi aparılıb

Beynəlxalq Münasibətlərin Araşdırılması Mərkəzi (BMAM) Azərbaycan Respublikasının Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyi ilə Nizami və Sabunçu rayonlarında regionların sosial-iqtisadi inkişafına həsr olunmuş tədbir keçirib. "Bakıətrafı qəsəbələrdə sosial proqramların icrasının monitorinqi və təbliği" layihəsi çərçivəsində Nizami rayon icra hakimiyyətində keçirilən tədbirdə Nizami və Sabunçu rayon icra hakimiyyətlərinin rəhbərliyi, rayon ictimaiyyəti, yerli orqanların rəhbərləri, bələdiyyə sədrləri, vətəndaş cəmiyyətinin təmsilçiləri, media nümayəndələri iştirak edib.

Tədbiri Nizami rayon icra hakimiyyətinin başçısı Tahir Budaqov açaraq, rayonda görülən işlərlə bağlı məlumat verib. İcra hakimiyyətinin başçısı bildirib ki, Nizami rayonunda regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı çərçivəsində əsaslı işlər görülüb və bu işlər davam etməkdədir.

BMAM-ın sədri və layihənin rəhbəri Rufiz Qonaqov tədbir iştirakçılarına layihə haqqında məlumat verib. O, bildirib ki, ölkədə regionların sosial-iqtisadi inkişafı kompleks şəkildə həyata keçirilir: "Xüsusilə 2003-cü ildən sonra bu proses sürətlənib. Regionların sosial-iqtisadi inkişafı ilə bağlı cənab prezidentin imzaladığı bütün bu fərman və sərəncamlarda əsas məqsəd ölkə əhalisinin, o cümlədən Bakı əhalisinin, Bakıətrafı qəsəbə sakinlərinin sosial-iqtisadi problemlərinin həll edilməsi, işsizliyin aradan qaldırılması, qəsəbələrin inkişaf planı, müxtəlif infrastrukturların yaxşılaşdırılması olub. Bu fərman və sərəncamlardan irəli gələn müvafiq işlər yerinə yetirilsə də, nəzərdə tutulan inkişaf göstəricisini əldə etmək və daha inkişaf etdirmək üçün cənab prezident ölkənin paytaxtı və onun ətraf qəsəbələrində müasir infrastruktur layihələrinin gerçəkləşdirilməsini vacib sayaraq, 4 may 2011-ci il tarixdə 1490 nömrəli sərəncamla "2011-2013-cü illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı" və bu proqram çərçivəsində həyata keçiriləcək tədbirlər planını təsdiqləyib. Bu proqramın qəbulunda da əsas məqsəd sosial problemlərin həlli, yoxsulluğun azaldılması, infrastrukturun yaxşılaşdırılması və müasir dünya standartlarına uygunlaşdırılmasıdır. Bizim də məqsədimiz bu proqramların təbliğinin aparılması və ölkədəki sürətli inkişafın əhaliyə çatdırılmasıdır. Artıq layihədə nəzərdə tutulduğu kimi təşkilat rəhbərliyi bu proqramın piarına başlayıb. "Facebook" sosial şəbəkəsində İnkişaf Qrupu adlı bir qrup yaradılıb. Görülən işlər burada şəbəkə istifadəçilərinin diqqətinə çatdırılır və bundan sonra da çatdırılacaqdır".

Sabunçu rayon icra hakimiyyəti başçısının 1-ci müavini Qəzənfər Həsənov Sabunçu rayonunda proqram çərçivəsində görülən işlərlə bağlı məlumat verib. O, bildirib ki, Sabunçu rayonunda da Dövlət Proqramının icrasına ciddi və məsuliyyətlə yanaşılır. İndiyə qədər bütün işlər təsdiqlənmiş tədbirlər planına uyğun həyata keçirilib və bundan sonra qrafikin vaxtında yerinə yetirilməsinə çalışılacaq.

Daha sonra layihə çərçivəsində layihənin məqsədlərinə uyğun olaraq, görülən işlərin monitorinqi ilə bağlı Monitorinq Qrupunun üzvü, layihənin eksperti Nailə İsmayılova məruzə edib. O, monitorinq zamanı tədbirlər planının qrafikinə əməl edilib-edilməməsinin araşdırıldığını deyib: "Bunun üçün biz Nizami və Sabunçu rayonlarında görülən və görüləcək işlərlə tanış olmuşuq və görülən işlərlə tədbirlər planının uzlaşıb-uzlaşmamasını araşdırmışıq. Monitorinq zamanı aydın olub ki, bütün işlər əsasən qrafikə uyğun yerinə yetirilib. Bu dövr ərzində hər iki rayonda bir sıra ciddi işlər görülüb və bütün bunlar Dövlət Proqramına və təsdiq olunmuş tədbirlər planına uyğun, vaxtında yerinə yetirilib. Bu da Fərmanın icrasına məsuliyyətlə yanaşıldığının göstəricisidir".

Tədbirdə daha sonra ictimaiyyət nümayəndələri və ayrı-ayrı müəssisə və idarələrin rəhbərləri çıxış ediblər. Nizami rayonu 61 saylı orta məktəbin direktoru Zemfira Şıxəliyeva, 223 saylı məktəbin direktoru Almaz Əsgərova, 6 saylı Təcili Tibbi Yardım Stansiyasının baş həkimi Vəsilə Abışova, Nizami rayon 110 saylı Uşaq Bağçasının müdiri Nuranə Şərifova, Sabunçu rayon 271 saylı məktəbin direktoru və digər şəxslər məsul olduqları sahələr üzrə görülən işlərlə bağlı tədbir iştirakçılarına məlumat veriblər. Natiqlər bildiriblər ki, hər iki rayonun ictimaiyyəti Dövlət Proqramının yerinə yetirilməsindən razıdır, işin keyfiyyətini və sürətlə aparılmasını təqdir edirlər.

Daha sonra məruzə və çıxışlar ətrafında digər tədbir iştirakçılarının fikirləri dinlənilərək, münasibətləri öyrənilib.

**Aqil LƏTİFOV**

*Yaddaşımın küncündən...*

# Çəkməçi akademiki nə cür "sağaltdı"...



*Şakir YAQUBOV*

İnsanın ömrü boyu iki dəfə — birinci dəfə həqiqətən uşaq ikən, ikinci dəfə isə ömrün müdriklik çağında uşaq olduğunu eşitmişik də, görmüşük də. Birini də mən danışım.

...1998-ci ilin avqust ayı idi. Onda mən "Panorama" qəzetində işləyirdim. Təzəcə kənddən "kabab iyinə gəlmiş" bir qohum üçün iş axtarırdım. İxtisası hüquqşünaslığa yaxın olduğu üçün böyük müəllimim, rəhmətlik Rəfail Nağıyev məsləhət gördü ki, ədliyyə nazirinin müavini işləyən dəyərli ziyalı, məşhur Rəfibəylilər nəslindən olan Akif Rəfiyevə müraciət edək.

Gözüm bu təklifdən su içməsə də (Akif müəllimlə mən də tanış idim, dost kimi yox, adicə qəzetçitək sərbəstcə özünə zəng vura bilirdim, Rəfail müəllimin isə, yalançının sözü olmasın, əlli ildi ki, onunla ərkyana münasibəti vardı), könülsüz razılaşdım və qərara gəldik ki, axşamtərəfi, saat 6 radələrində nazirliyin önündə — indiki Bülbül prospektində görüşək.

O tərəflərə gedən və mənim də iş yerimə nisbətən yaxın olan marşrutda işləyən avtobusla metronun "Elmlər Akademiyası" stansiyasının tinindən yola düzəldim; 24 sərnişinlik avtobusun salonunda sağa-sola boylanıb boş yer axtaranda öndə — sürücünün yanında köndələn qoyulmuş üçnəfərlik oturacağa birtəhər özümü sala bildim.

Daha iki dayanacaqdan sonra avtobusda nəfəs almağa deşik də qalmamışdı. Buna baxmayaraq Bakıxanov küçəsində, sovet illərində çox məşhur olan "Olimp" mağazasının qarşısındakı dayanacaqda da 4-5 nəfər, o cümlədən 2-3 nəfər qabaq qapıdan avtobusa qalxdı (Yeri gəlmişkən, 1994-cü ilin ilk günlərində məni İstanbulun Acıbadəm məhəlləsində azərbaycanlı diplomatların kirayə yaşadıqları evdə qarşılayan dostum-qardaşım, ünlü yazar Tofiq Abdin Bakı ilə İstanbulun fərqinin nədən ibarət olduğunu soruşdu və cavab gözləmədən dedi: "Bakıda avtobusa arxadan minib qabaqdan düşürlər, İstanbulda isə qabaqdan minib arxadan düşürlər". Ötən əsrin 70-ci illərində, "Ticarətdə qayda-qanun yaradılmalıdır" şüarından bir qədər əvvəl —"Nəqliyyatda qayda-qanun olmalıdır" şüarının dəbə mindiyi dövrdə Bakıda da beləydi və bu, avtobusa minərkən bilet talonunu qabaq qapının yanında, sürücünün gözü qabağında qoyulmuş aparatda qeyd etdirmək zərurəti ilə bağlı idi, amma bir xeyli digər mütərəqqi işlər kimi bu da bizim Azərbaycan cəmiyyətində özünə yaşarılıq qazana bilmədi...); gözucu özümdən sola — qapıya tərəf boylananda ayaqlığın üstündə XX əsrın canlı klassiklərindən olan SSRİ-nin ilk azərbaycanlı xalq rəssamı, küçənin o biri tayında yerləşən Mədəniyyət və İncəsənət Universitetinin professoru, SSRİ Rəssamlıq Akademiyasının müxbir üzvü, Azərbaycan SSR-in Dövlət Mükafatı və beynəlxalq Cəvahirləl Nehru Mükafatı laureatı Mikayıl Abdullayevin əsə-əsə dayandığını gördüm: ayrı cür də ola bilməzdi — sənətkar çox yaşlı idi (o vaxt 77 yaşı vardı), üstəlik də mən bilən, gözləri də zəif görürdü.

Tez əl-ayağa düşüb hətta üstümə sərələnmiş müxtəlif yaşlı adamları birtəhər aralayıb:

— Mikayıl müəllim, buyurun bura, — deyə boşaltmaqda olduğum uşaq yerinə onu dəvət elədim. Belə yaşda və belə məqamda tanınmaq hamıya xoş ovqat bəxş eləyir, o da ola M.Abdullayev kimi sadaladığım və sadalamadığım çoxsaylı titullara və vəzifələrə baxmayaraq ömrünün sonunacan ictimai nəqliyyatdan istifadə edən, tarix üçün həqiqətən də tarixi əhəmiyyət daşıyan, reallıqda isə cari əhəmiyyətli ən xırda eskizini də, bir-iki vərəqlik rəy yazısını da şəxsən özü, paypiyada redaksiyalara aparmaqdan yorulmayan, 80 yaşınacan uşaq sadəliyindən qalmayan bir insan ola. Onsuz da nur yağan çöhrəsi bir az da işıqlandı və dörd tərəfdən bashabasa baxmayaraq birtəhər göstərdiyim yerə keçdi və dərhal da soruşdu:

— Gözümə tanış gəlirsən, hardan tanıyıram səni?..

Kənardakılar eşitməsin deyə astadan sıxıla-sıxıla dedim:

— Redaksiyada görüşmüşük, mən jurnalistəm...

— Hansında? — növbəti sualı bu oldu.

— "Gənclər"də, "Kommunist"də, — dedim.

— Onlar yenə çıxır?

Bu sualın qarşısında bir qədər duruxdum, amma özümü sındırmadım:

— Bəli... amma yeni adlarla...

Böyük sənətkarla o vaxtacan cəmi üç görüşümüz olmuşdu — iki dəfə "Azərbaycan gəncləri" qəzetində, bir dəfə də "Kommunist"də: hər dəfə də "Lenin iməciliyi"dən və "Oktyabr paradı"ndan bir albomluq eskizlərlə. Daha çox müxtəlif mövqelərdən çəkilmiş portretlər olan bu eskizlər həmin hadisələrdən bir növ canlı reportaj idi və sovet dövründə M.Abdullayev belə reportajların yaman həvəskarı idi.

Artıq "Naxçıvan" mehmanxanasının həndəvərinə çatanda altdan-yuxarı üzümə baxıb:

— Gəlsənə, bir əhvalat danışım, indi birdən yadıma düşdü, — dedi və razılığımı almadan söhbətə başladı: — Onda mən Surikov İnstitutunda oxuyurdum (V.İ.Surikov adına Moskva Dövlət Ali Rəssamlıq İnstitutunu nəzərdə tuturdu — Ş.Y.), Moskvada... Bir professorumuz vardı — Qrabar... İqor Emmanuiloviç... — Bu yerdə zəif gördüyü açıq-aydın sezilən gözlərini qıyıb, nədənsə: — Sən onu tanıyarsan, — dedi. Sənətkarın xətrinə dəymək istəmədim, dərhal anladım ki, məni kiminləsə dəyişik salır, ən azı həmyaş həmkarlarından biri sanır, ona görə də əminliklə dedim:

— Hə, tanıyırdım...

Sənətkar davam elədi:

— Bu Qrabar bizdə kurs aparırdı — incəsənət tarixindən. Qoca kişi idi, o vaxt yetmişdən çox yaşı vardı. Keçən əsrdə (XIX əsrdə — Ş.Y.) Avstriya-Macarıstan imperiyasında doğulmuşdu, atası Avstriya parlamentinin deputatı olmuşdu. Sonra Rusiyaya köçmüşdülər, bu Qrabar da Sankt-Peterburq İmperator Rəssamlıq Akademiyasını bitirmişdi; sən bir fikir ver ki, bu adam SSRİ Rəssamlıq Akademiyasına üzv seçilməmişdən düz dörd il qabaq — 1943-cü ildə SSRİ Elmlər Akademiyasının akademiki seçilmişdi; danışdığım vaxtda da, ondan sonra da daha çox rəsm əsərlərinin bərpası sahəsindəki fəaliyyəti ilə tanınırdı. 37-ci ildə — Stalin repressiyalarının tuthatutunda bütün məsul vəzifələrdən uzaqlaşmış və rəngkarlığa üz tutmuşdu.

Bu zaman maraqlı bir iş olmuşdu: o, Svetlana adlı bir qız uşağının portretini işləmişdi və bu portret az vaxtda bütün SSRİ-də məşhurlaşmışdı. Səbəbi də o olmuşdu ki, camaatın çoxu bunu Stalinin qızı hesab eləmişdi; axı onun da adı Svetlana idi və üzünü, demək olar ki, heç kim görməmişdi. Buna görə də belə hesab edirdilər ki, bu Qrabar məhz Stalinin qızını çəkib.

Müharibə dövründə isə o, hökumətə belə bir təklif vermişdi ki, Hitlerin sovet muzeylərindən talayıb apardığı əsərlərin yerini sovet qoşunlarının tutduqları şəhərlərdəki muzey eksponatları hesabına doldursunlar... — Bu yerdə sənətkar bir də altdan-yuxarı mənə müraciət elədi: — Sən sadizmin dərəcəsini görürsən də: sənət əsərini, muzey əşyasını oğurlamaq, talamaq olmaz, amma bu, elə faşistlərin elədiyi kimi eləməyi təklif edir və hökumət də bu təklifi bəyənir, qoşunların ardınca həmin alınmış şəhərlərə sənətşünas-ekspertlər göndərir, onların seçib gətirdiyi muzey eksponatlarını isə Moskvada həmin bu Qrabar dəyərləndirir... Nə isə, sözüm bunda deyil. Bu Qrabar neçə müddət idi ki, dərsə yarıqatlanmış halda, axsaya-axsaya gələr və bütün mühazirəni də yanını basabasa, ah-ufla keçirərdi.

Bir gün möcüzə baş verdi: İqor Emmanuiloviç mühazirəyə hamı kimi — şax, farağat vəziyyətdə gəldi. Biz hamımız şokda ikən özü sirri aşdı, "Qospoda!" — dedi, ömrünün təxminən 50 ilini "yoldaş"sız cəmiyyətdə keçirdiyi üçün adətən yoldaş deməyə dili gəlmirdi, ona görə də auditoriyaya "Cənablar!" — deyə müraciət edirdi.

İndi də bu cür başladı: "Cənablar, siz bilirsiniz ki, neçə müddətdi mən sol ayağımdan əziyyət çəkirdim, gecə-gündüz, ələlxüsus da gündüzlər sanki yekə bir bizin doğurduğu ağrı əhdimi kəsirdi. Nəhayət, ötən şənbə vaxt tapıb həkim-ortopedin qəbuluna getdim. Sağ olsun, məni diqqətlə dinlədi, ağrıyan yerimi müayinə elədi və dəqiq diaqnoz qoydu — mənə müalicə üçün çəkməçiyə müraciət eləməyi məsləhət gördü... Dediyi kimi elədim və çəkməçidə məlum oldu ki, bu neçə vaxtı əhdimi kəsən hansısa daxili xəstəlik yox, ayaqqabının dabanındakı mismar imiş... Təsəvvür eləyirsən, bu adama sovet hökuməti düz 85 yaşında SSRİ-nin Xalq rəssamı adını verdi, özü isə 90 yaşında rəhmətə getdi...

Mikayıl müəllim sonuncu cümlələri söyləyərkən elə şaqqanaq çəkdi ki, uzun müddət gülüşünü kəsə bilmədi, yan-yörədən söhbətinə qulaq asanlar da həmçinin...

"Beşmərtəbə"nin yanındakı dayanacaqda avtobusu tərk edəndə bu gülüş böyük sənətkarın çöhrəsini hələ tərk etməmişdi...

Ədliyyə Nazirliyinə gedəndə isə Rəfail müəllimlə mən hələ Qrabar yaşına çatmamışdıq...

**Avqust 1998 — iyul 2012**

**“Fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi” istiqaməti üzrə**

# “Sumqayıt” qəzeti ötən 60 ildə şəhərimizin salnaməsini yazıb və yenə də yazmaqdadır”

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

***ƏMƏKDAR JURNALİST QÜDRƏT MƏLİKOV:*** “SUMQAYITIN ZİYALILAR ORDUSUNUN YETİŞMƏSİNDƏ, BURANIN HALAL ZƏHMƏTLƏ ŞAN-ŞÖHRƏT TAPAN İNSANLARININ TANIDILMASINDA BİZİM QƏZETİN XÜSUSİ ROLU VAR”

*(Əvvəli ötən sayımızda)*

**Uzun illərdir ki, “Sumqayıt” qəzeti özü özünü maliyyələşdirir.**

Qəzetin çapından tutmuş digər imtiyazlarının ödənilməsi yalnız abunədən əldə etdiyimiz vəsait hesabına başa gəlir. Bir çox idarə və təşkilatlar isə burada-şəhərdə fəaliyyət göstərsələr də Sumqayıtın ictimai-siyasi qəzetinə abunə olmaq istəmirlər. Konkret adlar da çəkmək olar. Ancaq inanıram ki, belələri gec-tez öz səhvlərini başa düşəcəklər. İndi demokratiyadır, aşkarlıqdır. Mətbuat haqqında qanuna əsasən hər bir idarə, müəssisə, fabrik, zavod, şirkət rəhbəri mətbuata, jurnalistləri maraqlandıran suallara cavab verməyə borcludur. Açığını deyim ki, Sumqayıtda bu barədə vəziyyət qənaətbəxşdir. Xüsusi ilə şəhərdə fəaliyyət göstərən hər bir təşkilat rəhbərindən operativ müsahibələr götürülməsi sahəsində heç bir problem yoxdur. İstədiyimiz vaxt hər hansı təşkilatın rəhbərinə və ya idarə müdirinə lazımi suallarla müraciət edə və operativ cavab ala bilirik. Lakin Sumqayıtda bir sıra irili-xırdalı təşkilat, xüsusilə müəssisə vardır ki, onların rəhbərləri ilə birbaşa əlaqə saxlamaq olmur. Xüsusilə

**mətbuat xidməti olan təşkilatlardan istənilən vaxt operativ cavab almaq çətindir.**

Çünki mətbuat xidmətinin rəhbəri ilə əlaqə saxlayıb və ona müəyyən suallarla müraciət edəndə aldığımız cavab bu olur: “Rəhbərlikdən öyrənərəm, sonra zəngləşərik”. Bu da təbii ki, hər hansı materialın operativ əldə olunmasında ləngimələr yaradır. Belə halda, şəhər icra hakimiyyətində çalışan əlaqədar işçilər bizə kömək edirlər və yardımçı olurlar”.

“Sumqayıt” qəzetinin baş redaktoru medianın inkişafı, jurnalist əməyinə diqqət və qayğı ümummilli lider Heydər Əliyevin adı ilə bağlı olduğunu qeyd edərək bildirib ki, o böyük şəxsiyyət ən çətin anda belə media işçilərinə laqeyd qalmayıb: “Heydər Əliyev yağışın, küləyin, qarın altında belə dayanıb jurnalistlərin suallarını cavablandırırdı. Təsadüfi deyildi ki, Heydər Əliyev “Jurnalistlərin dostu” adına layiq görülmüşdü. Ulu öndərin mətbuata diqqət və qayğısı bu gün də möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən davam etdirilir. Onlarla jurnalistin fəxri adlara, orden və medallara layiq görülməsi dediklərimə əyani nümunə ola bilər. 2006-cı ilin iyulun 22-də Milli Mətbuatımızın 130 illiyi münasibəti ilə İlham Əliyevin sərəncamı ilə bir qrup jurnalistə fəxri adlar və medallar verilərkən mükafatlandırılanlar arasında mənim adımın olması —

**“Əməkdar jurnalist” fəxri adına, iki il sonra isə “Tərəqqi” medalına layiq görülməyim**

bir daha göstərir ki, ölkəmizdə mətbuata və jurnalist əməyinə ciddi diqqət yetirilir. Mən xoşbəxt jurnalistlərdənəm ki, “Gülüstan” sarayında keçirilən təqdimat mərasimində iştirak edən Prezident İlham Əliyevlə görüşüb söhbət edə bilmişəm. Demişdim ki, mənə verilən fəxri addan böyük Həsən bəy Məlikov-Zərdabinin ruhu şad olacaq, çünki mən Həsən bəyin nəslindənəm. Cənab Prezident isə gülə-gülə dedi: “Deməli, biz səhv etməmişik”. Bu mükafatlandırma ənənəsi Milli Mətbuatın 135-ci ildönümündə də davam etdirilib”.





Medianın inkişafı məsələsinə toxunan Q.Məlikov bununla bağlı onu narahat edən bir sıra məqamların olduğunu diqqətə çatdırıb: “Əgər 137 il əvvəl böyük Həsən bəy Məlikov-Zərdabi Şərq dünyasında çətinliklə milli dildə qəzet buraxmışdısa, Azərbaycan dilinin qrammatik qaydalarının qorunub-saxlanmasına nail olmuşdusa, indi texniki imkanların geniş vüsət aldığı bir vaxtda bəzi üzdəniraq jurnalistlərin dilimizi açıq-aşkar korlaması adamda ikrah hissi oyadır. Bir qələm adamı kimi mətbuat bolluğuna sevinirəm. Lakin dilimizi korlayan bir çox qəzetin işıq üzü görməsinə təəssüflənirəm. Ululardan qalma bir məsəl var, “Az olsun, yaxşı olsun”. Gəlin etiraf edək ki,




**jurnalistikada janr məsələsi artıq unudulmaq üzrədir.**

Kim necə gəldi yazır. Mübtəda ilə xəbərin uzlaşmasına belə fikir verən yoxdur. Bunun bir günahı da biz yaşlı jurnalistlərin üzərinə düşür. Heç bir mətbuat haqqında “Son poçt” verilmir. Hansı ki, bu, nöqsanların aradan qaldırılmasına kömək edər, dilimizə xələl gətirilməsinin qarşısını alar. Fikrimcə, bu barədə ciddi düşünməyin vaxtı çatıb. Çox hörmətli redaktorlar, şübhəsiz bu bəzi redaktorlara aiddir, qəzetdə yazı çıxararkən birinci növbədə Azərbaycan dilinin səlisliyinə diqqət yetirməlidirlər. Unutmaq lazım deyildir ki, dil jurnalistin silahıdır. Onu qoruya bilməyən qəzetçi yaxşı olar ki, qələmi əlinə almasın, özünü jurnalist adlandırmasın.

**Jurnalistikada hər hansı nöqsanın aradan qaldırılması üçün**

təcrübəli jurnalistlərin sözünə, təklifinə, iradına çox böyük ehtiyac var. Qaldı “Sumqayıt” qəzetinin və baş redaktor kimi mənim bu sahədə gördüyüm işlərə, az da olsa, nümunə gətiriləcək faktlar var. Biz çalışırıq ki, oxucularla daha yaxın təmasda olaq. Bunun üçün sorğu anketləri hazırlayıb dərc edirik. Mütəmadi olaraq oxucular konfransları keçiririk. Sumqayıt Dövlət Universitetində, Texniki Kollecdə, Şəhər Səhiyyə Şöbəsində, Boruyayma Zavodunda, Nəsimi adına Mədəniyyət və İstirahət Parkında, N.Gəncəvi adına təbiət və texniki elmlər Liseyində oxucularla keçirdiyimiz konfranslar səmərəli olub. Qeyd edim ki, “Sumqayıt” qəzeti və onun yaradıcı kollektivi olaraq bu istiqamətdə işimizi davam etdirəcəyik. Bu ilin dekabrında qəzetin 60 illik yubileyidir və bizim üçün əziz olan bu günü layiqincə qeyd etmək niyyətindəyik”.

**Bəxtiyar MƏMMƏDLİ**

**Səhifədəki material Azərbaycan Respublikasının Prezidenti yanında KİV-in İnkişafına Dövlət Dəstəyi Fondunun layihəsi üzrə çap olunub**

# Yazıçının obrazlı dili

## ƏLİ İLDIRIMOĞLUNUN YARADICILIĞI BARƏDƏ QEYDLƏR



***Cahid İSMAYILOĞLU,***
**filologiya üzrə fəlsəfə doktoru**
**www.cahidismayiloglu.com**

Bu, eldən gələn obrazlı və dərin mənalı konstruksiyaların, istər-istəməz, sinonimliyi meydana çıxır. Belə sinonimliyə sintaktik sinonimlik deyilir. Eyni məna qarşılaşdırılan paralel cümlələrdə əks olunur.

Təsəvvür edin, atanın övlada məhəbbəti (yəni Allahverənin Nazimə sevgisi) “dağ boyda kişi onun üstündə payız yarpağı kimi əsirdi” bənzətmə-müqayisəsində ifadə olunur. Oğurluq anlamı — “Günün günorta çağı balalı inəyimizi gönnədilər, gördüm deyən olmadı” cümləsindəki “gönnədilər” sözündə ehtiva olunub.

Romanlarında yazıçı obrazı bütün çılpaqlığı ilə oxucuya tanıdır: “Orta boyu, enli kürəyi, məğrur görkəmi, zəhmli baxışları, sallaq sifəti olan Cahangir öz bildiyini dədəsinə də verən deyildi. Ağlına ki, bir şey yerləşdi, qurtardı getdi. Bütün kənd yığılsa da, faydası yoxdu, onu başdan çıxarıb, yolundan döndərmək mümkün deyildi. Bu xasiyyətinə görə də hamı ona Höcət Cahangir deyirdi” (“Aqibət” romanından).

Yazıçı dilinin leksikası həyatiliyi, milliliyi ilə seçilir: həndəvər, həvirləmə, gənəşmə, eymənmə, mərəy, vəl, ağnağız, heşan, ağzı yelli, vərəvurd, ərəmlik, mayıf, madar, zımrıq, parç, isdahat və s.

Dialektizmlərdən yerində istifadə edib: Bu heyndə, qədeş, pörşələnmək, cantaraq, azaylanmaq, dəj  və s.

Yazıçı troplardan məqsədəuyğun istifadə edib: “...Neft tullantılarının orda-burda əmələ gətirdiyi gölməçələr istidən buxarlanıb çılpaq təpələrin arasına qısılan qədim qəsəbənin kəsif havasını daha da ağırlaşdırırdı. Nazim elə bil kənddən on il bundan qabaq ayrılmışdı. — Bıy, az, bir vaxt hamı Allahverənin gədəsini tərifləyirdi. Bəs onda nə təhər oldu ki, kağız-kuğuzunu qoltuğuna verib, üzüqara qız kimi evə qaytardılar?!”

Ə.İldırımoğlu hər bir personajı öz dilində danışdırır: “ — Qədeş, gəl kişi kimi danışaq! — Bura bax, ə, malçişka!”

Ə.İldırımoğlunun özünəməxsus aforizmləri və istifadə etdiyi atalar sözləri süjet xətti boyunca mövzunu müşayiət edir. Filologiya elmləri namizədi Səadət İldırımzadə bunları “Mənim rəncbər

**(Əvvəli ötən sayımızda)**

atam” romanının sütunları sayır: “Biliyi olmayanın axırı yoxdur”, “Yüz dost azdır, bir düşmən çox!”, “Tamah pis şeydir, dünya malına uyma” və s.

Aforizmlər vasitəsi ilə müəllif “Zorən jurnalist”inin bədii dilini  bəzəmişdir: ...balıq dəryada böyüyər, ev buzovundan öküz olmaz; fikrini sona qədər əsaslandırmaq üçün Allahverən “Daş, düşdüyü yerdə ağır olar” aforizmini işlədir...qadın ədəbini artırırsa, ailəsini düşünür, bəzəyini artırırsa, başqasını. Hansı kitabdasa oxumuşdum ki, sevginin cəzasından böyük dərd, ona xidmət emək nəşəsindən yüksək xoşbəxtlik yoxdur. Bu sözün nə demək olduğunu indi-indi dərk edirəm... iki şahanı bəyənməyən, ortalığa abbası qoyar! Nazim kitabxanada ona rişxəndlə söz atan boşboğazlara növbəti müsabiqədə sübut etmək istəyirdi ki, görsünlər papaq altında necə oğlanlar var. Sonuncu fikri kəndimizdə babam haqqında eşitmişdim. Deyirlər, Soltanlının məşhur bir aliminin toyunda mənim şəhərə gələn babama da söz verirlər. Babam oxumamış adam olsa da, elə bir tost deyir ki, kəndin məşhur kimyaçı alimi, professor Allahverdi Verdizadə üzünü camaata tutaraq, “papaq altda kişilər varmış”, — bilməmişik.

Atalar sözü və məsəllər bədii dili gözəlləşdirir: Nə itirərəm, gedərəm, tutar qatıq, tutmaz ayran; Yaxşı deyiblər ki, haca gedən gəldi, saca gedən gəlmədi. Kəndimizdə belə bir söz var — ərim ər olsun, kol dibi evim; — oğul, varın verən utanmaz; — utananın oğlu olmaz; — igidin adını eşit, özünü görmə! — ot kökü üstə bitər.

Romanda təzadlı hadisələr qəhrəmanların həyatı, dünyagörüşü ilə culğalaşır: “Sevgi necə də acı, necə də şirin olurmuş! Nazim rəng verib, rəng aldı”.

Maraqlıdır ki, kənd həyatını olduqca gözəl, cazibədar təsvir edən Əli İldırımoğlu etnoqrafik lövhələri də ustalıqla yaradır: “Bizim boyaqxanada cövhər işləmir. İpi dədə-baba qaydasında boyayırıq. Qaratikan, gəvən kökü, mal sidiyi, tut qabı, nə bilim, boyaq otu, qarağac qabığı, nar gazalı... hökumət cövhərindən boyanan ipin gəbəsindən, kilimindən, seçimindən, palazından bir şey çıxmaz!”

Nəsr dilinə xas olan ən ümdə keyfiyyətləri Əli İldırımoğlunun hekayə, povest və romanlarında tapmaq olur. Doğrudur, onda dövrünün yazıçıları ilə ümumilik təşkil edən ifadə vasitələri ilə də rastlaşırıq, lakin bu nəsrdə fərdi ifadə vasitələri daha çoxdur, zəngindir. Bu ümumiliyi, fərqliliyi, əlbəttə, gələcək tədqiqatçılar müəyyənləşdirə bilər.

Əli İldırımoğlunun nəsrində, sözün həqiqi mənasında, linqvistik materiallar həddən artıq çoxdur. Əli müəllim bu “materialları” cəmiyyətə çatdıra bilib. Onun nəsr dili və üslubunun spesifikliyini əlbəttə, həmin “materiallar” daha yaxşı üzə çıxara bilir.

Əli İldırımoğlunun nəsrinin dil amili xalq dilinə söykənir. Yazıçı düşüncələrini ifadə edəndə, obraz və personajların xarakterini yaradanda dilə son dərəcə önəm verir.



Əli İldırımoğlu dilinə nəzarət edən ədibdir, dilin qanunlarını mükəmməl şəkildə mənimsəyib. Məhz həm də buna görə onun “Zorən jurnalist” romanı ədəbi hadisəyə çevrilmişdir.

Sintaktik biçimlər sintaktik qanunların məcrasına sığır, cümlə modelləri oxucunu öz ardınca çəkib aparır:- “Mən hüquq elminin yox, ona maddi məqsədlər zəminində sahib olmaq istəyənlərin çirkin niyyətlərinin əleyhinəyəm-dedi.- Etiraf etməsən də, cavabından o nəticə çıxır ki, bu arzu sənin şöhrətpərəstliyindən, var-dövlət toplamaq, cah-calal içində yaşamaq amalından irəli gəlir. Ancaq unutma ki, baş verən faciələr, bütün fitnə-fəsadlar, peşmançılıqlar ən çox harın həyat tərzi sürmək ehtirasından törəyir. Lazım olduğundan artıq sərvət əldə etmək hərisliyi mütləq bədbəxçilik doğurur. Bu mənada hüquq fakültəsinə daxil ola bilməməyinə qətiyyən təəssüflənməzdim. Bəziləri güman edirlər ki, yalnız varlılar həyatda şan-şöhrət sahibi olurlar. Axmaq fikirdi. Mən isə əksini düşünürəm. Uatt, Franklin, Faradey, Qaliley, Kerler...kimi dahilər yoxsul ailələrdən çıxıblar. Kübar həyata can atmağın məni əsla açmır... Bir də ki, o cür yolun yolçularının qazandığı hörmət də, şöhrət də sabun köpüyü kimi bir şeydir”.

Xalqdan gələn ifadələr Ə.İldırımoğlunun nəsr dilinə əlvanlıq gətirir: “Allahverən əmi də, kəndçi babadır, səhərdən-axşamacan iynə ilə gor qazır. Onun bir heylə mağduru hardadır?”. “Çünki onların çörək ağacı cinayət və cinayətkarlardır. Bu mənhus ağacın barından bəhrələnənlər fəxrlə öyünüb özlərini xoşbəxtlərin xoşbəxti sayırlar”.

Mən “çörək ağacı”, “kəndçi baba”, “iynə ilə gor qazmaq”, “məğdur” ifadələrini  uşaqikən babamdan (o da rəncbər idi) eşitmişdim. “Mənhus ağac” ifadəsi isə, mənə elə gəlir ki, Əli müəllimin özünündür. Bu bardan bəhrələnənlər çoxdur. Əli müəllim obrazın dili ilə deyir ki, “oxuduqlarımla gördüklərimin arasında uçurumun dərinlikləri məni dəhşətə gətirir”. Həqiqətən də, həyatda yalan baş alıb gedir.

Əli İldırımoğlu insanla təbiət arasında assosiasiya yaradanda qurulmuş mətnin ekspressivliyi bir daha yüksəlir: “Allahverən əlik ayağından gödək sapı olan, toxunma şallağını havada tovladıqca, Qəmər at boynunu gərib, dağın sinəsindəki dolaylarda kəklik kimi səkirdi. Baş-başa verən çılpaq qaylalar, əks tərəfdəki meşələr, dərənin dibində hay-harayla baş alıb gedən dağ çayı, Qəmər atın yorğa yerişi onu təbə gətirirdi”.

Əli İldırımoğlunun “Zorən jurnalist”inin təhkiyə və obraz-personaj dilində xalq dilinin  sərbəstliyi və təbii-dağınıq nizamı ilə ədəbi normativlik xüsusi olaraq əlaqəyə girir. Kəndin məişətinə yaxından bələdlik Əli müəllimin başlıca cəhətlərindəndir ki, hər misrası, hər mətni adamı heyran qoyur. Məişət koloriti, kənd-kəsək motivi sanki dilə hoparaq təsirli lövhələri canlandırır.

Frazeoloji məkan  Əli müəllimin yaradıcılığında genişlənir, şaxələnir, vüsət alır. Əli müəllim xalqda mövcud olanı yeniləyir, təzə formada təqdim edir. Müəyyən bədii şəraitdə konkretləşdirir, improvizasiya edir.  O, frazeoloji mühitə də xalq dili zəmində yanaşır. Frazeoloji seçimlərdə ciddiyyət var: “dəryada gəmisi batmış”, “eyninə qaraltı gəlmək”, “gözünün ağı-qarası”, “dünyanın qaruş-quruş vaxtı”, “dağ boyda kişi”, “yolun ağı”, “buz baltası”, “atcıl adam”, “səsinin yoğun yeri”, “dəyintili söz-söhbət”, “qəlbindən daş kimi asılmaq”, “gözdən tük qapmaq”, “xəmirləri haramla yoğurulmaq”, “uşaq üzü əlləmək”, “kəndə dadanmaq”, “ağzını yoxlamaq”, “sözü büküb palazın altına qoymaq”, “haqq dünya, nahaq dünya”, “qənimət adam”, “günün duran vaxtı”, “yayın cırhacırı”, “kənd uşağı”, “qara qayğı”, “ifallı adam”, “dılğır bir kənd”, “yuxa qulağı sulamaq”, “gecənin qara kəfəni”, “başını girləmək”, “ilan dili çıxarmaq”, “gözəllik ədəbdir, gül camal deyil”, “xalxınkı birdir, amma pirdir”, “qonşu qızı gəmirçəkli olar”, “indi kəsək daşdan ağırdır”, “oldu it dəymiş ayran”, “arvad almaq asandır, ər olmaq çətin” və s.

O, yeni sözü morfoloji yolla da yaradır:  “Daşıqçı” sözünə bu romanda ilk dəfə rast gəldim. Daşımaq felindən yaranmışdır. Uğurlu sözdür: “Daşıqçılar şəhərə dönmədən, birbaşa kəndə yollandılar”. “Yolağa” sözü biz tərəflərdə də işlənir: “Allahverən kərəntisini götürdüyü yerdə Nazim qəfil yolağadan içəri girdi”.

Yazıçı, “ağ təpə”, “sarı təpə” və s. toponimləri üslubi məqamda işlətməyi də bacarır. Fəttah xəyalən o illərə qayıdır, həsrətli baxışları ilə Çiçəklinin axar-baxarını seyr edir, Həsənalı gölünü, Balaban təpəni, Ağca yazını, Qiblə daşını, Gəlin kahasını, Yazı bulağını gözünün qabağına gətirib, qarğı tütəyilə baş-başa verən qayaların lal sükutunu pozur və qəhərlənirdi...

“Zorən jurnalist”də müəllif özü toponim yarada bilib. Məsələn, Azərbaycanda hamı bilir ki, Çayqovuşan rayonu yoxdur. “Rektor qaşlarını çatıb maraqla soruşdu?- Hansı rayondansan? — Çayqovuşan rayonundan”.

Dövrə, zamana, cəmiyyətdəki qayda-qanunlara qarşı daxili narazılığı romanda əsas yerlərdən birini tutur. Sovet dövrünün imtahan sistemindəki özbaşınalıq, biliklərin düzgün qiymətləndirilməməsi haqlı olaraq ifşa olunur.

Təbiət təsvirləri obrazların əhvali-ruhiyyəsi ilə çulğalaşır, oxucuda əsərə qarşı marağı daha da artırır: “İsti meh, ara-bərəsində hacıleyləklər dolaşan çəltik zəmilərini sakit-sakit dalğalandırırdı. Çayın sahillərindəki bülövlənmiş daşlardan qoru sönməmiş təndirin ağzı kimi od qalxırdı”.

Ekspressiv sintaksisin imkanlarından bacarıqla istifadə etmişdir. O, cümlələri parsellərə bölmüş, qoşulma konstruksiyalardan maksimum bəhrələnmişdir: “Bu sirr Nazimin və Rəziyyənin hərdən rastlaşan lal baxışlarında sezilirdi. Bir də ki, hərtərəfli yarımış xoşbəxt şəhər qızıynan, sevgi dünyasının zənginliklərinə baş vurmaq üçün hələ qanadı bərkiməyən Çiçəkli qartalının xəfif təcəssümündə”.

Yazıçı belə üslubi fiqurun köməyi ilə nitqin dinamikliyi və lakonikliyini əldə edə bilmişdir. Ümumiləşdirmə nəticəsində qısa, lakonik strukturların yaranması dildə qənaət prinsipindən irəli gəlir.

Əli İldırımoğlunun dili, üslubu, istifadə etdiyi bədii-leksik, leksik-informatik vasitələr, bütövlükdə dil faktı son dərəcə ciddi elmi tədqiqatların mövzusudur. Əli müəllim itib-batan, unudulan, dil fondumuzdan silinib getməkdə olan sözlərə, ifadələrə, söz birləşmələrinə, cümlələrə özünəməxsus nəfəs, poetik özgürlük verir, eyni zamanda onları yeni biçimdə, yeni estetik və məntiqi məndəricədə təqdim edir. Onun ədəbiyyatımıza gətirdiyi atalar sözləri, idiomlar, xalqımızın    psixologiyasını, ümumiyyətlə insan təbiətinin zəngin, dərin qatlarını yaradan frazeoloji birləşmələr, qanadlı sözlər təkcə dilçi alimlərimiz üçün deyil, eyni zamanda əlinə yenicə qələm almış və bədii yaradıcılıq adlı ünvana üz tutmuş gənclərimiz üçün tədqiqat mənbəyi olmalıdır. Gənclərimiz, gənc qələm sahiblərimiz, çox istərdim ki, Əli müəllimin yaradıcılıq əhatəsində böyüsün, onun isti, həlim, doğma və munis aurasında nəfəs alıb formalaşsın. Çox istərdim, bu gün elm adına daha çox manipulyasiya ilə məşğul olan ali təhsil ocaqlarımızda, universitetlərimizdə Əli müəllimin əsərləri (xüsusən dili, üslubu) ayrıca bir kurs kimi tədris edilsin. Bu Azərbaycan dilinin öyrənilməsi, təbliği, dilimizin sehrinin, magiyasının, cazibə qüvvəsinin aşkarlanmasında böyük rol oynaya bilər. Ən nəhayət (özüm də daxil) dilçi alimlərimizə yönəlik demək istəyirəm ki, Əli müəllimin yaradıcılığına müraciət edin, dönə-dönə müraciət edin, onu tədqiqat obyektinə çevirin, inanın ki, Azərbaycan dilini yenidən kəşf edəcəksiniz, dil haqqında elmi araşdırmalarınız zəngiləşəcək, tədqiqatlarınıza, araşdırmalarınıza yeni elmi və estetik təravət gələcək, bu qüdrətli dilin necə zərif, zəngin olduğuna bir daha şahidlik edəcəksiniz.

**30.06.2012.**

# Beynəlxalq folklor festivalından uğurla qayıtdılar

Hələ aylar öncə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin rektoru, professor Timuçin Əfəndiyev Sloveniya respublikasında olarkən oradakı Nitra universitetinin rəhbərliyi ilə gələcək əməkdaşlıq haqqında bir sıra müqavilələr bağlamışdı. Çox keçmədi ki, dost ölkənin Filosof Konstantin adına Nitra universitetindən ADMİU-ya dəvət məktubu daxil oldu. Məktubda Sloveniyada keçiriləcək 38-Beynəlxalq Folklor Qrupları festivalına Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetindən yaradıcı qrupun dəvət olunması yer almışdı. ADMİU rektorunun məsləhəti ilə qrupa universitetin "Musiqi sənəti" və "Rejissor sənəti" fakultələri tələbələrindən ibarət istedadlı gənclər cəlb edildi. Aylarla davam edən gərgin məşqlər nəhayət ki, öz bəhrəsini verdi. İyulun əvvəllərində Nitra şəhərində start götürən Beynəlxalq folklor festivalında dünyanın 40-dan artıq ölkəsindən 700-dən çox iştirakçısı öz ölkələrini ləyaqətlə təmsil etmək üçün necə deyərlər dəridən-qabıqdan çıxırdılar. MDB ölkələrini isə Rusiya və Azərbaycanın folklor qrupları təmsil edirdi. ADMİU-nun "Xoreoqrafiya və səhnə plastikası" kafedrasının müdiri Lüdmila Həsənova ilə "Rejissor sənəti" kafedrasının müəllimi, dosent Hafiz Quliyev bu mötəbər festivalda təqdim olunacaq bir neçə dəqiqəlik səhnə-çiyin quruluşu, musiqilər, rəqslərin seçimi barədə günlərlə fikirləşdilər. Necə etmək ki, yığcam səhnə tərtibatında Azərbaycanımızın etnik xüsusiyyətləri, folklor incəlikləri, başlıcası isə ifaçılıq məharəti öz əksini tapsın.Sonucda 6 gəncin üzərində dayandılar. Müxtəlif kurslarda təhsil alan Kamil Cəfərov, Ramin Rüstəmov, Kamal Abdullayev klassik üçlüyü təşkil edəcək, Xamis Cəfərovla Ləman Hüseynli Azərbaycan rəqslərini nümayiş etdirəcək, gənc pedaqoq Altay Məmmədov isə aşıq qismində çıxış edəcək.



Festivalda münsiflər heyəti olmur, qaliblər üçün də yerlər müəyyən edilmir. Sadəcə tədbir iştirakçılarının tamaşaçı kütləsi tərəfindən nə sayaq qarşılanmasından söhbət gedə bilər.

Bu mənada Azərbaycandan Avropanın bu ölkəsinə dəvət almış ADMİU-nun folklor qrupu 3 gün ərzində festival tamaşaçılarını sözün əsl mənasında heyran etdi. Hafiz Quliyev deyir ki, elə ölkə vardı, 60-70 nəfərlə təmsil olunurdu, amma bizim 6 nəfərlik qrup festivalın ilk günlərindən hamının diqqət mərkəzində oldu. Gənclərin ifasında səslənən "Sarı gəlin", "Yanıq kərəmi" saz havası, "Süleymanı" rəqs havası uzaq avropa mühitinə bir şərq, Azərbaycan abu-havası gətirirdi. Təsadüfi deyildi ki, festival sonrası keçirilən demək olar bütün rəsmi görüşlərə televiziya verilişlərinə, banketlərə məhz Azərbaycan təmsilçilərini dəvət edir, onların ifalarına dönə-dönə qulaq asmaqdan doymurdular.

Vətənə 38-Beynəlxalq Folklor Qrupları festivalından 3 fəxri diplomla qayıdan Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin tələbələri mükəmməl üçlük, rəqs texnikası və ifaçılıq məharətinə görə nominasiyalara layiq görülmüşlər. Onlara uğurlu səfər arzulamışdıq, parlaq uğurlarla da Vətənə qayıtdılar

**İNTİQAM**

# Fəxri adlar alan mədəniyyət və incəsənət xadimlərinə mükafatlar təqdim edilib

Muzey Mərkəzində mədəniyyət və turizm naziri Əblüfəs Qarayev Prezident İlham Əliyevin sərəncamı ilə fəxri adlara layiq görülmüş bir qrup mədəniyyət, incəsənət xadimlərinə, turizm işçilərinə orden və medallar təqdim edib. APA-nın məlumatına görə, tədbirdə çıxış edən Əbülfəs Qarayev bildirib ki, "Eurovision-2012" mahnı müsabiqəsinin Bakıda keçirilməsi Azərbaycan mədəniyyətinin dünyada təbliğinə kömək edib. Nazir deyib ki, yalnız son 1 ayda dünyanın üç ölkəsində Azərbaycan mədəniyyət günlərinin keçirilməsi təqdirəlayiq bir haldır və bu tədbirlər daha da genişlənəcək.

Ə.Qarayev qeyd edib ki, son illər ərzində Heydər Əliyev Fondunun dəstəyi ilə bir sıra layihələr həyata keçirilib və bunun sayəsində Azərbaycan mədəniyyəti çox geniş şəkildə təbliğ olunub. Ə. Qarayev mədəniyyət sahəsində aparılan siyasət nəticəsində Azərbaycanın yalnız neft ölkəsi olaraq deyil, həm də mədəniyyət ölkəsi kimi tarixə düşməsinə çalışdıqlarını vurğulayıb.

Daha sonra Ə. Qarayev fəxri adlara layiq görülmüş bir qrup mədəniyyət və incəsənət xadimlərinə orden və medallarını təqdim edib. Bəstəkar Aqşin Əlizadənin səhhətində nasazlıq yaşadığından "Şöhrət" ordeni onun qardaşına təqdim edilib. Tədbirdə Zakir Məmmədov, Əvəz Abdullayev, Yeganə Axundova, Samir Cəfərov, Əli Əsgərov və Kamilla Hüseynovaya Xalq artisti, İsrafil İsrafilov, Emin Məmmədov, Nazim Mirişli, Sara Nəzirova və Cahangir Zülfüqarova əməkdar incəsənət xadimi, Çingiz Əhmədov, Çinarə Əlizadə, Vidadi Həsənov, Qurban İsmayılov, Elşən Rüstəmov, Elman Rəfiyev və Atabala Səfərova əməkdar artist və daha bir neçə nəfərə əməkdar mədəniyyət işçisi fəxri adının medalı təqdim edilib.

# Müğənni Rihannanın Bakı konsertinə bilet müsabiqəsi elan olunub



Rihannanın Bakı konsertinin təşkilatçıları müğənninin azərbaycanlı pərəstişkarları arasında müsabiqə elan edib.

Dünya şöhrətli müğənninin Bakı konsertini təşkil edən "Universal Music Group" şirkətinin Azərbaycan nümayəndəliyi "Omnikomo Music Group" şirkətinin PR xidmətindən APA-ya verilən məlumata görə, müsabiqənin qalibləri oktyabrın 6-da "Crystal Hall"da keçiriləcək konsertin fan-zonasına bilet əldə edəcəklər. Müsabiqənin qalibləri səhnədən bir neçə addım aralı olan bu məkanda pərəstiş etdikləri ulduzun möhtəşəm şousunu izləmək imkanı qazanacaqlar.

Rihannanın pərəstişkarı olan hər bir şəxs qeyd olunan müsabiqədə iştirak edib, sənətçinin "Crystal Hall"da keçiriləcək möhtəşəm şousuna bilet qazana bilər. Bunun üçün fanatlar Rihanna üçün öz video müraciətini çəkməli və ona sevgilərini etiraf etməlidirlər. Pərəstişkarlar "Rihanna, I love you" adlı video-müraciəti fan@omnikomo.com elektron ünvanına göndərə bilərlər.

Müsabiqədə iştirak etmək üçün şərtlər belədir: "Video müraciət sizin haqqınızda və sizin ulduzunuz olan Rihanna ilə bağlı olmalıdır. Siz bu video müraciətdə nəyə görə Rihannanı və onun yaradıcılığını bəyəndiyinizi, nə vaxtdan onun pərəstişkarı olduğunuzu əhatə etməlisiniz. Eyni zamanda nəyə görə məhz siz bu müsabiqənin qalibi olması və öz kumirinizin konsertinə bilet qazanmağınız haqda ətraflı danışmalısınız. Hər bir pərəstişkar Rihannanın konsertində fan-zonaya bilet əldə etmək uğrunda öz kreativliyini və yaradıcılıq fantaziyasını göstərməlidir. Video-çarx məktubunda sizin şəklinizin, eləcə də Rihannayla bağlı topladığınız fanat kolleksiyasının da yerləşdirilməsi daha yaxşı olardı. Siz müğənninin posterlərinin fonunda, onun şəkli və ya musiqi albomları çəkilmiş maykada şəkil çəkdirə və ya şəkildə Rihannanın ən yaddaqalan obrazlarının birində düşə bilərsiniz. Ən əsası odur ki, şəkil Rihanna, onun yaradıcılığı, musiqisi və klipləri ilə bağlı olsun".

Müsabiqəyə dünəndən etibarən start verilib və sentyabrın 1-nə kimi davam edəcək. Müsabiqənin qalibləri sentyabrın 15-ə kimi elan ediləcək. Müsabiqənin fəal iştirakçıları Rihannanın simvolikası ilə xüsusi prizlər və suvenirlər qazanacaqlar. Bu prizlər və suvenirləri pərəstişkarlar müğənninin "Crystal Hall"da keçiriləcək konsertində əldə edəcəklər.

# "Top həm düşər, həm qalxar" filmi beynəlxalq mükafata layiq görülüb

Rusiyanın Yakutsk şəhərində IV Beynəlxalq İdman Filmləri Festivalı başa çatıb. 150 filmdən ibarət əsas müsabiqə proqramı olan festivalda ABŞ, Böyük Britaniya, Fransa, Almaniya, Portuqaliya, Ukrayna, İran, Özbəkistan və bir çox başqa dövlətlərdən təqdim olunmuş müxtəlif səpkili idman filmləri bir neçə nominasiya üzrə nümayiş olunub. Mədəniyyət və Turizm Nazirliyinin mətbuat xidmətindən APA-ya verilən məlumata görə, Azərbaycan kinosunu festivalda rejissor Arzu Urşanın "Salnamə" studiyasında çəkdiyi "Top həm düşər, həm qalxar" filmi təmsil edib. Sözügedən film münsiflər heyətinin qərarı ilə festivalın "Ən yaxşı sənədli film" nominasiyasında I yerə layiq görülüb. Festivalın bağlanış mərasimində mükafat Mədəniyyət və Turizm Nazirliyinin Kinematoqrafiya şöbəsinin müdiri Cahangir Məmmədova təqdim olunub.

# "Bu dünya Tanrıya səcdə yeridir"

Azərbaycan Yazıçılar Birliyinin üzvü, şair Qəşəm Çıraqlının "Bu dünya Tanrıya səcdə yeridir" kitabı çapdan çıxıb. Kitabda şairin son iki ildə qələmə aldığı şeirlər toplanıb. Mövzu rəngarəngliyi, dil və üslub sadəliyi Qəşəm Çıraqlının yaradıcılığının başlıca məziyyətlərindəndir. Odur ki, bu şeirlər oxucuda ruh yüksəkliyi yaradır. Kitaba ön söz yazan tənqidçi Vaqif Yusifli Qəşəm Çıraqlı şeirlərini, onun yaradıcılığını belə qiymətləndirib: "Öz sözünə inam hissi, deyəcəyi sözün ehyaedici gücünə arxayınlıq Qəşəmin bütün şeirlərində hiss olunur. Qəşəm Çıraqlı sözə güvəndiyi kimi söz də ona güvənir. Məhz bu qarşılıqlı vəhdətdən şeirlər yaranır. Ən adi həqiqətlər onun şeirlərində yeni məna statusu qazanır".




Şairin şeirləri həcmcə qısa olsa da, məzmunlu və dolğundur. Məhz bu cəhət onu şair kimi səciyyələndirən keyfiyyətlərdəndir.

**İnsanlar**
**Torpaq üstündə**
**Dava salır:**
**Qan tökülür**
**Torpaq alır**
**Torpaq**
**Heç kəsə qalmır**
**Hamı torpağa qalır.**

+++

**İnsanı ağladan**
**Güldürəndi söz**
**İnsanı dirildən**
**Öldürəndi söz**
**Qılınca, qalxana**
**Dünəndi söz**
**Yenə qələmə**
**Güvəndi söz.**

+++

**Hər kəsin yaxası**
**Ölüm əlində**
**Ölüm heç kəsə**
**Yaxa vermir**
**Ölüm hamını görür**
**Heç kəs ölümü görmür**
**Heç kəs ölümü gözləmir**
**Ölüm hamını gözləyir.**

Kitaba daxil edilən şeirlər arasında şairin uşaqlara, vətənə, sevgiyə həsr etdiyi və müxtəlif mövzularda qələmə aldığı poetik parçalar da öz əksini tapıb.

**GÜNEL**

# Azərbaycan sənətçiləri Türkiyədə Aşıq Seyrani Festivalına qatılıblar

Azərbaycanın incəsənət ustaları Türkiyənin Kayseri vilayətində TÜRKSOY və Dəvəli bölgə bələdiyyəsinin təşkilatçılığı ilə keçirilən 30-cu Beynəlxalq Aşıq Seyrani festivalında iştirak ediblər.

Festivalın Türkiyə Böyük Millət Məclisinin (TBMM) deputatları və Kayseri vilayəti rəhbərlərinin iştirak etdikləri açılış mərasimində Azərbaycanın milli rəqsləri və "Bir millət, iki dövlət" mahnısı ifa olunub.

Gənc incəsənət ustalarımıza xatirə hədiyyələri təqdim edilib. TBMM-in deputatı Əhməd Öksüzkaya azərbaycanlı, qırğız və Balkan ölkələrindən gəlmiş folklor qruplarını salamlayıb, onların festivalda iştirakının əlamətdar olduğunu söyləyib.

XIX əsr türk xalq ədəbiyyatının görkəmli nümayəndələrindən biri olan Dəvəlili Aşıq Seyraninin xatirəsinə həsr olunmuş festivalın otuz illiyi münasibətilə 30 aşığa qızıl xatirə medalları təqdim edilib.

**GÜNEL**

*Ağacəfər HƏSƏNLİ*

# Rübai üstündə köklənən könül

Yaltada Tatyana Stepanovna adlı mənşəcə rus qadınla həmsöhbətəm. O, ədəbiyyatçı deyil, ancaq yüksək savada və məlumata malikdir. Moskva ətrafında doğulduğunu, sabiq SSRİ-nin paytaxtında hüquq təhsili aldığını söyləyir, kitab-qəzet gecə-gündüz əlindən düşmür. Tez-tez fars şairi Ömər Xəyyamdan söz açır, onun dahi rübai ustası olduğunu nəzərimə çatdırmaq istəyir. Bir dəfə könlünün xoş vaxtında Xəyyamın rübaisini rus dilində söyləyir və hətta Rusiya prezidenti Vladimir Putinin şairdən xeyli sayda şeir bildiyini deyir. Mən rusca o qədər də səlis səslənməyən məşhur beytləri xüsusi intonasiya ilə Azərbaycan dilində əzbərdən ifadə edirəm:

**Sadəlövh könlümdən mən cana gəldim,**
**Cəfakeş canımdan fəğana gəldim.**
**Mənsiz də dünyanın işi keçərmiş,**
**Əcaba, nə üçün cahana gəldim?**

Bu da Tatyana Stepanovnanın dilindən eşitdiklərim: "Hə, hə, sizin Xəyyam həqiqətən nəhəngdir, söz sərrafıdır, dünyada tayı-bərabəri yoxdur. Doğma dilinizdə şeirləri daha gözəldir". Mən hüquqşünas qadını başa salıram ki, Ömər Xəyyam Şərq ədəbiyyatının klassikidir, amma farsdilli şeirin ustasıdır. İranın Nişapur şəhərində doğulub. Bəlxdə, Səmərqənddə, İsfahanda yaşayıb. Qiyasəddin Əbülfəth ibn İbrahim onun tarixi imzasıdır. O, böyük riyaziyyatçı və filosof olub, elmi kəşfləri ilə, risalə və traktatları ilə tanınıb. Mən bir az da konkret məlumat verəndən sonra qüdrətli Azərbaycan ədiblərinin adlarını sadalayıram. Xaqaninin, Məhsətinin, Nizaminin, Tusinin, Nəsiminin, Füzulinin, Mirzə Şəfinin rubai yaradıcılığını önə çəkirəm, onların şeirlərinin daha üstün fəlsəfi və bədii mahiyyət daşıdığını misallarla sübut edirəm. Qadın sonsuz maraqla susur, acizanə surətdə söylədiklərimi yazıb ona çatdırmağımı dilinə gətirir və təbii ki, öncə yalnız öz dediklərinə üstünlük vermək istəyən bu bir azca eqoist və şovinist qadını tamamilə tərksilah eləməyə müvəffəq oluram, xahişini də yerinə yetirirəm.

+++

Çoxdan tanıdığım və vaxtilə Lerikdə çıxan çoxtirajlı "Bolluq uğrunda" qəzetində birgə çalışdığım Qəhrəman Əliyevin əsasən rübailərdən ibarət "Ürəyimin dünya dərdi" şeirlər toplusu barədə qeydlərimə uzaqdan başlamağımın səbəbi var: əvvəla, rübai klassik janrdır, hər kəsin şeirin bu növündə yazmağa cəsarəti çatmır. İkincisi, Azərbaycan ədəbiyyatında qədimdən tutmuş, çağdaş dövrümüzəcən bu janrın qapısı həmişə asta-asta döyülüb və Qəhrəman Əliyevin də yazıb-yaratdığı nümunələr bədii siqlətinə görə ürəyəyatandır, səmimidir, axıcıdır. Maraqlı odur ki, müəllif klassik rübai ustası Xəyyama dönə-dönə üz tutsa da, ondan "üzrxahlıq" etsə də qətiyyən yaradıcılığından soyumur, qələmini korşaldıb kənara qoymur. Ona görə, kitabı oxuyub görürsən, müəllifin "ürəyinin dünya dərdi" sızıltıdan ibarət deyil, bəşəri dərddir, bəşəri ağrıdır və oxucu, qəlbində bu ağrıya haqq qazandırır.

**Qocalıq gəncliyi ötürər gələr,**
**Günləri günbəgün bitirər gələr.**
**Günlərin bir günü onunla birgə,**
**Ölüm də özünü yetirər gələr.**

Rübaidə qafiyələr nə qədər köhnə olsa da, hikmət, məna var, fikir qorunub. Bu da klassik janrın tələblərinə tamamilə uyğundur. Bəzən şair forma əlvanlığı xatirinə məzmunu yaddan çıxarır, görürsən, deyilişi gözəl sözlərin arxasında heç bir mətləb dayanmayıb, o zaman yaxşı forma gözündən düşür. Şeirdəki müqayisə də klassik müqayisədir, müdrik söz sərrafları həmişə gəncliklə qocalığı tərəzinin müxtəlif gözünə qoyub nəticə hasil eləməyə çalışıblar. Üstünlük gah ömrün ahıl çağının tərəfində olub, gah da "cavanlıq" adlanan gənclik çağının...

Qəhrəman Əliyevin rübailərində fikirin fəlsəfi deyim tərzi üstündür, ancaq müəllif quru fəlsəfəçiliyə varmır, əsasən sözün poetik qüdrətinə, bədii-estetik tərəfinə yön alıb məna detallarıyla mənzərə yaradır. Doğrudur, bəzən nəsihətçilik, didaktika oxucunun gözünə artıq görünə bilər. Məncə, bu, mövcud janrın öz daxili tələbi və diqtəsidir, əllaməçilik, sünilik deyil. Fikrimi əsaslandırmaq üçün konkret misallara keçirəm:

**Yaxşılığa adət eylə, yaşa sən,**
**Yaxşı əməlinlə yaşa, yaşa sən.**
**Gördüyünü fil eləyib şişirtmə,**
**Yaxşılığı qaxınc etmə başa sən.**

Digər bir parçada yenə "gəlimli-gedimli, son ucu ölümlü" ("Dədə Qorqud dastanı") dünyaya filosofyanə münasibət bildirilir.

**Alıb sorağını gəldik, a dünya!**
**Qalıb sənə mehman olduq, a dünya!**
**Həyatın mənası bu imiş demək?! —**
**Gəlib mehman olduq, öldük, a dünya?!**

Qəhrəman Məhərrəm oğlunun bir şair kimi, yazar kimi bəlkə də ən böyük xoşbəxtliyi ondadır ki, Lerikdə — çılpaq, vəhşi təbiətin qoynundadır, daim ətraf mühitlə ünsiyyətdədir. Şübhəsiz, göyərən ağac da, çaxan şimşək də, şıdırğı yaz-payız yağışı da, bir andaca coşub-daşan sellənən-göllənən dərə də, yaşıllaşan çöl-çəmən də, pətəkdə vızıldayan arı da, mamırlı daş-qaya da onun şair könlünü az dilləndirməyib. Bunların hər biri ayrı-ayrılıqda mövzudu və bu təbii mövzuları Tanrı insana göndərib və həqiqətən təəccüblüdür, necə Lerikdə olasan, belə geniş, saf mühiti görməyəsən, qələmə sarılıb nəsə yazmayasan...

**Öyrən təbiəti, sev təbiəti,**
**Odur bəxş eləyən minbir neməti.**
**Təbiət təbiblik eləyir bizə,**
**Dolaş təbiəti, gör mərhəməti.**

Təbiətin özünəxas amansız qanunları var: adamı dirildir də, öldürür də. Əgər səmimi olsan, onda daşı-torpağı da, yağışı-qarı da gözündə ləl-cəvahirata dönər. Vay odu ki, ortadakı saxtakarlıq təbiətin qəddini əyə, belini bükə, o zaman hıəlim təbiət ən sərt üzünü göstərər, mərhəməti intiqama çevrilər.

**Ətrafa düşərsə bir damla yağış,**
**Dünyanı bürüyər nizamla yağış.**
**Damlalar yaradıb çayı, dənizi,**
**Canlanır torpaqda hər damla yağış.**

Adət-ənənə, gün-güzəran, tale-qismət, ölüm-itim daim insanın yol yoldaşıdır. "Ürəyimin dünya dərdi" kitabının müəllifi həmişə sadə camaatla, el-obayla, xalqla birgədir, ünsiyyətdədir. Bu vəhdət birliyindən yaradıcı şəkildə bəhrələnməmək mümkün deyil. Əlbəttə, şairin borcu hər eşitdiyini tələm-tələsik qafiyələndirib şeir qəlbinə salmaq da deyil, axı cilalanmamış söz kal armuddur. Boğazdan keçməz, ürəyə yol tapmaz, duyğuları dilə gətirməz.



**Mayası olmasa, alınmaz pendir,**
**Bişirməz mayasız xəmiri təndir.**
**Halal çörəyinə haramlıq qatma,**
**Mayası haramdan həmişə gen dur.**

Və yaxud da bir misradakı söz oynatmasına diqqət çəkək:

**Namazı bilməyən azanı neylər?**
**Qazana bilməyən qazanı neylər?**
**Qazan — "evə ruzi qazan" deməkdir,**
**Sən qazan, görginən qazanı neylər?!**

Bu da təkcə şairin yox, həm də hər bir insanın həyatda gəldiyi acı qənaəti:

**"Ölümdən qorxmuram,"desə də hər kəs,**
**Can atır son anda alsın bir nəfəs.**
**Ölüm ölənlərin son səfəridir,**
**Yoxdu bu səfərə heç kimdə həvəs...**

Gözlərin, baxışların tərifatını çox şairlər verib. Ala gözlər, can alan qara gözlər həmişə hamını məftun edib, mövzu obyektinə çevrilib. Vaxtilə İmadəddin Nəsimi yazırdı: "Gözlərim gözlər gözəllər həzrətini şahımın": Mövlanə Məhəmməd Füzuli deyirdi:

**"Tutiyayi xaki-payin feyzinə yol bulmasam,**
**Nuri-çeşmim eyb qılma, kor olur derlər qərib.**

Qəhrəman Əliyev ulu sələflərindən yaradıcılıqla bəhrələnib:

**Heç yerdə görmədim gözün tək gözlər,**
**Gözlərim həsrətlə yolunu gözlər.**
**İstərdim gözündə olum kipriyin,**
**Kipriklər gözləri bəd gözdən gözlər.**

Kitabda əsas yeri rübailər tutsa da, burada şairin şeirləri də var. Yurd sevgisi, məhəbbət, həsrəti notları, kənd lövhələri misra-misra oxucunun ruhuna oturur. Sayca beşinci bu kitab "Adiloğlu" nəşriyyatında işıq üzü görüb. Mən də müəllifə həmişə işıqlı sözlər axtarışında olmasını arzulayıram.

Əslində bu yazdığım kitab haqqında resenziya deyil, illər boyu tanıdığım bir yaradıcı insan barədə ürəyimdə yığılıb qalmış sözlərimin kiçik hissəsidir. Neyləyim, ifadəsini bu şəkildə tapdı.

+++

Yeri gəlmişkən, yadıma düşən bir balaca həyat epizodunu Qəhrəman müəllimə xatırlatmaq istəyirəm. "Yerli Bolluq uğrunda" qəzetində birgə çalışırdıq. Qəhrəman Əliyev redaktor müavini, partiya həyatı şöbəsinin müdiri, mən isə ədəbi işçiydim. 9 May Qələbə günü münasibətilə qəzetin ayrıca sayını hazırlamaq lazım idi. Redaktor Həmzə Vəliməmmədov hamıya mövzu tapşırdı, mənə yaxınlaşıb, "balası, sən müharibəylə bağlı 7-8 bayatı yaz, birinci səhifə üçün" dedi və getdi. Həmzə müəllimə bir söz demədim, yaxınlaşıb sakitcə müavinə, "mən elə sifarişlə bayatı yaza bilmərəm" söylədim.

Qəhrəman müəllim bərkdən güldü, heç nə demədi. Materiallar yığılan gün isə xeyli sayda, redaktoru təmin edən bayatını stolun üstünə qoydu. Mən məsələdən xəbərsiz idim. İstədim Həmzə müəllimə yaxınlaşıb bayatıları yazmadığımı, özümə bəraət qazandığımı deyim, o, məni qabaqlayıb gülərüzlə, bəh-bəhlə qarşıladı:

— Əla bayatılar yazmısan. Yeni nömrəmizin bəzəyi olacaq — söylədi və əlimi bərk-bərk sıxdı.

Mən deməyə söz tapmadım...

## Valeri Abramidze:

# "Asteras" "İnter"dən güclüdür"

**Bakının “İnter” klubunun müdafiəçisi Valeri Abramidze Qol.Az saytına müsahibəsində Avropa Liqasında Estoniya “Trans”ına qarşı keçirilmiş birinci oyun, eləcə də iyulun 12-də baş tutacaq cavab qarşılaşması haqda danışıb.**

***— “Trans” üzərində bu cür böyükhesablı qələbə qazanacağınızı gözləyirdin?***

— Düzdür, səfərə qələbə dalınca gedirdik. Lakin səmimi desəm, rəqibimizi belə darmadağın edəcəyimizi gözləmirdim.

***— Kənardan belə təəssürat yaranırdı ki, sanki rəqibiniz mübarizə aparmaq istəmir.***

— Kim deyir ki, onlar mübarizə aparmırdılar? Ola bilər siz hesab böyük olduğu üçün belə fikirləşirsiniz. Ancaq onlar asanlıqla uduzmağı düşünmürdülər. Pressinq edərək mübarizə aparırdılar. Sadəcə, ikinci vurduğumuz qoldan sonra “Trans”ın oyununda sınma baş verdi.

***— Xeyli müddətdir, “İnter”in şərəfini qoruyursan. Bir təcrübəli futbolçu kimi yeni transferlərin oyunu haqda nə deyə bilərsən?***

— Həmin gün Georgi Adamiya və Slavço Georgiyevski möhtəşəm idilər. Ümumiyyətlə, bu futbolçuların səviyyəsi və peşəkarlığına söz ola bilməz. Oyunda onların “İnter”in yeni futbolçuları olduğu hiss olunmurdu. Özünüz də gördünüz ki, qələbədə ən böyük pay sahiblərindən biri oldular.

***— “Trans”la təkrar qarşılaşma “İnter” üçün formal xarakter daşıyacaq...***

— Mən fikirləşirəm ki, azarkeşlərimizi ilk görüşün nəticəsinə görə necə lazımdırsa, sevindirmişik. Əgər fantastika olmasa, ikinci mərhələyə keçdiyimizi söyləmək olar. Biz daha çox ikinci mərhələdəki rəqibimiz haqda düşünməliyik. Ona görə də bir qədər diqqəli və ehtiyatlı olmalıyıq.



***— Növbəti rəqibiniz Yunanıstanın “Asteras” klubu haqda nə düşünürsən?***

— Təbii ki, Yunanıstan təmsilçisi “Trans”dan qat-qat güclü komandadır. Yaddan çıxarmaq lazım deyil ki, “Asteras” Yunanıstan Super Liqsında mübarizə aparır və səviyyəcə çox yüksək klub hesab olunur. Məncə, “Asteras” “İnter”ə layiqli bir rəqibdir. Hətta Yunansıtan klubu olduğu üçün bizdən güclü olduğunu da söyləmək olar. Onlarla oynamaq çox maraqlı olacaq.

***— “Asteras”ın baş məşqçisi Georgios Xaridis “Trans”la qarşılaşmada komandanızı yaxşı təhlil etdiyini söyləyib. O, zəif nöqtənizin müdafiənin mərkəzi olduğunu söyləyib. Onun sözlərinə görə, güclü təzyiq olan zaman səhv etməyə məcbur olursunuz.***

— Bunlar onun şəxsi fikridir. Belədə ki, istənilən güclü komandaya qarşı təzyiq olanda səhvlər yaranır. Hətta güclü Almaniya millisi də belə səhvlərdən sığortalanmayıb. Ola da bilər ki, bu, rəqib məşqçinin oyunqabağı taktiki gedişidir.

***— Bəs, “Asteras”la mübarizədə şanslarınızı necə dəyərləndirirsən?***

— Yəqin ki, öz şanslarımız və taktiki gedişlərimiz haqda eston klubuyla ikinci görüşdən sonra düşünəcəyik. Ancaq Yunanıstan təmsilçisinə hörmətlə yanaşdığımızı söyləyə bilərəm. Biz istənilən rəqibə qarşı oynaya bilərik. Baş məşqçi və komandamıza çox inanıram.

# "Yeni futbol fəlsəfəsi olan oyunçular yetişdirəcəyik"

**“Qəbələ”nin əvəzedicilərdən ibarət komandası iyul ayının 1-dən doğma məkanda yeni mövsüm hazırlıqlarını davam etdirir. Yeni baş məşqçi, ispaniyalı mütəxəssis Luis Araqon klubun rəsmi saytına müsahibəsində Azərbaycan və Qəbələ haqda ilkin təəssüratlarını, təlim-məşq toplanışının gedişi və gələcək planları barədə fikirlərini bölüşüb:**

***— Artıq 10 gündən artıqdır ki, Azərbaycanda — Qəbələdəsiniz. Ölkəmizə, yeni şəhərinizə uyğunlaşa bilmisinizmi?***

— Daha əvvəl də bir dəfə Azərbaycanda olmuşdum. Həmin səfərim zamanı Bakını, Qəbələni və Lənkəranı gəzmişdim və buradan xoş təəssüratlarla ayrılmışdım. Ölkəniz elə ilk dəfədən çox xoşuma gəlmişdi. O ki qaldı Qəbələyə, yeni şəhərim yaşamaq və işləmək üçün çox gözəl və əlverişli yerdir. Təbiəti və iqlimi çox yaxşıdır. Sakit, stressiz şəhərdir. Uyğunlaşmada da heç bir problem yaşamadım. Məni əhatə edən insanlar çox səmimi, mehriban və ən əsası peşəkar insanlardır. Bu da mənə özümü Qəbələdə rahat hiss etmək üçün əsas verir.

***— Bir həftədən çoxdur ki, hazırlıqlara start verilib. Təlim-məşq prosesi necə gedir?***

— Hazırda komandanı komplektləşdirməklə məşğuluq. Heyəti nəzərdən keçiririk, çatışmayan tərəflərimizi müəyyənləşdiririk. Futbolçularıma lazımi tapşırıqlarımı verirəm, onlar isə mənə diqqətlə qulaq asırlar, tapşırıqlarımı yerinə yetirməyə səy göstərirlər. Çempionatın startına kimi bir neçə yoldaşlıq oyununda gücümüzü sınayacağıq. Bu da bizə zəif nöqtələrimizi görməyə imkan yaradacaq. Həmin müddət ərzində komandada qalacaq, gedəcək və kollektivə yeni qoşulacaq futbolçuları da müəyyənləşdirəcəyik. Akademiyadan da heyətə yeni futbolçular cəlb edəcəyik.

***— Komandanın hazırkı durumunu necə dəyərləndirirsiniz?***

— Komandada ab-hava yüksək səviyyədədir. Amma futbolçunun yetişməsi üçün təkcə məşqlər yetərli deyil. Biz hazırda futbolçularımız üçün ideal proqram formalaşdırırıq. Onların düzgün rejimə salınması peşəkar futbolçu kimi yetişmələri üçün vacib faktordur. Gün ərzində səhər yeməyindən başlayaraq meydançadakı davranışların, gündəlik həyat tərzinin, istirahətin düzgün qurulması, asudə vaxtının normal dəyərləndirilməsi futbolçunun meydançadakı performansına birbaşa təsir edir. Bütün imkanlarımızı səfərbər edib yeni futbol fəlsəfəsi olan futbolçular yetişdirəcəyik və gənc futbolçuları əsas komanda üçün hazır vəziyyətə gətirəcəyik.



***— Yeni mövsümdə əvəzedici heyətin hədəfi nə olacaq?***

— Bir az əvvəl də qeyd etdiyim kimi məqsədimiz yeni futbol fəlsəfəsi olan, əsas komandaya kömək edə biləcək futbolçular yetişdirməkdir. Yeni oyun tərzimizi, futbol fəlsəfəmizi və təcrübəmizi aşılamaqla yüksək texnikalı futbolçular yetişdirəcəyik. Bu məqsədə nail olmaqla istədiyimiz hədəfə çata bilərik — həm çempionatın qalibi olarıq, həm də əsas komandanı futbolçu ilə təmin edərik.

***— Hazırda heyətdə əsas komandaya namizəd futbolçular varmı?***

— Qısa müddətdir komandaya rəhbərlik edirəm. Hələ ki, dəqiq fikir söyləmək üçün tezdir. Heyətdə bəyəndiyim və gələcəyinə inandığım futbolçular var. Amma məqsəd fərdi xüsusiyyətlərə malik futbolçular yetişdirmək deyil. Biz istədiyimiz nəticələri əldə etmək gücündə olan, komanda oyunu nümayiş etdirən kollektiv formalaşdırmağa çalışırıq.

## Neymar: “İniyesta inanılmaz futbolçudur”



Braziliya futbolunun gənc istedadı Neymar İspaniya millisi və “Barselona”nın ulduz futbolçusu Andres İniyesta haqda xoş sözlər deyib.

FİFA rəsmi saytına danışan Neymar İniyestanın inanılmaz bir futbolçu olduğunu açıqlayıb:

“Avro-2012” yüksək səviyyədə təşkil olunmuşdu. Bu turnirdə yalnız Braziliya və Argentina kimi komandalar çatışmırdı. İspaniya çox möhtəşəm çıxış etdi və layiqli zəfərini qazandı. Ancaq ispanların heyətində İniyesta xüsusi fərqlənirdi. Onu çox sevirəm. Həqiqətən də İniyesta inanılmaz bir futbolçudur”.

Qeyd edək ki, Neymar sonda Kriştiano Ronaldo (Portuqaliya) və Məsut Özilin (Almaniya) də “Avro-2012”ni yüksək səviyyədə keçirdiyini bildirib.

## 21-ci əsrin ən məhsuldar futbolçuları açıqlandı

Beynəlxalq Futbol Tarixi və Statistikaları Federasiyası (İFFHS) XXI əsrdə dünyada ən çox qol vuran futbolçuların siyahısını açıqlayıb.

Siyahıya Fil Dişi Sahili yığmasının hücumçusu Didye Droqba başçılıq edir.

“Olimpik” (Marsel) və “Çelsi”nin sabiq futbolçusu 100 qolla bütün rəqiblərini qabaqlayıb. Çıxış etdiyi klubların heyətində 45 dəfə fərqlənən Droqba yığmanın heyətində 55 qola imza atıb.

Almaniya millisinin hücumçusu Miroslav Kloze isə 90 qolla siyahıda ikinci olub. Milli komandanın heyətində 64 qola imza atan Kloze çıxış etdiyi klublarda 26 dəfə qol sevinci yaşayıb. Rud Van Nistelroy (87) 3-cü, Tyeri Anri (85) 4-cü və Samuel Eto’O isə (84) siyahıda 5-ci pillədə qərarlaşıb.

Hazırda dünyanın ən yaxşı futbolçuları kimi dəyərləndirilən Lionel Messi və Kriştiano Ronaldo müvafiq olaraq 6 və 9-cu pilləyə sahib çıxıblar. Argentina millisində 28, “Barselona”da 56 qola imza atan Messi ümumilikdə 84 dəfə rəqib qapısına yol tapıb. Ronaldo isə Portuqaliya millisində 36 dəfə fərqləndiyi halda, “Real” (Madrid) və “Mançester Yunayted”in heyətində ümumilikdə 40 qola imza atıb.

## İtaliya Superkuboku Çində keçiriləcək

İtaliya Superkubokunun keçiriləcəyi stadionun adı açıqlanıb. Superkubok görüşü avqustun 11-də Çinin paytaxtında Pekin milli stadionunda keçiriləcək. A Seriyasının qalibi “Yuventus” və ölkə kubokunun sahibi “Napoli” komandaları arasında keçiriləcək oyun Bakı vaxtı ilə saat 18:00-da başlayacaq. 90 dəqiqə ərzində qalib müəyyənləşməzsə, əlavə vaxta ehtiyac duyulacaq. Burada da hesab dəyişməzsə, oyunsonrası penaltilər seriyasına keçiləcək.

Qeyd edək ki, “Yuventus” indiyədək 4 dəfə, “Napoli” də isə 1 dəfə (1990) İtaliya Superkubokuna sahib çıxıb.

## *Anelka:* "Karyeramı Çində başa vuracağam"



Çinin “Şanxay Şenxua” klubununda forma geyinən Nikolas Anelka komandadan ayrılacağı haqda yayılan xəbərlərə münasibət bildirib. Fransız futbolçu karyerasının sonuna qədər komandada qalacağını deyib:

“İngiltərə Premyer Liqasına qayıtmayacağam. Əgər bir gün “Şanxay Şenxua”dan ayrılsam, bu, karyeramı başa vurduğum anlamına gələcək. Hələ ki, komandadan ayrılmaq niyyətim yoxdu və karyeramı məhz Çində başa vurmağı düşünürəm”. Ötən çempionat oyununda komandanın azarkeşləri ilə mübahisə edən Anelkanın “Şanxay Şenxua”dan ayrılacağı bildirilirdi. Lakin 33 yaşlı futbolçu “Çelsi”dən komanda yoldaşı olan Didye Droqbanın da gəlməsi ilə daha da həyəcanlandığı və hər şeyin qaydasında olduğunu açıqlayıb. Qeyd edək ki, ötən mövsüm “Şanxay Şenxua” klubuna transfer olunan Anelka cəmi 2 qola imza atıb.

## Şevçenko “Dinamo”da qaldı



Ukrayna millisinin hücumçusu Andrey Şevçenko yayılan xəbərlərin əksinə olaraq, karyerasını ABŞ-da davam etdirməyəcək. “Gazzetta Dello Sport”un verdiyi məlumata görə, Şevçenko doğma klubu Kiyev “Dinamo”su ilə müqaviləni daha bir il müddətinə uzadıb. Bununla da, o, ABŞ-ın “Di-Si-Yunayted” klubuna keçməkdən imtina edib.

Qeyd edək ki, “Avro-2012”də Ukrayna çıxışını başa vurduqdan sonra Şevçenko millidəki karyerasına son qoyduğunu açıqlayıb. Bundan sonra o, dizindən əməliyyat oliunmaq üçün İtaliyaya gedib. Əməliyyatın uğurla keçdiyi bildirilir.

## "Fənərbağça"nın hücumçusu Premyer Liqa yolunda

Rusiyanın “Anji” klubu yenidən “Fənərbağça”nın hücumçusu Miroslav Stoka “elçi” düşüb.

Mahaçqala təmsilçisi slovakiyalı futbolçunu transfer etməkdə israrlıdır.

Daha öncə Stok üçün 12 milyon avro təklif edən “Anji” bu məbləği bir qədər də artırıb. Dağıstan təmsilçisi 22 yaşlı futbolçunun transferi üçün “Fənərbağça”ya 17,5 milyon avro təklif edib. Bu məbləğin Türkiyə klubu rəhbərliyini qane etdiyi bildirilir.

Qeyd edək ki, 2010-cu ildən “Fənərbağça”nın formasını geyinən Stok keçirdiyi 56 oyunda 14 qola imza atıb.

## Hindistan futbolunda utancverici hadisə

Hindistanın Jalpaiguri şəhərində keçirilən “Raykatpara” — “Bhanu Nagar” matçında utancverici hadisə yaşanıb.

Rəqib qapıçı ilə toqquşan Maheş Tapa təcili yardım maşını olmadığından motosikletlə yaxınlıqdakı 3 xəstəxanaya aparılıb.

Lakin bu xəstəxanaların heç birində boş yer olmadığından futbolçu həkim nəzarətinə alınmayıb. Heç bir xəstəxanada qəbul edilməyən 27 yaşlı futbolçu nəticədə dünyasını dəyişib.

Qeyd edək ki, Tapa Hindistanda son 4 ayda dünyasını dəyişən ikinci futbolçu olub. Daha öncə mart ayında Bangaloreli adlı futbolçu meydanda infarkt keçirsə də, ona yardım edən tapılmayıb.

## "Rəvan" polşalı qapıçı ilə müqavilə bağlayır

“Rəvan” heyətini daha bir futbolçu ilə gücləndirir.

Bu haqda Qol.Az-a açıqlamasında klubun vitse-prezidenti Bəhruz Şirəliyev məlumat verib. Söhbət polşalı qapıçı Lukas Speladan gedir. Şirəliyevin sözlərinə görə, qapıçı artıq düşərgədədir və baş məşqçi Cavad Güler onu iş başında sınayır. Böyük ehtimalla “Rəvan” bu qapıçı ilə 1 illik müqavilə bağlayacaq.

Qeyd edək ki, Spela 1982-ci ildə anadan olub. 186 sm boya malik qapıçı “Rəvan”dan əvvəl “Belsato”nun şərəfini qoruyub və Polşa çempionatında 109 oyunda forma geyinib.

## "Tottenhem" "Real"dan 40 milyon tələb edir

İspaniyanın “Real” (Madrid) klubu növbəti transfer hədəfini açıqlayıb.

Madrid təmsilçisi “Tottenhem”in yarımmüdafiəçisi Luka Modriçi heyətinə qatmağı planlaşdırır.

“Real” rəhbərliyi xorvatiyalı futbolçunun transferi üçün 35 milyon avrosundan keçməyə hazırdır. Lakin London təmsilçisi Modriçin transferi üçün “Real”dan 40 milyon avro tələb edib. Bu məbləğ isə “Real” rəhbərliyini razı salmayıb.

Karyerasını “Real”da davam etdirmək istəyən 26 yaşlı futbolçu bu haqda belə deyib: “Real”a keçidimi səbirsizliklə gözləyirəm. Çünki mən yalnız “Real”da oynamaq istəyirəm. Ümid edirəm ki, bu keçidim baş tutacaq”.

Qeyd edək ki, 2008-ci ildən “Tottenhem”də çıxış edən keçirdiyi 127 oyunda 13 qola imza atıb.

## "Barselona" ilə "Real" arasındakı oyunların vaxtı açıqlandı

İspaniya çempionu “Real”la (Madrid) ölkə kubokunun qalibi “Barselona” arasındakı superkubok oyunlarının vaxtı açıqlanıb. Bundan başqa komandaların növbəti çempionatlardakı qarşılaşmalarının da tarixi bəlli olub.

İspaniya Futbol Federasiyasından bildirilib ki, superkubok uğrunda ilk oyun avqustun 23-də “Nou-Kamp”da, cavab görüşü isə avqustun 30-da “Santyaqo Bernabeu”da baş tutacaq.

Bu komandalara arasında növbəti ölkə çempionatında ilk görüş oktyabrın 6 va ya 7-də “Nou-Kamp”da, ikinci matç isə gələn ilin martın 2-si və ya 3-də Madriddə keçiriləcək.

## Rusiya millisinin baş məşqçisi vəzifəsinə namizədlərin adları rəsmən açıqlandı

### ONLARIN ARASINDA QVARDİOLA İLƏ KAPELLO DA VAR

Rusiya Futbol İttifaqı (RFİ) ölkə milli komandasının bol qalmış baş məşqçisi vəzifəsinə namizəd olan mütəxəssislərin adlarını rəsmən açıqlayıb.

RFİ-nin rəsmi saytında namizədlərin sayının 13 olduğu bildirilib. Bunlar Rafael Benites, Anatoli Bışovets, Marselo Byelsa, Valeri Qazzayev, Xosep Qvardiola, Fabio Kapello, Andrey Kobelev, Yuri Krasnojan, Marçello Lippi, Valeri Nepomnyaşşi, Nikolay Pisarev, Harri Rednapp və Yuri Syomindir.

Məlumatda qeyd olunub ki, yaxın günlərdə RFİ bu məşqçilərin hər biriylə danışıqlar masası arxasına oturacaq.

## "Kəpəz"də türkiyəli futbolçu

Baxışda olan legionerləri geri göndərən “Kəpəz” yerli futbolçulardan biri ilə müqavilə bağlamağa yaxındır.

Bu barədə klubun mətbuat xidmətindən məlumat veriblər.

Gəncə klubu 24 yaşlı müdafiəçi Fərid Həşimzadə ilə yaxın günlərdə münasibətlərini rəsmiləşdirəcək. Ötən mövsümü “Rəvan” klubunda keçirən futbolçu ilə bir illik müqavilə bağlanacağı gözlənilir.

Bundan başqa, “Kəpəz” düşərgəsinə qapıçı mövqeyində baxışdan keçirmək üçün daha bir legioneri dəvət edib. Bu, türkiyəli 25 yaşlı qolkiper Gürcan Yücelikidir.

“Fənərbağça”nın yetirməsi olan Gürcan başa çatan mövsümdə 3-cü liqadan 2-ci liqaya yüksələn “Kahramanmaraş” komandasının şərəfini qoruyub (“Trend”).

**Materialları Anar Cəfərsoy hazırladı**

**Q□zet 1992-ci il noyabrın 17-d□n çıxır.**

**Baş redaktor:** Rəşad Məcid
**Redaktor:** Yaşar □liyev
**Baş redaktor müavinləri:** Yusif Rzayev, Seyfəddin Hüseynli
**Redaktor müavinləri:** Aydın Bağırov, Mirhacib Məcid, İsgəndər Həsənov

Qəzet bazar və bazar ertəsindən başqa hər gün çıxır
**Ünvan:** AZ1033, Bakı, Ş.Mustafayev küçəsi-27/121
Telefon: 566-67-98, 566-93-40
Faks: 566-25-20
**İnternet ünvanı: www.525.az**
**E-mail: qezet525@mail.ru**
Qəzet “Azərbaycan” nəşriyyatının mətbəəsində çap olunub.
Təsisçi: “525” şirkəti
İndeks: 0046, tiraj: 2250, sifariş:2373
“TURAN”, “TREND”, AzərTAc, “AssA-İradə”, APA v□ “OLAYLAR”ın informasiyalarından istifad□ olunub.
Dərc olunan reklamların mətninə görə redaksiya məsuliyyət daşımır.
® işarəsi altında dərc olunan materiallar reklam xarakterlidir.